www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16 may 2017-ci il Çərşənbə axşamı № 103 (6717) Qiymətı 60 qəpik

**Xəbər**

**Bakının mərkəzində dəhşətli intihar- gənc qadin özünü binadan atdı**

yazısı səh.2-də

**Gündəm**

## Ümumrusiya Azərbaycan Konqresinin qeydiyyatı ləğv edildi



Qurumun prezidenti Fazil Qurbanov qərarı ədalətsiz adlandırdı; Azərbaycan hansı addımları atacaq...

yazısı səh.2-də

## Agentlərin ifşası və Eldar Mahmudovun baş nazir olmaq iddiası-yeni şok faktlar

yazısı səh.5-də

## Beynəlxalq Bankı xilas etmək mümkün olacaqmı...

yazısı səh.3-də

## Azərbaycanda çörək bahalaşa bilər

yazısı səh.13-də

## "Açıq Hökumət Təşəbbüsü islahatlar hərəkatıdır" - Əliməmməd Nuriyev

yazısı səh.7-də

## Siyasi həyatda durğunluğun sirri-siyasətçilər böhranı etiraf etdilər

yazısı səh.8-də

## Erməni separatçılarının Şuşa təxribatı - danışıqlara son verilə bilər

yazısı səh.11-də

## İran seçkilərində kritik 3 gün

yazısı səh.12-də

## Dünyanın ən bahalı boşanmaları

yazısı səh.14-də

## Barənizdəki yazını internetdən sildirmək üçün nə etməli...

yazısı səh.15-də

## Hökumətdən yeni balıq qadağası: məqsəd nədir?

yazısı səh.13-də

## Azərbaycan Səudiyyə Ərəbistanında Trampın iştirakı ilə keçiriləcək sammitə dəvət olundu

yazısı səh.2-də

## Ermənilərin müsəlman Şərqinə artan səfərləri üzərində sirr pərdəsi

# ERMƏNİSTAN AZƏRBAYCAN ƏLEYHİNƏ İŞİD-Ə YOL AXTARIR - SENSASİON GƏLİŞMƏ

Bakıdakı İslam Oyunları fonunda Sərkisyan ərəb ölkəsinə getdi; İrəvan İslam dünyasının Azərbaycana münasibətini dəyişmək planı üzərində işləyir; **keçmiş erməni səhra komandiri:** "Azərbaycan əleyhinə İŞİD-lə də əməkdaşlığa hazırıq.."




yazısı səh.9-da

## Azərbaycanlı milyarder bütün kartları açdı: "Palmali"ni ondan necə almaq istəyiblər...

Mübariz Mənsimov şirkətin borclarını qaytarıb, girov səhmlərini geri alıb ; "Palmali"nin sahibi həmişə mən olacağam", demək kimlərə mesajdır?

yazısı səh.6-da



*Fazil Mustafa:*

**"1992-ci il 14 mayda Ayaz Mütəllibovun hakimiyyətə qayıtması dövlət çevrilişi idi"**

yazısı səh.3-də



*Əkrəm Həsənov:*

**"Azərbaycandakı lombardların hamısının fəaliyyəti qanunsuzdur"**

yazısı səh.4-də



**Əli İnsanova Qobustan təhlükəsi**

yazısı səh.6-da



## Prezident İlham Əliyev Azərbaycan idmançılarına medalları təqdim etdi

**IV İslam Həmrəyliyi Oyunlarının Heydər Əliyev adına İdman Sarayında keçirilən cüdo yarışlarının sonuncu günündə komandalar qələbə uğrunda mübarizə aparıblar.**

APA-nın məlumatına görə, Azərbaycanın kişilərdən ibarət milli komandası yarışı qızıl, qadın yığmamız isə gümüş medallarla başa vurublar.

Azərbaycan prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev və birinci xanım, IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva kişi cüdoçular arasında komanda yarışının final qarşılaşmasına baxıblar.

Milli komandamız gərgin idman mübarizəsi şəraitində keçən həlledici qarşılaşmada Əlcəzair yığmasına 3:2 hesabı ilə qalib gələrək qızıl medal qazanıb.

Yarışda Azərbaycanı Nicat Şıxəlizadə (66 kq), Rüstəm Orucov (73 kq), Rüfət İsmayılov (81 kq), Məmmədəli Mehdiyev (90 kq) və Uşanqi Kokauri (+90 kq) təmsil ediblər.

Bürünc medallara Türkiyə və Özbəkistan yığmaları layiq görülüblər.

Sonra idmançıların mükafatlandırılması mərasimi keçirilib.

Qalib komandaların üzvlərinə medalları dövlət başçısı, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev təqdim edib. Çempion cüdoçularımızın şərəfinə Azərbaycan Respublikasının dövlət himni səsləndirilib, dövlət bayrağı qaldırılıb.

## Azərbaycan Səudiyyə Ərəbistanında Trampın iştirakı ilə keçiriləcək sammitə dəvət olundu

**Azərbaycan Səudiyyə Ərəbistanında ABŞ prezidenti Donald Trampın iştirakı ilə keçiriləcək Ərəb-İslam sammitinə dəvət olunub. APA-nın "Al-Arabiya"ya istinadən verdiyi məlumata görə, sammit mayın 21-də Ər-Riyad şəhərində baş tutacaq.**

Körfəz Əməkdaşlıq Şurasına üzv altı ölkə ilə yanaşı, Türkiyə və Azərbaycan daxil olmaqla, 18 müsəlman ölkəsinin liderləri sammitə dəvət olunub. İran sammitə dəvət edilməyib.



## Bakının mərkəzində dəhşətli intihar- gənc qadin özünü binadan atdı

**Bakıda intihar hadisəsi olub. APA-nın məlumatına görə, Nəsimi rayonu, Qoqol küçəsi 28-38 ünvanında 1986-cı il təvəllüdlü Şərifova Susanna Şakir qızı intihar məqsədilə özünü 3-cü mərtəbədən atıb. O, xəstəxanaya aparılarkən yolda keçinib.**

İntiharın səbəbi araşdırılır.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Rusiya Ali Məhkəməsi Ümumrusiya Azərbaycan Konqresinin qeydiyyatını ləğv etdi

### Qurumun prezidenti Fazil Qurbanov qərarı ədalətsiz adlandırdı; Azərbaycan hansı addımları atacaq...

**Rusiya Federasiyası Ali Məhkəməsində Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) qeydiyyatının ləğv edilməsi barədə Rusiya Ədliyyə Nazirliyinin iddiası üzrə proses davam etdirilib.**



APA-nın Moskva müxbirinin verdiyi xəbərə görə, Ali Məhkəmə Ədliyyə Nazirliyinin iddiasını təmin edərək, ÜAK-ın qeydiyyatının ləğv olunması barədə qərar verib.

ÜAK-ın prezidenti Fazil Qurbanov APA-ya açıqlamasında qərarı ədalətsiz adlandırıb. O, apelyasiya şikayəti verəcəklərini bildirib.

Qeyd edək ki, Ədliyyə Nazirliyindən bir müddət əvvəl APA-ya verilən açıqlamada ÜAK-ın fəaliyyətində Rusiya Federasiyası qanunvericiliyinin pozulduğu bildirilib. Rusiya Ədliyyə Nazirliyi "İctimai təşkilatlar haqqında" qanunu əsas götürərək ÜAK-ın Mərkəzi Şurasının Rəyasət Heyətinə aşkar olunan pozuntuların aradan qaldırılması ilə bağlı dəfələrlə xəbərdarlıq edib.

Təşkilat pozuntuları aradan qaldırmadığına görə Rusiya Ədliyyə Nazirliyi təşkilatın ləğvinə dair inzibati iddia qaldırılması üçün bu il martın 9-da Ali Məhkəməyə müraciət edib.

Ümumrusiya Azərbaycan Konqresi 2001-ci ildə yaradılıb.

İki aya yaxındır ki, Azərbaycan hökuməti və lobbisi ÜAK-ın qeydiyyatına yaranan təhlükəni aradan qaldırmağa çalışırdı. Görünür, Rusiya ölkəmizə qarşı hansısa planlar hazırlayır və bu addımı atmaq da onlar üçün öncədən planlaşdırılmış məsələ olub və siyasi xarakter daşıyır. Belə bir vəziyyətdə Azərbaycan hökumətinin hansı addımları atacağı da maraq doğurur.



## İslamiada günlərində təcili tibbi yardıma 66 müraciət daxil olub

**IV İslam Həmrəyliyi Oyunları başlanandan indiyədək Təcili və Təxirəsalınmaz Tibbi Yardım Xidmətinə 66 müraciət daxil olub.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Səfayə Əhmədova APA-ya bildirib ki, onlardan 24 şəxs xəstəxanaya yerləşdirilib. Onun sözlərinə görə, həmin şəxslərdən 22 nəfəri Klinik Tibbi Mərkəzə aparılıb, 3 nəfər konsultasiyadan sonra evə buraxılıb. Xəstəxanada olan şəxslər müalicədən sonra evə yazılıb: "Təcili yardıma müraciət edən 66 nəfərdən 18 nəfəri əcnəbidir və onlardan 11-i xəstəxanaya aparılıb. Konsultasiya olunan 3 şəxs də əcnəbidir. 48 nəfər yerli iştirakçıya baxış olub və onlardan 10 nəfəri hospitalizə edilib. İştirakçıların 22-si Mərkəzi Klinik Xəstəxanaya, digər 2 nəfər idmançıların Bərpa Mərkəzinə yerləşdirilib. Diaqnozları baş ağrıları, hərarət, aritmiya və s. olub".

Nazirlik rəsmisi əlavə edib ki, hazırda Kliniki Tibbi Mərkəzdə cəmi bir nəfər var. Xəstəxanaya yerləşdirilənlərin hər birinə yüksək səviyyədə lazımi tibbi yardım göstərildiyini deyən S. Əhmədova qeyd edib ki, qalan 1 nəfər bu gün evə buraxılacaq.

## "Ad çəksəm, vətəndaş müharibəsi olar"- Akif Çovdarovdan sensasion açıqlama

**Sabunçu Rayon Məhkəməsində ləğv edilmiş MTN-in generalı Akif Çovdarov və digər 3 nəfərin cinayət işi üzrə keçirilməli olan növbəti məhkəmə prosesi təxirə salınıb.**



Musavat.com xəbər verir ki, səbəb təqsirləndirilən polkovnik Səlim Məmmədovun vəkili Cavid Rzazadənin məhkəməyə gəlməməsi olub. C.Rzazadə əməliyyat olunduğu üçün məhkəməyə gələ bilməyib.

Dövlət ittihamçısı çıxış edərək məhkəməyə təklif edib ki, əgər təqsirləndirilən şəxs Səlim Məmmədovun vəkili 10 gündən artıq prosesdə iştirak etmirsə, ona yeni vəkil təyin edilməlidir.

Prokuror həmçinin deyib ki, cinayət işində olan bəzi epizodlar Səlim Məmmədova aidiyyəti olmadığı üçün həmin epizodlar üzrə məhkəməni davam etdirmək olar.

Prokurorun bu təklifinə vəkillər münasibət bildirərək deyiblər ki, əgər bu epizodların Səlim Məmmədova aidiyyəti yoxdursa, o, niyə qrup şəklində həbs edilib və onlara "mütəşəkkil dəstə" olaraq cinayət törətmək ittihamı verilib?

Akif Çovdarovun vəkili Kamandar Nəsibov isə deyib ki, prokuror həmin epizodlar üzrə Səlim Məmmədova qarşı ittihamlardan imtina edərsə, bu halda işə onun təklif etdiyi şəkildə baxıla bilər.

Müzakirələrin davamında vəkillər bildirib ki, əgər yeni vəkillər təyin edilərsə, o da işlə tanış olmaq üçün məhkəmədən ən azı 2 həftə vaxt istəyəcək. Bu da məhkəmənin vaxtını uzadacaq.

Təqsurləndirilən polkovnik Səlim Məmmədov da prokurorun təklifinə münasibət bildirərkən bildirib ki, öz vəkilinin işi davam etdirməsini istəyir.

Daha sonra Akif Çovdarov da məhkəmədə çıxış edib.

General vəkilin məhkəməyə gələ bilməməsi haqda bunları deyib: "Mən əslində bu məsələ ilə bağlı nəsə demək istəmirəm. Sonra mətbuatda yazacaqlar ki, Cavidi mənim adamlarım döyüb bu hala salıb".

**Akif Çovdarov mətbuatda MTN-lə əməkdaşlıq edən agentlərlə bağlı yazılanlara da münasibət bildirib:**

"Mərhum Elçin Behbudovla bağlı yazılanlar yalandır. Elçin Behbudovun Azərbaycan dövləti üçün etdiklərini prokurorluq və digər orqanlar birlikdə yığışsalar, 10 faizini etməyiblər. Məhkəmə proseslərindən kim nə gəldi, yazıb. Mən agentura ilə bağlı adlar çəksəm, nə olacaq? Mən danışsam, ad çəksəm, vətəndaş müharibəsi olar. Hazırda yüksək vəzifə tutan məmurlarla bağlı açıqlamalar verilsə, nə olacaq? İstintaqı aparan orqanın agentlərlə bağlı məlumatları ittihamda qeyd etməsi, ad çəkməsi dövlətçiliyə ziddir. Bundan sonra hansı şəxs dövlət orqanları ilə əməkdaşlıq edər?"

Məhkəmədən prokurorun təklifi qəbul edilməyib və vəkil Cavid Rzazadə iştirak edənə qədər məhkəmə təxirə salınıb. Növbəti proses mayın 24-nə təyin edilib.

Xatırladaq ki, iki gün əvvəl İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri olmuş, mərhum Elçin Behbudovun MTN-lə əməkdaşlıq etmiş agentlər sırasında adı yer almışdı. Bu barədə musavat.com da yazmışdı. Həmçinin başqa agentlərin də adı istintaq materiallarına istinadən yayılmışdı.

## Ermənistanın "OSA" zenit-raket kompleksi məhv edildi

**Ermənistan cəbhə xəttində vəziyyəti yenidən gərginləşdirmək məqsədilə təxribat xarakterli fəaliyyətini davam etdirir.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, mayın 15-də cəbhənin Füzuli-Xocavənd istiqamətində Ermənistan hava hücumundan müdafiə qoşunlarına məxsus "OSA" zenit-raket kompleksi hərbi qulluqçular tərəfindən müdafiənin ön xəttində yeni mövqeyə çıxarılaraq hava məkanını nəzarətə götürməyə cəhd göstərilib.

Azərbaycanın uçuş aparatlarına yaranan real təhlükənin və düşmənin aktivliyinin qarşısını almaq məqsədilə Ermənistanın "OSA" zenit-raket kompleksi və nəqliyyat-doldurucu maşını atəşlə tam sıradan çıxarılıb, şəxsi heyəti məhv edilib.

Qeyd edək ki, ekipajı 5 nəfərdən ibarət olan "OSA" zenit-raket kompleksi hava hədəflərini 45 kilometr radiusda aşkar edərək izləməyə götürməyə və 9 kilometr uzaqlıqda məhv etməyə qadirdir.

## DGK Ermənistandan Azərbaycana mal gətirilməsinə dair iddialara cavab verdi

**Dövlət Gömrük Komitəsi (DGK) Ermənistanda istehsal olunan kənd təsərrüfatı məhsullarının Azərbaycana gətirilməsi barədə xəbərlərlə bağlı məlumat yayıb.**

DGK-nın mətbuat xidmətindən "APA-Economics"ə daxil olan məlumatda bildirilir ki, bəzi KİV-də Ermənistanda istehsal olunan kənd təsərrüfatı məhsullarının Azərbaycanın gömrük sərhədindən keçirilməsi və ölkə ərazisində realizə edilməsi ilə bağlı həqiqətə uyğun olmayan xəbərlər yayılıb.

DGK bununla əlaqədar bildirir ki, ölkə ərazisinə gətirilən kənd təsərrüfatı məhsulları sərhədkeçmə prosesi zamanı qanunvericiliyə uyğun olaraq tələb olunan sənədlər - mənşə, fitosanitar, baytarlıq sertifikatları və digər zəruri sənədlər ciddi şəkildə yoxlanıldıqdan, lazım olduqda müəyyən laborator analizlər aparıldıqdan sonra gömrük sərhədindən keçirilməsinə icazə verilir.

"Qanunvericiliyin tələblərinə uyğun olmayan hal qeydə alındıqda isə dərhal zəruri tədbirlər həyata keçirilir. Üstəlik, Azərbaycan Nazirlər Kabinetinin 305 saylı qərarında aparılan son dəyişikliklərə əsasən Azərbaycan Respublikası vətəndaşının şəxsi istifadə üçün bir təqvim ayı ərzində 30 kq ərzaq məhsulunu güzəştli qaydada ölkəyə gətirə bilər ki, bu dəyişiklik də bu sahədə nəzarətin daha da gücləndirilməsinə şərait yaradır və əvvəllər yol verilən sui-istifadə hallarının qarşısını alır", - deyə məlumatda deyilir.

DGK bir daha bəyan edir ki, idxal-ixrac əməliyyatları zamanı mövcud qanunvericiliyin tələblərinə ciddi əməl olunur və bu tələblərə cavab verməyən malların gömrük ərazisinə gətirilməsi qeyri-mümkündür.

YENİ MÜSAVAT
N 103 (6717) 16 may 2017

**1992-ci il 14-15 may hadisələrindən 25 il keçdi. Xatırladaq ki, 1992-ci ilin mart ayında o zamankı Azərbaycan prezidenti Ayaz Mütəllibov Xocalı soyqırımı ilə əlaqədar davamlı tələblər qarşısında hakimiyyətdən istefa vermişdi. Prezident səlahiyyətlərini Ali Sovetin sədri Yaqub Məmmədov icra edirdi və ölkədə prezident seçkisi elan olunmuşdu. May ayının 14-də isə Ayaz Mütəllibov qəfil geri qayıdaraq Ali Sovetin tribunasından hakimiyyətə döndüyünü elan etmişdi.**

# "14 mayda Ayaz Mütəllibovun hakimiyyətə qayıtması dövlət çevrilişi idi"

## Əbülfəz Elçibəyin keçmiş müşavirindən 1992-ci ilin may hadisələri haqda açıqlamalar; **Fazil Mustafa:** "AXC-nin martın 6-da hakimiyyəti götürmək imkanı var idi; 15 may hadisəsini dövlət çevrilişi kimi qiymətləndirmək düzgün deyil"

Nəticədə gərgin vəziyyət yaranmış, Azərbaycan Xalq Cəbhəsinin öncüllüyü ilə xalq kütlələri meydanlara axışaraq ölkə konstitusiyasının Ayaz Mütəllibov tərəfindən pozulduğu elan edilmiş və Ali Sovetin qarşısında nəhəng mitinq keçirilmişdi. Xalqın ayağa qalxması mayın 15-də Ayaz Mütəllibovun yenidən hakimiyyətdən getməsi və Moskvaya qaçması ilə nəticələnmişdi.

O dövrdən indiyədək 15 may hadisələrinə münasibət birmənalı olmayıb. Məlum hadisələr ya xalq inqilabı, ya postsovet məkanında ilk məxməri inqilab, ya konstitusiyanın müdafiəsi hərəkatı, ya da dövlət çevrilişi kimi qiymətləndirilib. Xüsusilə də Ayaz Mütəllibov 25 ildir təkid edir ki, 15 mayda AXC tankla, silahla meydana çıxaraq dövlət çevrilişi edib.

**AXC sədri Əbülfəz Elçibəyin müşaviri və AXC icraiyyə komitəsinin üzvü olmuş deputat Fazil Mustafa isə 15 may hadisəsini dövlət çevrilişi adlandırmağın heç bir hüquqi əsasa söykənmədiyini bildirir. "Yeni Müsavat"a açıqlamasında Fazil Mustafa qeyd etdi ki, siyasi platformada durub həmin hadisələrə qiymət verəndə təbii ki, məsələyə öz maraq nöqteyi-nəzərindən baxacaqsan və hakimiyyətin itirilməsini dövlət çevrilişi nəticəsində həyata keçirilən akt olaraq görəcəksən:** "Ayaz Mütəllibov məsələyə məhz belə yanaşır. Artıq üzərindən 25 il keçib. Məsələyə hadisələrin canlı iştirakçısı və tarixçi məntiqi ilə yanaşılsa, hüquqi əsaslandırma ilə baxılsa görünəcək ki, 15 may 1992-ci ildə hər hansı bir şəkildə dövlət çevrilişi baş verməyib. Dövlət çevrilişi baş versəydi, hər hansı bir şəkildə qeyri-konstitusion bir qurum yarana bilərdi, həmin qurum bir müddət ölkəni idarə etdikdən sonra seçkilər təyin edə bilərdi. Amma faktiki olaraq artıq 1992-ci il martın sonlarında Azərbaycanda prezident seçkiləri 7 iyuna təyin edilmişdi və ölkə seçki prosesinin içindəydi, konkret namizədlər irəli sürülmüşdü. Namizədlər irəli sürüldüyü bir zamanda, seçkilərə hazırlıq getdiyi bir vaxtda mayın 14-də Ayaz Mütəllibov və ona yaxın qüvvələrin hakimiyyəti ələ keçirməsi birbaşa dövlət çevrilişi kimi qiymətləndirilməlidir. Çünki Ayaz Mütəllibov rəsmən martın 6-da prezidentlikdən istefa vermişdi və bu məsələ hüquqi prosedur əsasında həyata keçirilmişdi. Ona görə də 14 mayda Ayaz Mütəllibovun hakimiyyətə qayıtması konstitusiyanın pozulması-dövlət çevrilişi idi. Xalq Cəbhəsinin sənədlərini mən şəxsən yazdığım üçün dəqiq bilirəm ki, Əbülfəz Elçibəyin tapşırığı ilə 15 may hadisəsi ilə bağlı sənəd hazırladım. Həmin sənəddə 15 may hadisəsi konstitusiyanı müdafiə etmək üçün başlanan bir hərəkat olaraq xarakterizə edilirdi. 15 mayda dövlət çevrilişi olduğu barədə iddia hüquqi cəhətdən əsaslandırıla bilməz. 14 mayda dövlət çevrilişi olmuşdu və buna qarşı xalq kütlələri hərəkətə gəldi. Xalq Cəbhəsi də bir təşkilat olaraq bu hərəkatda iştirak edirdi. Düzdür, bu prosesdə müəyyən silahlı birləşmələrin də rolu var idi, amma onlar atəş açmaq, kiməsə öldürmək düşüncəsində deyildi. Silahlı qüvvələrdən xalqa qarşı istifadə edilməsinin qarşısını almaq üçün o vaxt məlum görüntü məqsədəuyğun sayılmışdı".



Fazil Mustafa

**F.Mustafa xatırlatdı ki, AXC o vaxt konstitusiyanın müdafiəsini tam qanuni olaraq öz üzərinə götürmüşdü və bu missiyanı da dinc şəkildə həyata keçirdi:** "Hətta xatırlayıram ki, AXC-nin balkonundan AXC-nin nədən hərəkata başladığını əsaslandıran sənədi şəxsən özüm oxumuşdum. Başlanan hərəkatın əsaslandırılmasına ehtiyac var idi. Biz onu oxuduqdan sonra Ali Sovetə doğru hərəkat başladı və AXC hüquqi çərçivədən qətiyyən kənara çıxmadı. 15 maydan sonra hamımız 7 iyun prezident seçkilərinin nəticələrini gözlədik. Seçkidə Əbülfəz Elçibəy prezident seçiləndən sonra digər qanuni hüquqi prosedurlar başladı. Buna qədər müəyyən azsaylı təyinatlar həyata keçirilmişdi. Bu da onun üçün idi ki, boşluq yaranmasın.

AXC-nin çevriliş edib hakimiyyətə gəlmək niyyəti olsaydı, bunu Ayaz Mütəllibov martın 6-da istefa verəndə rahatca həyata keçirərdi. Lakin Xalq Cəbhəsi kompromisə getdi və Yaqub Məmmədov Ali Sovetin sədri oldu və prezident səlahiyyətlərini icra etdi. Halbuki AXC-nin martın 6-da hakimiyyəti götürmək imkanı var idi. Odur ki, 15 may hadisəsini dövlət çevrilişi kimi qiymətləndirmək düzgün deyil".

**F.Mustafa vurğuladı ki, gələcəkdə tarixçilər bu hadisəyə tarixi-hüquqi aspektdən baxanda bunun konstitusiyanın müdafiə olunması hərəkatı olduğu qənaətinə gələcəklər.**

❑ **Etibar SEYİDAĞA**

# Beynəlxalq Bankı xilas etmək mümkün olacaqmı...

## **Qubad İbadoğlu:** "Bu bankda baş verənlər bankın iqtisadi baxımdan çoxdan müflis olduğunu deməyə əsas verir"

**Azərbaycan Beynəlxalq Bankı artıq o vəziyyətə çatıb ki, xarici borc öhdəliklərini ödəməyə çətinlik çəkir. Dövlət zəmanəti ilə alınmış 3.3 milyard dollara yaxın borc öhdəliklərinin vaxtında yerinə yetirilməməsi nəinki bu banka, Azərbaycan hökumətinə də problem yarada, ölkənin kredit reytinqini aşağı sala bilər. Bankın ödənilməsi gecikmiş borcları artıq 908 milyon dollara çatıb. Beynəlxalq Bank bunu nəzərə alaraq, kreditorların banka qarşı məhkəmə iddialarının dayandırılması və onun ABŞ-dakı hesablarına toxunulmaması ilə bağlı ABŞ məhkəməsinə müraciət edib. Müraciətdə deyilir ki, ABŞ-dakı hesablara girişin itirilməsi bankın öz fəaliyyətini davam etdirməsinə təhlükə yaradacaq. Hökumətin milyardlarla manat xərcləməsinə baxmayaraq, Beynəlxalq Bankın vəziyyəti ekspertlər tərəfindən qənaətbəxş hesab olunmur. Hətta bankın dövlət zəmanəti ilə xaricdən aldığı kreditlər də zaman-zaman mənimsənilib, korrupsiyanın qurbanı olub.**



Qubad İbadoğlu

Doğrudanmı Beynəlxalq Bank batır? Hökumətin çabaları bu bankı xilas etməyə kifayət edəcəkmi? ABB üçün xərclənən milyardlar manatın mövqeyini zəiflədə bilərmi?

**Vahid Əhmədov** deyir ki, Beynəlxalq Bankın sağlamlaşdırılması çox ciddi məsələdir: "Çünki orada problemlər çoxdur. Köhnə rəhbərliyin dövründə yaranmış problemlərdir. Külli miqdarda daxili və xarici borclar, passiv aktivlər var. Hökumət isə çalışır ki, passiv aktivlər olmasın. Çünki passiv aktivlərin olması ciddi problem yaradıb. Cənab prezidentin də sərəncamı var ki, Beynəlxalq Bank özəlləşdirməyə çıxarılmalıdır. Yenə də yük dövlətin üzərinə düşür ki, passiv aktivləri müəyyən qədər neytrallaşdırmaq üçün vəsait lazım olacaq. Bu vəsaitin necə təmin olunacağı məsələsi ilə Maliyyə Nazirliyi məşğuldur. Amma bankların sağlamlaşdırma prosesi çərçivəsində bu məsələnin də həll olunmasına ehtiyac var. Çünki bu proses Azərbaycanın maliyyə bazarına təsir edir".

**Beynəlxalq Bankın müflis elan olunmaqla bağlı Nyu-York məhkəməsinə müraciətinə münasibət bildirən V.Əhmədov vurğuladı ki, bu, bank sektoru üçün normal bir prosesdir:** "ABB Nyu-York məhkəməsinə müflisləşməklə bağlı müraciət edib ki, sonradan sağlamlaşdırma ilə bağlı vəsait cəlb etmək mümkün olsun. Bunun elə bir ziyanı yoxdur. Beynəlxalq maliyyə bazarında, bank sektorunda bu cür proseslər gedir".

**Beynəlxalq Bankın maliyyə bazarında yaratdığı gərginliyin manatın məzənnəsinə təsirinə gəlincə, deputat bunun mümkün olduğunu vurğuladı:** "Maliyyə bazarında olan istənilən dəyişiklik manata təsir edir. Düzdür, son vaxtlar manatın məzənnəsi qorunub saxlanılır. Bunun da müəyyən məqsədləri var. Lakin manatın uzun müddət qorunması qeyri-mümkündür".

**İqtisadçı ekspert Qubad İbadoğlu qeyd etdi ki, Beynəlxalq Bankda baş verənlər bankın iqtisadi baxımdan çoxdan müflis olduğunu deməyə əsas verir:** "Yeni bu bank ötənilki fəaliyyətini 2 milyard manata yaxın zərərlə başa vurub. Bankın sağlamlaşdırılması ilə bağlı dövlətin 9,3 milyard manata yaxın qoyuluşları var. Əlavə olaraq, bankın nizamnamə kapitalının formalaşdırılması üçün dövlət büdcəsindən 600 milyon manat vəsait ayrılmışdı. Neft Fondunun orada 1 milyard dollarlıq depozitləri var. Bütün bunları nəzərə alanda onsuz da bank müflis hesab olunmalıdır. Bankın ötən illərdəki fəaliyyəti və növbəti illərdə gözlənilən zərərləri bunu deməyə əsas verir. Amma bu hüquqi prosedur tələb edir. Bu gün hüquqi baxımdan bankın müflis olduğunu demək düzgün deyil. Belə bir qərarı yalnız məhkəmə verə bilər".

**İqtisadçının sözlərinə görə, Nyu-York məhkəməsində isə müzakirə predmeti bankın xarici kreditorlar qarşısındakı öhdəliklərinin dövlətin zəmanəti ilə təxirə salınması ilə əlaqədardır:** "Nyu-York məhkəməsində bu iddia ona görə qaldırılıb ki, bankın aktivlərini ələ keçirməsinlər. Əks təqdirdə, mövcud qaydalara görə öhdəliklərini yerinə yetirməyən Beynəlxalq Bank aktivləri xarici kreditorların sərəncamına keçməlidir. Dövlət burada zamin durur ki, həmin aktivlər bankın özündə qalsın, sağlamlaşdırma prosesi həyata keçirilsin. Dövlətin zamin durması o deməkdir ki, mövcud borcları ödəmək məcburiyyətində qalacaq. Söhbət, 3,3 milyard dollardan gedir. Bu da vergi ödəyicilərinin puludur. Dövlət bu vəsaiti nə Neft Fondundan, nə də dövlət büdcəsindən götürəcək. Çünki nə DNF-də, nə də büdcədə belə xərc maddəsi nəzərdə tutulmayıb. Düzdür, xarici borc öhdəlikləri ilə bağlı xərc maddələri var. Ancaq söhbət bu qədər böyük məbləğdən getmir. Ona görə də dövlətin götürdüyü bu öhdəlik də, hər halda, Beynəlxalq Bankı bu mərhələdə vəziyyətdən çıxara bilsə də, sonrakı mərhələdə dövlət öhdəlikləri üzərinə götürməmək üçün bankı özəlləşdirməyə çıxartmalıdır. Ancaq artıq özəlləşdirmə hansı şərtlərlə keçiriləcək, bu özəlləşdirmədə investor bankın öhdəliklərinə də sahib çıxacaqmı? Dövlətin zamin olduğu vəsaitləri həmin investor dövlətin əvəzindən ödəyə biləcəkmi? Bu da özəlləşdirmənin səmərəli formasının tapılmasından, bu prosesin normal və şəffaf keçirilməsindən asılıdır. Yox, əgər bu proses də "Kapital bank"ın özəlləşdirilməsi sxemi ilə aparılacaqsa, o zaman bu əməliyyatlarda ən çox qazanan Beynəlxalq Bankı gələcəkdə alacaq investor olacaq. Bu investor da bir anda Azərbaycan bank sektorunu monopoliyasına götürə bilər. Burada təhlükəli məqamlar çoxdur".

Qubad İbadoğlunun sözlərinə görə, istənilən halda bu qərarın verilməsi, beynəlxalq məhkəmə müstəvisində müzakirələrin başlaması Azərbaycan bank sisteminin reytinqinin düşməsinə, bankların gələcəkdə xarici kreditlərə çıxış imkanlarının daha da çətinləşməsinə gətirib çıxaracaq.

**Beynəlxalq Bankın maliyyə bazarı üçün yaratdığı problemlərin manatın məzənnəsinə də təsirsiz ötüşməyəcəyini deyən iqtisadçı ilin sonuna doğru milli valyutanın dəyərdən düşəcəyini açıqladı:** "Söhbət Beynəlxalq Bankın xarici borc öhdəliklərinin valyuta ilə ödənilməsindən gedir. Bu da daxili bazarda dollara tələbatı artıracaq. Ən ciddi təsirlərdən biri də manatın məzənnəsinə olan təsir olacaq. Çünki daxili bazarda xarici valyutaya olan tələb artacaq. Bu da manatın məzənnəsinin ucuzlaşması üçün əsas rol oynayan faktorlardan birinə çevriləcək. Çox güman ki, beynəlxalq yarışlardan sonra Azərbaycanda manatın məzənnəsinin ilin sonuna kimi davamlı olaraq ucuzlaşmasının şahidi olacağıq. 3,3 milyard dollar bu il ərzində ödəniləcəksə, təbii ki, bunun manatın məzənnəsinə təsiri olacaq. Yox, əgər xarici kreditorlarla razılaşma əsasında müəyyən qrafik əsasında bir neçə ilə icra olunacaqsa, təsirləri o qədər də böyük olmaya bilər".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 103 (6717) 16 may 2017

**Marketlərimizdə həmişə basabas olur. Restoranlarda yer tapılmır. Elə ki yay gəldi, bir istirahət mərəzində gecələməyə otaq qalmır. Ömrü boyu da yoxsulluqdan şikayət edirik.**
**Mən üsyandan öncə Misirdə olmuşdum. Qahirənin mərkəzində bir dənə sağlam inomarka tapmazdız. O sınıq-salxaq maşınları biz özümüzə yaraşdırıb sürmərik.**

**Aysel Əlizadə**



# Qarnınız qədər başınızın haqqında da düşünsəniz

**"Restoranlardan yığışdırmaq olmur sizi. Əridin o qarınları, arıqlayın. Ayıbdı! Böyütdüyünüz uşaqlar sizi nə qədər yeyib -içən yerdə görəcək? Ananı nə qədər qazan başında görmək olar? Bu ölkənin anasını qazandan ayırmaq lazımdı - təcili"**

**"Bütün dünyadan xəbərsiz olsan belə, 150-300 manat arası dəyişən ziyalı maaşının həyat üçün yetərsiz olduğunu və bu maaşla vicdanlı müəllim, həkim kimi qalmağın mümkünsüzlüyünü sən də, mən də gözəlcə anlayırıq. O müəllim ya rüşvət alacaq, ya da Hadi Rəcəbli demiş, fəhləliyə gedəcək"**

**"Bir dəfə sizi kitab oxuyan yerdə görməyən uşaqlardan şikayət edirsiz: "İndiki uşaqlar oxumaq istəmirlər". Kimdən örnək götürsünlər? Əlli il yaşayırsız, uşaq bircə dəfə sizi kitab dükanına girən görmür. Mağaza, mağaza... geyim, qarın"**

**"Bu şəhərin bütün kitab mağazaları adamsızlıqdan it ulayan atılmış xarabazara bənzəyir. Kabab haqda düşündüyünüzün onda birini kitab haqda düşünsəz dünya dağılmaz"**

Mən başa düşürəm ki, ölkədə vəziyyət yaxşı deyil. Üstəlik, biz komfortu sevən xalqıq. Özümüzü yaxşıya layiq bilirik. Evimiz, maşınımız, telefonumuz yaxşısından olsun istəyirik və bunun üçün beş qat artıq işləməyə hazırıq. Amma etiraf edək ki, bunu təkcə işləməklə əldə etmirik. Bir-birimizi yağlamamaqla, aldatmaqla, hətta vətəni soymaqla da pullanmaqdan çəkinmirik.

Hər halda, alimin maaşı ilə ölçmək olar hər şeyi.

Bilmirəm, biz alimə 150 manat civarında maaş yazanda nə haqda düşünmüşük. Hesablamaya görə o alim nə etməli idi, necə yaşamalıydı sualı o maaş alimə kəsiləndən bəri cavabsız qalır. Bütün dünyadan xəbərsiz olsan belə, 150-300 manat arası dəyişən ziyalı maaşının həyat üçün yetərsiz olduğunu və bu maaşla vicdanlı müəllim, həkim kimi qalmağın mümkünsüzlüyünü sən də, mən də gözəlcə anlayırıq. O müəllim ya rüşvət alacaq, ya da Hadi Rəcəbli demiş, fəhləliyə gedəcək.

Sözüm onda deyil. Mən bütün mövzularda sizin yerinizə danışa bilmərəm. Sözüm ondadı ki, marketlərdə, bazarlarda adam əlindən tərpənmək olmur. Paytaxtdan yazıram və burdakı durumu ifadə edirəm.

Yazıçı kimi alayı məsələdən narahatam. Yemək alırsız, nuş olsun. Bir ildə bir dəfə kitab mağazasına niyə girmirsiz? Yoxsa hər şeyi bilirsiz artıq?

Bu şəhərin bütün kitab mağazaları adamsızlıqdan it ulayan atılmış xarabazara bənzəyir. Kabab haqda düşündüyünüzün onda birini kitab haqda düşünsəz dünya dağılmaz. Qarnımıza elədiyimiz xidmətin yarıdan yarı hissəsini başımıza etsək, indiyə çox məsələni yoluna qoyardıq ölkədə. Hökumətlə döydüyümüz davaların içində savadla, kitabla, təhsillə bağlı mövzu yoxdu. Yalnız qarın davası. Bir dəfə bu ölkənin valideynləri məktəblərin durumu ilə bağlı narahatlıq ifadə etsəydi biz də "xalqımız böyükdü" deyəndə tərəddüd duymazdıq.

İşimi-gücümü atıb sizinlə dalaşmağa girişməyəcəm. Bir az toparlanın, özünüzü yığışdırın deyirəm. Bir az.

Restoranlardan yığışdırmaq olmur sizi. Əridin o qarınları, arıqlayın. Ayıbdı!

Böyütdüyünüz uşaqlar sizi nə qədər yeyib -içən yerdə görəcək? Ananı nə qədər qazan başında görmək olar? Bu ölkənin anasını qazandan ayırmaq lazımdı - təcili.

Ana deyəndə qazan, süpürgə gəlir ağlımıza.

Filmlərimizdə, ədəbiyyatımızda, mədəniyyətimizdə ana təmizlikçi rolundadı. Ana süpürgəçi obrazından çıxmır. Böyük işlərə yönəlmir. Bu yaxınlarda tərcümə etdiyim pyesin premyerası oldu. Məşqə baxmağa getmişdim. Pyes haqda ayrıca yazacam. Mövzunu mövzuya qatmayaq.

Əsərdə ana obrazı var. Bir də gördüm, haydı, həmin bu ana əlində süpürgə səhnədə göründü. Oranı süpürdü, buranı süpürdü, girinc qaldı ortada.

Başıma ana boyda daş saldılar elə bil. İradımı rejissora dedim, əsaslandırdım. Sağ olsun. Qəbul etdi və ananın əlindən süpürgəni aldıq. Rejissoru atam kimi sevirəm. Dedim, ay kişi, al o süpürgəni o qadından, kitab ver, kompüter ver ona. Yetər aa!

Bir dəfə sizi kitab oxuyan yerdə görməyən uşaqlardan şikayət edirsiz: "İndiki uşaqlar oxumaq istəmirlər". Kimdən örnək götürsünlər? Əlli il yaşayırsız, uşaq bircə dəfə sizi kitab dükanına girən görmür. Mağaza, mağaza... geyim, qarın. Və?

Kimə baxıb düzlənsin? Mənə? Siz onu mənlə tanış etmisiz? Bir dəfə yazımı oxutmusuz ona? Yox!

Eləməyin də belə. Küsə bilərəm. Kitab günü ayırın. Ailə adətlərinə salın. Effektini görməsəz, nə deyirsiz deyin. Kitab.

# "Azərbaycandakı lombardların fəaliyyəti qanunsuzdur"

## Əkrəm Həsənov: "Onlar ya bank, ya da ən azı bank olmayan kredit təşkilatı kimi Maliyyə Bazarlarına Nəzarət Palatasından lisenziya almalıdır"

**Bakı sakini lombarda qoyduğu qızılları geri ala bilmir. Lent.az xəbər verir ki, 8-ci Polis Bölməsinə müraciət edən İmanova Sevinc İsabala qızı mart ayında Neftçi Qurban küçəsi 36 ünvanındakı lombarda 70 qram qızıl qoyub 800 manat pul götürdüyünü bildirib. Daha sonra borcunu ödəyib qızıllarını geri almaq istəyən qadın obyektin bağlandığını görüb.**

Təəssüfedici olsa da, bu cür hadisələr son zamanlar tez-tez baş verir. Buna səbəb isə bir sıra bankların əhaliyə kredit verilməsini dayandırması və ya kredit şərtlərini çətinləşdirməsidir. Banklarda kredit verilməsi dayandığı üçün pula ehtiyacı olanlar lombardlara üz tutur, qızıl qarşılığında pul götürürlər. Burada qızılın qramından asılı olaraq məbləğ dəyişir. Bankdan fərqli olaraq lombarddan aldığın məbləğin miqdarından asılı olaraq ödənilən aylıq ödəniş sizin aldığınız borcun üzərindən getmir. Aldığınız məbləği bütöv geri qaytardıqda girov qoyduğunuz qızılları geri almaq mümkün olur.

Təəssüf ki, son zamanlar lombardlar bu qaydanı pozur və xalqı soymaqla məşğul olur. Çox zamanlar onlar aylıq ödənişi gecikən kimi borclunun qoyduğu girovu satdıqlarını deyirlər. Təbii, o qızılların qiyməti



borclunun aldığı məbləğdən bəzən dəfələrlə çox olur. Bəs bu nə dərəcədə doğrudur və məsələ qanunla necə tənzimlənir?

**Hüquqşünas, iqtisadçı ekspert Əkrəm Həsənov heç bir lombardın özbaşına girov qoyulan əmlakı götürüb satmaq hüququnun olmadığını dedi:** "Lombard həmin borc üzrə məhkəməyə müraciət etməlidir. Məhkəmə onun xeyrinə qərar çıxarmalı və girov əmlak da açıq hərracdan satılmalıdır. Əks halda, bu, qanun pozuntusudur və buna görə də vətəndaş həmin lombardı məhkəməyə verə bilər. Faktiki olaraq bu, girov əmlakın oğurlanması kimi qiymətləndirilə bilər. Mən girov qoymamışam ki, sabah aylıq ödənişi bir gün gecikdirsəm, sən o əmlakı götür özünə. Yəni məhkəmə qərarı olmadan bunlar edilə bilməz. Sadəcə olaraq, bizdə əhalinin əksəriyyəti qanunları bilmir və təəssüf ki, lombardlar da bundan istifadə edir. Digər problem isə odur ki, ümumiyyətlə, Azərbaycandakı lombardların hamısının fəaliyyəti qanunsuzdur. Çünki lombardlar yalnız öz vəsaiti hesabına, yəni öz sənədlərinə görə borc pul verə bilərlər. Bizdə isə lombardların öz kapitalları 2, 5, 10 manatdır. Bəs bunlar minlərlə, milyonlarla vəsaiti haradan verir?! Lombardların özləri də borc götürür. Əksər hallarda da bu borcu banklardan götürürlər. Bu isə artıq o deməkdir ki, onlar qanunsuz bank fəaliyyəti ilə məşğuldurlar. Kiminsə kiməsə kredit verməsi bank fəaliyyəti deyil. Mən bu gün sizə borc verə bilərəm, siz də mənə. Mən bu gün gedib lombard fəaliyyəti ilə də məşğul ola bilərəm. Amma o şərtlə ki, həmin borcu öz hesabımdan verirəm, öz pulumu verirəm. Əgər mən gedib başqasından borc alıb başqalarına kredit kimi verirəmsə, bu artıq bank fəaliyyətidir. Buna görə də bank lisenziyası alınmalıdır. Ya bank, ya da ən azı bank olmayan kredit təşkilatı kimi Maliyyə Bazarlarına Nəzarət Palatasından lisenziya alınmalıdır".

**"Qanunsuz fəaliyyət göstərən lombardların fəaliyyəti məhdudlaşdırılmalıdırmı" sualına gəlincə isə Ə. Həsənov bildirdi ki, lombardların fəaliyyətini yasaqlamaq yox, lisenziyalaşdırmaq lazımdır:** "Lombardların fəaliyyəti bir ara dayanmışdı. Əslində onları bağlamamışdılar. Sadəcə olaraq, vətəndaşların banklardan kredit alması asanlaşmışdı deyə lombardlara ehtiyac qalmamışdı. Heç kəs kredit üçün lombarda müraciət etmirdi. Bu gün isə banklardan kredit almaq çətinləşib, həm də ki, banklara və bank olmayan kredit təşkilatlarına xarici valyutada kredit vermə qadağan edilib. Buna görə də hətta elə banklar var ki, onlar özləri də lombarddan təşkil edirlər. Çünki orada əhaliyə dollarla kreditlər verirlər. Mən hesab edirəm ki, lombardların fəaliyyətini yasaqlamaq yox, lisenziyalaşdırmaq lazımdır. Yəni onları da bank olmayan kredit təşkilatlarına bərabər tutmaq lazımdır və tələb etmək lazımdır ki, onlar da Maliyyə Bazarlarına Nəzarət Palatasından lisenziya alsınlar və yalnız bu lisenziya əsasında fəaliyyət göstərsinlər. Maliyyə Bazarlarına Nəzarət Palatası da onların fəaliyyətinə nəzarət etsin. Bu, problemlərin bir çoxunun qarşısını alacaq".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 103 (6717) 16 may 2017

**Ötən həftə "MTN işi" üzrə məhkəmədə gözlənilməz agent siyahısının açıqlanması gündəmin əsas mövzuna çevrilib. Versiyalar isə "havada uçuşur". Contakt.az saytı yazır ki, Samir Əliyev kimi iqtisadçılar ciddi şəkildə əmindirlər ki, bu sirlər düşünülmüş şəkildə tirajlanır ki, xalqın diqqəti Azərbaycan Beynəlxalq Bankının müflis olmasından yayındırılsın.**



Eldar Mahmudov

# Agentlərin ifşası və Eldar Mahmudovun baş nazir olmaq iddiası - yeni şok faktlar

## DTX agentlərin deşifrə olunması ilə araşdırmaya başladı; Sülhəddin Əkbər: "Ziyanlı bir prosesin şahidləriyik"

**"Bütün bu işlər Eldar Mahmudovun hakimiyyətə gəlməsi üçün olub"**

KİV sahəsi üzrə hüquqşünas ekspert Rəşid Hacılı isə ehtimal edir ki, cəmiyyətə "verbovka" olunmuş baş redaktor və hüquq müdafiəçisi haqda əvvəlcədən düşünülmüş yalan məlumatlar ötürülür. Məqsəd isə siyasi müxalifəti gözdən salmaqdır.

Başqaları isə ləğv olunmuş MTN zabitlərinin sabiq naziri, qeyri-hökumət təşkilatı sədrini və baş redaktoru həqiqətən də "verbovka" etdiklərini düşünürlər.

Yenə cantact.az saytı yazır ki, məsələn, nəyə görə jurnalist, dövlətə xəyanətdə ittiham olunmuş Rauf Mirqədirovun məhkəməsi qapalı keçdiyi bir vaxtda MTN-in Antiterror Mərkəzinin sabiq rəisi general-mayor Elçin Quliyev və başqalarının işi üzrə məhkəmə prosesi qapalı keçirilmir və məhkəmədə milli təhlükəsizliyə aid sirlər açıqlanır?

"MTN əməkdaşlarının hər yerdə hər kəsi "verbovka" etmələrinə şübhə etməyə dəyməz - onların işi budur. Amma agentlər hansı məqsədlərlə istifadə olunub?"

Bu haqda özünün bloqunda sabiq MTN zabiti Ərəstun Oruclu yazır. O, geniş spektrdə, az da olsa məlumatlı olan vətəndaşların "verbovka" olunmasından hələ 2005-ci ildən xəbərdar olduğunu təsdiqləyir. Qeyd edir ki, bütün bu işlər Eldar Mahmudovun əmri əsasında aparılıb. Məqsəd isə hakimiyyətə gəlmək olub.

Ə.Oruclu iddia edir ki, E. Mahmudov 2015-ci ildə vəzifəsindən çıxarılsa da, həbs edilməyib. Bu gün də Bakının elit rayonunda, Badamdar qəsəbəsində inşa etdirdiyi imarətində yaşayır.

**Avropa Şurasında Azərbaycan nümayəndəliyinin sədri olmuş Arif Məmmədov özünün feysbuk divarında Mahmudovun vəzifədən qovulması üçün bir çox səbəblərin olduğunu yazıb və həmin səbəblərdən bir neçəsini sadalayıb.** "Vaxt olub ki, Mahmudov şantaj yolu ilə böyük bir biznes strukturundan böyük məbləğdə pul götürüb. Bunu ölkə rəhbərliyi bilib və həmin vaxt Mahmudovun karyerası tükdən asılı vəziyyətə düşüb. Amma Mahmudov həmin vaxt vəziyyətdən çıxa bilib. Mahmudov Beynəlxalq Bankdan böyük məbləğdə pul götürüb və həmin pulların bir hissəsi "yanıb".

Bundan başqa, Mahmudov özünün biznes tərəfdaşı olan, Türkiyədə tanınan milyarder vasitəsi ilə Ərdoğanın ətrafına çıxış tapıb və özünün Azərbaycanın baş naziri təyin olunmasında dəstək istəyib. Bu səbəbdən ölkə başçısı onunla bağlı qəti qərar verib".

**Sayt yazır ki, Arif Məmmədov və Ərəstun Oruclu Eldar Mahmudovun İsrail xüsusi xidmət orqanları ilə sıx əlaqəsinin olması haqda məlumat veriblər və qeyd ediblər ki, ölkəmizdə İsrail xüsusi xidmət orqanları ilə fəaliyyəti o qədər geniş olub ki, Pentaqonu belə narahat etməyə başlayıb.**

"Ə.Oruclu Eldar Mahmudovu MTN-i məqsədyönlü şəkildə dağıtmaqda, 200-ə yaxın təcrübəli, professional xəfiyyəni işdən çıxararaq onları quldurlaşmış polislərlə əvəzləməkdə ittiham edir. MTN-də vəzifə almış keçmiş polislərin təsadüfi şəxsləri agent şəbəkəsinə cəlb etdiklərini və beləcə başdansovdu agent şəbəkəsinin formalaşdırılıb büdcədən həmin şəbəkəyə pul ayrılmasını və mənimsənilməsini təmin etdiklərini nəzərə çatdırıb. Agentlər elə sahələr üzrə əməliyyatlara cəlb olunublar ki, həmin sahələr haqda bilikləri, uzaqdan-yaxından tanışlıqları belə olmayıb.

Ə.Oruclu özünü erməni saytlarını dağıdan təcrübəli xaker kimi təqdim edən "Bacıoğlu" ləqəbli agentin əslində qəzetlərdən birinin ofisində işlədiyini, eyni zamanda siyasilərdən birinin ofisində çalışdığını da xatırlayır. "Bacıoğlu"nun maliyyələşməsi üçün büdcədən böyük pullar ayrılıb, amma onun özünə qəpik-quruş çatıb. Həmin agentin kuratoru sonradan Bakı İstintaq Təcridxanasındakı kamerasında asılmış vəziyyətdə aşkarlanan MTN-in Antiterror Mərkəzinin rəis müavini İlqar Əliyev olub. "Bacıoğlu"nun kimliyi 2005-ci ildə Ruslan Bəşirli məsələsində faş olunandan sonra o, siyasətçiyə, yazıçıya, deputat köməkçisinə, hətta deputatlığa namizədə belə çevrilib. Amma deputat olmasına onun kuratoru İ.Əliyev kömək edə bilməyib.

**Gözəlçədən ATM rəisinə: "Bəs sən kişi deyilsən?"**

Ərəstun Oruclu MTN-dəki "agent işi" adlanan iş çərçivəsində hazırda məhkəmə qarşısına çıxarılan ATM rəisi Elçin Quliyevin beynəlxalq təşkilatlardan birində çalışan xanıma "Hunday" markalı maşın bağışladığını qeyd edir. Sonradan həmin xanım deputat olmaq eşqinə düşüb və Quliyev ona kömək edə bilməyəndə gözəlçə ona sms yazıb: "Bəs sən kişi deyilsən?" Bütün bunları contact .az saytı yazır.

**Baş nazir, sonra isə...**

**"Agenturaya cəlb olunan bu zir-zibili Eldar Mahmudovun işə götürdüyü polislər bir yerə cəm etmişdilər, məqsədləri də, gizli şəkildə gördükləri iş də Eldar Mahmudovu baş nazir, sonra isə prezident kürsüsünə yüksəltməkdən ibarət idi" - deyə, sayt Ərəstun Orucluya istinadən yazır.** "2015-ci ildə baş tutan parlament seçkiləri bu yolda son həlledici etap idi. Buna görə də MTN parlament seçkilərinə bu qədər xüsusi diqqət ayırmışdı. Əlaltıları Eldar Mahmudova xoş olmayan namizədləri şantaj edir, barələrində ləkələyici materiallar toplayıb mətbuata ötürdülər. Azay Quliyev haqda həmin dövrdə mətbuatda və sosial şəbəkədə peyda olan materiallar həmin sıradan idi.

Ə.Oruclu hesab edir ki, Eldar Mahmudovun adamlarının jurnalistləri, hüquq müdafiəçilərini, məmurları agent şəbəkəsinə cəlb etmələri nazirlərini ölkədə daha yüksək posta təyin etdirmək üçün bazanın yaradılmasına xidmət edib. Bu əməliyyatda Mahmudov xarici qüvvələrə arxayın idi, ölkə rəhbəri olandan sonra onlarla işləyib Azərbaycanda planlarının həyata keçirilməsinə şərait yaradacağını vəd etmişdi. Mahmudovun Türkiyədən dəstəklənməsi haqda da yuxarıda qeyd etmişdik. Amma sabiq nazirin düşündükləri baş tutmadı.

**Eldar Mahmudov özünü tələyə salıb**

Buna baxmayaraq, həmin xarici qüvvələr bu gün də Eldar Mahmudovu müdafiə edirlər, gələcəkdə onun şəbəkəsindən istifadə etməyi planlayırlar.

Ə.Oruclu Donald Trampın hakimiyyətə gəlməsi ilə bu planların sıfırlandığını, buna görə də Eldar Mahmudovun həbsinin çox da uzaqda olmadığı qənaətini bölüşür".



Sülhəddin Əkbər

**Milli təhlükəsizlik nazirinin sabiq müavini nə deyir?**

**Vaxtilə milli təhlükəsizlik nazirinin müavini olmuş Sülhəddin Əkbər "Yeni Müsavat"a deyib ki, korrupsiya mexanizmindən söhbət gedirsə, xüsusi xidmət orqanı ilə məxfi əməkdaşlığa cəlb olunan şəxslərin istintaqa cəlb olunması zərurəti yaranır:** "Amma belə işlər üzrə məhkəmə prosesləri qapalı keçirilməlidir ki, agentlərin adları geniş ictimaiyyətə açıqlanmasın. Çünki deşifrə olunduqları halda onlar sistemdən çıxdaş olunmalı, arxivə göndərilməlidirlər. Burada xüsusi xidmət orqanının gələcək fəaliyyəti ilə bağlı məsələlər var. Etik baxımdan hər hansı bir xüsusi xidmət orqanı öz əməkdaşlarını, etibarlı şəxslərini qorumalıdır ki, sistemə etibar yaransın. Bu etibar olmasa, yeni məxfi əməkdaşların cəlb olunması müşkülə çevrilər. Bütün dünyada xüsusi xidmət orqanları məxfi əməkdaşlarını çox ciddi şəkildə qoruyurlar. Digər məsələ məxfi əməkdaşlığa cəlb olunan şəxslərin təhlükəsizliyi ilə bağlıdır. Bu şəxslər ifşa olunursa, onlar müxtəlif təhlükələrlə üz-üzə qala bilərlər. Onların ailə üzvləri, yaxınları var və belə məlumatların açıqlanması onlara ciddi psixoloji zərbə ola bilər. Belə şəxslərə cəmiyyətdə münasibətin dəyişməsi də baş verə bilər. Bütün bunlar cəm şəkildə qiymətləndirdikdə, ziyanlı bir prosesin şahidləriyik. Ona görə də zərurət yaranmayana qədər məxfi əməkdaşların adı gizli saxlanmalı, zərurət yarananda isə qapalı məhkəmə keçirib həmin şəxslərlə bağlı araşdırma aparılmalı idi. Bundan sonra onlar sistemdən çıxarılıb arxivə göndərilməli idi".

**Bu iş hərtərəfli araşdırılmalıdır**

**S.Əkbər məhkəmənin açıq keçirilməsinin səbəbini anlamadığını deyir. Bunu qeyri-peşəkarlıqla əlaqəli olacağını da istisna etmir:** "Həmin məhkəməyə sədrlik edən bu iş üzrə yaranan suallara cavab verməlidir. Bu iş hərtərəfli araşdırılmalıdır. Əgər həmin şəxslər korrupsiyadan xəbərsiz olublarsa, onların adları gizli saxlanmalı idi. Məxfi əməkdaşlığa cəlb olunan şəxs barəsində onu məxfi işə cəlb edən zabit və həmin zabitin rəhbərliyi məlumatlı ola bilər. Ortada korrupsiya faktı varsa, bu məsələ çox həssaslıqla araşdırılmalı idi. Ortaya peşəkar yanaşma qoyulmalı idi. Təəssüf ki, biz bunu görmədik. Bu həssas məsələyə peşəkar yanaşılmayıb, bu da Azərbaycanın milli təhlükəsizlik sistemi üçün ziyanlıdır".

**"Sovet dövründə belə milis işçilərini "KQB"yə işə götürmürdülər"**

**S.Əkbər E.Mahmudov nazir təyin olunarkən onun polis keçmişini nəzərə alan peşəkarların həyəcan təbili çaldıqlarını da qeyd edir:** "Sovet dövründə belə milis işçilərini "KQB"yə işə götürmürdülər. Bu başqa bir səviyyə tələb edən işdir. Bizim dövrümüzdə hətta Xalq Cəbhəsi tərəfindən təklif olunan polis işçiləri vardı. Onları belə işə götürmürdük. 1 nəfər də olsun polis işçisini işə götürməmişdik. Bizim dövrümüzdə nazirliyin çox sağlam bir təməli qoyulmuşdu. Sonradan Namiq Abbasov da nazirliyin çirkaba bulaşmasına imkan verməmişdi, əsasən qoruyub saxlaya bilmişdi. Çox təəssüf ki, Namiq Abbasovdan sonra Eldar Mahmudov bu posta gətirildi və ölkənin milli təhlükəsizliyinə zərbə vuruldu. Milli təhlükəsizliyi təmin etməli olan orqan milli təhlükəsizlik üçün təhdidə çevrildi".

**"Nə qədər ki..."**

**S.Əkbər düşünür ki, məxfi əməkdaşlığa cəlb olunan agentlərin deşifrə olunması haqda məlumatların yayılmasının ordumuzda düşmən tərəfə işləyən casusların ifşa olunması biabırçılığını ört-basdır etmir, əksinə, biabırçılığın məsştabını bir qədər də artırır:** "Azərbaycanda atılmalı olan əsas addımlardan biri ölkənin idarəçilik sistemini "5-ci kolon"dan təmizləməkdir. "5-ci kolon" üzvləri bütün idarəçilik sisteminə sızıblar və çox aktiv şəkildə iş aparırlar. Nə qədər ki, təmizlənmə aparılmayıb, ölkədə heç bir islahatın faydası olmayacaq. Təbabətdə "klinik mənzərə" deyilən termin var. Bu termin xəstəliyin bütün əlamətləri, simptomları ilə üzə çıxmasını ehtiva edir. Hazırda peşəkarlardan fərqli olaraq Azərbaycan cəmiyyəti "klinik mənzərə"ni görmür".

S.Əkbər Azərbaycanda xüsusi "təmizləmələrə" ehtiyac olduğunu və belə "təmizləmə" prosesi aparılmayınca, görülən işlərin, kadr dəyişikliklərinin əhəmiyyətinin olmayacağını qeyd edib.

**DTX araşdırmaya başladı**

Dövlət Təhlükəsizliyi Xidmətinin İctimai əlaqələr şöbəsindən APA-ya verilən məlumatda bildirilir ki, fakt üzrə Dövlət Təhlükəsizliyi Xidmətində araşdırma başlanılaraq, həmin məlumatlarda qeyd edilən halların düzgünlüyü, dövlət sirri təşkil edən məlumatların yayılması və açıqlanma mənbəyi ilə bağlı məsələlər cinayət işi üzrə araşdırılır.

Dövlət Təhlükəsizliyi Xidməti bəyan edir ki, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlarla konfidensial əsaslarla əməkdaşlıq edən və əməkdaşlıq etmiş şəxslər haqqında məlumatlar dövlət sirrini təşkil edir və belə məlumatların yayılması qanunla müəyyən edilmiş qaydada cinayət məsuliyyəti yaradır.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 103 (6717) 16 may 2017

**Türkiyədə yaşayan tanınmış azərbaycanlı iş adamı, "Palmali" şirkətlər qrupunun prezidenti Mübariz Mənsimov son günlər yenə Azərbaycan mediasının gündəmindədir.**



# Azərbaycanlı milyarder bütün kartları açdı: "Palmali"ni ondan necə almaq istəyiblər...

## Mübariz Mənsimov şirkətin borclarını qaytarıb, girov səhmlərini geri alıb; "Palmali"nin sahibi həmişə mən olacağam", demək kimlərə mesajdır?

Az qala müflis olduğu, biznesinin əhəmiyyətli hissəsini satdığı, hətta səhmlərinin SOCAR-ın girovunda olduğu barədə iddialar dolaşan biznesmen Türkiyə mediasına müsahibəsində maraqlı faktlar açıqlayıb.

İki gündür mediada dolaşan bu müsahibədə ən maraqlı məqamlardan biri milyarderin Azərbaycan brendi SOCAR-la bağlı dedikləridir. Müxbirin "SOCAR" la niyə ortaq olmaq istəmədiniz" sualına M.Mənsimovun cavabı belə olub: "Təəssüflər olsun ki, "SOCAR"la iş tərzimiz bir-birinə uyğun gəlmədi. Baxışlarımız fərqli olduğu üçün və o vaxt gündəmdə olan iqtisadi vəziyyəti dəyərləndirərkən də fikir ayrılıqları oldu. Bildiyiniz kimi, "Palmali" 20 ildir ki, fəaliyyət göstərən bir şirkətdir və açıldığı gündən beynəlxalq iş təcrübəsinə sahibdir. Sektorda əldə etdiyi məlumat və təcrübə sayəsində bu il "Clarkson" şirkətinin keçirdiyi araşdırmalara görə dünya dənizçilik şirkətləri arasında 7-ci yeri tutub. Həmişə olduğu kimi bundan sonra da daha peşəkar, dünya səviyyəli böyük şirkətlərlə əməkdaşlıq etməyə hazırıq. İllərin verdiyi təcrübəyə və komandama güvənirəm".

M.Mənsimov "iş tərzimiz" dedikdə nəyi nəzərdə tutduğunu açıqlamayıb. Amma məlum idi ki, SOCAR rəsmi adı "Palmali International Holding Co Ltd"yə 2015-ci ildə 120 mln. ABŞ dolları məbləğində kredit vermişdi. SOCAR-ın açıqladığı maliyyə hesabatında bildirilirdi ki, kreditin müddəti 31 dekabr 2021-ci il tarixində başa çatacaq. Kredit illik 4,5% dərəcəsi ilə ayrılmışdı. Müqavilənin şərtlərinə əsasən, əsas və faiz məbləği hər rüb ödənilməli idi. Bildirilirdi ki, "Palmali" kredit müqaviləsinin yerinə yetirilməsinin təminatı kimi 514 ümumi təsdiqlənmiş və buraxılmış səhmdən 340 səhmi girov da qoyub. Bundan əlavə, xam neft və neft məhsullarının nəqli ilə bağlı "Palmali"nin əldə etdiyi və ya əldə edəcəyi ümumi gəlirlər və vəsaitlərdəki bütün hüquq və paylarını SOCAR-ın xeyrinə girov qoymuşdu . Bu girov müqavilələri "Palmali"nin SOCAR qarşısında öhdəliklərini tam yerinə yetirənədək qüvvədə qalacağı deyilirdi.

Amma indi məlum olur ki, M.Mənsimovun şirkətinin "SOCAR"la "iş tərzi bir-birinə uyğun gəlmədiyi üçün" bu əməkdaşlığa son qoyulub. Azərbaycanlı milyarderin açıqlaması onu deməyə əsas verir ki, "Palmali" səhmlərini SOCAR-ın girovluğundan qurtarıb və kredit borcunu ödəyərək səhmlərini geri alıb. "Palmali"nin sahibi "SOCAR"la bərabər ""Goldman Sachs" ilə ortaq olmayacağıq" deyərək ABŞ-ın ən böyük investisiya bankı ilə də əməkdaşlıq etməyəcəklərini deyib.

Amma daha sensasion məqam M.Mənsimovun bundan sonra dedikləridir. **"Bir dövlət şirkəti ilə ortaq olmaq istəmirəm. "Palmali"nin sahibi həmişə Mənsimov olacaq".** Həm SOCAR, həm də "Goldman Sachs"la bağlı qəzəbi sezilən milyarderin "Palmali"nin sahibi həmişə mən olacağam" deməsi xüsusi diqqət çəkir. Əcəba, bu kimlərə mesajdır?

Belə iddialar hələ öncədən də vardı ki, Azərbaycanda və Rusiyada müəyyən çevrələr "Palmali"ni milyarderin nəzarətindən çıxarmaq və ya səhmlərinin müəyyən hissəsinə sahib olmaq istəyində olublar. Hətta onun Azərbaycandakı biznesi də bu səbəbdən sıxışdırılıb, Rusiya isə "Palmali"nin tankerləri ilə İŞİD-ə neft daşınması iddiası ilə gəmilərinin ölkə dənizlərində hərəkətinə müəyyən maneələr yaradılıb.

M.Mənsimov müsahibədə şəriklərlə bağlı danışarkən şirkətindən uzaqlaşdırdığı bir adamın adını çəkib: Alaattin Aykaç. M.Mənsimov "onu işdən uzaqlaşdırdıq" deməklə kifayətlənib.

İnternet üzərindən araşdırmamız zamanı belə məlum olur ki, məhz bu adamdan istifadə edərək "Palmali"nin səhmlərinin ələ keçirilməsi planı varmış. "Palmali Dənizçilik"in baş direktoru vəzifəsində 8 il çalışan və təxminən il yarım əvvəl işdən kənarlaşdırılan Alaattin Aykaç direktor olduğu dövrdə "Palmali Dənizçilik" adından iştirak etdiyi tenderlərdə şirkətə zərər verəcək addımlar atıb, bunun nəticəsində tenderlər rəqib şirkətlərin xeyrinə sona çatıb.

"Goldman Sachs"la bağlı onu deyə bilərik ki, dünyanın ən tanınmış investisiya banklarından biridir. Bank 1869-cu ildə təsis edilib, mənzil-qərargahı Nyu-Yorkda yerləşir. M. Mənsimovun "Goldman Sachs"dan narazılığı da səbəbsiz deyil. Dünyadakı maliyyə krizisi zamanı "Rolling Ston" jurnalı bankı "nəhəng qan içən spruta" bənzətmişdi. M.Mənsimovun bankla ortaq iş görməkdən niyə bu qədər çəkindiyi bu qiymətləndirmədən də aydın görünür.

Milyarder onu da deyib ki, 2020-ci ildə Nyu-Yorkda "Palmali"nin səhmlərini açıq şəkildə satışa buraxmaq fikrindədirlər. **"Şirkətin 20-30% hissəsini satmağı düşünürük"** deyə, o bildirib.

❑ **"YM"**

# Əli İnsanova Qobustan təhlükəsi

**2005-ci ildən həbsdə olan, ötən ay yenidən 7 il müddətinə məhkum edilən sabiq səhiyyə naziri Əli İnsanov bu dəfə cəzasını ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkəcək.**

## Toğrul Babayev: "O, əvvəlki hökm üzrə cəzasını ümumi rejimli cəzaçəkmə müəssisəsində çəkirdi, indi ciddi rejimlidir"

## Əsabəli Mustafayev: "Orada daxili qaydaları pozsa, o zaman məhkəmə qərarı ilə cəzasının bir hissəsini Qobustan həbsxanasında keçirə bilər"



Onun hətta Qobustan həbsxanasına köçürülməsi ehtimalı da var.

Belə ki, praktikada ard-arda cinayətlər törədən və ağır cəzalar alan məhbusların Qobustana köçürülmələri ilə bağlı nümunələr kifayət qədər çoxdur. Ə.İnsanov isə 11 illik cəzasının ardından 3 əlavə maddə ilə növbəti ağır cəzasını alıb. Bu baxımdan, onu da Qobustan təhlükəsinin gözlədiyi barədə fikirlər var. Doğrudur, bu həbsxananın qapalı rejimli olduğunu nəzərə alaraq, İnsanovun Qobustana köçürülməsini mümkünsüz sayanlar da az deyil. Belə fikirlərin içərisində məhkəmənin hökm qərarında sabiq nazirin ümumi rejimli cəzaçəkmə müəssisəsində cəzasını çəkməsi ilə bağlı hissənin olduğu vurğulanır.

**Bununla bağlı "Yeni Müsavat"a danışan sabiq nazirin vəkili Toğrul Babayev hökmlə əlaqədar Apelyasiya Məhkəməsinə şikayət hazırladıqlarını bildirdi:** "Apelyasiya şikayətimiz artıq hazırdır. Bugünlərdə veriləcək. Bu barədə mətbuata məlumat verəcəyik. Əli İnsanovla bağlı rejim, sadəcə, dəyişib, əvvəl ümumi rejimli idi, indi ciddi rejimlidir. Amma Qobustan qapalı həbsxanadır. Hazırda onun durumu normaldır, özünü yaxşı hiss edir".

**Hüquqşünas Əsabəli Mustafayev isə dedi ki, hansı rejimdə cəza çəkməli olduğu hökmdə göstərilir:** "Məsələn, ömürlüklər aydındır ki, cəzalarını Qobustanda çəkirlər. Mən bilən Əli İnsanova verilən son 7 il 5 gün cəzada Qobustan həbsxanasında cəza çəkməli olduğu barədə bir hissə yoxdur. İttihamlarda göstərilir ki, cəzaçəkmə müəssisəsində olarkən ümumi rejimin qaydalarını pozub, qanunsuz işlərlə məşğul olub. Bunları nəzərə alıb, məhkəmə cəzanın bir hissəsini Qobustanda çəkməyi ilə bağlı qərar qəbul edə bilərdi. Amma hökmdə bunlar yoxdur. Hökmə əsasən, onun Qobustan həbsxanasına köçürülməsi mümkün deyil. Əgər cəzaçəkmə müəssisəsində qanun pozuntusuna yol versə, yəni daxili qaydaları pozsa, o zaman məhkəmə qərarı ilə cəzasının bir hissəsini Qobustan həbsxanasında keçirə bilər. İndiki halda İnsanovu ora göndərməyin heç bir hüquqi əsası yoxdur".

Göründüyü kimi, əgər Əli İnsanov ciddi rejimli "kolon"da qaydaları pozarsa, Qobustana göndərilə bilər. Belə nümunələr çoxdur.

Bu arada onun əfvi məsələsi də gündəmdədir.

Respublika Gününə sayılı günlər qalsa da, Əfv Komissiyasının toplantıları keçirilmir. Bu isə o anlama gəlir ki, 28 mayda əfvin verilməməsi ehtimalı daha yüksək görünür.

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Mirvari Qəhrəmanlı təəssüflə əfvin ilin sonlarında veriləbiləcəyini qeyd etdi:** "Yaxınlarda iki Avropa ölkəsində oldum. Orada görüşlərim oldu. Fikirlərimdə beynəlxalq təşkilatların daha çox siyasi məhbusların azadlığa buraxılmalarına səvindiklərini qeyd etdim. Onlar məndən real siyasi məhbusların sayını soruşdu. Açıq şəkildə dedilər ki, Azərbaycanda müxtəlif insanlar ayrı-ayrı siyahılar tərtib edirlər, ona görə də siyahılar şübhə altına alınır. Bunların hər birini izah etdim onlara. Bildirdim ki, ölkəmizdə hüquq müdafiə sahəsində bir az zəiflik yaranıb. Mart ayındakı əfvdən hüquq müdafiəçiləri pərt oldular. Əfvdən sonra Əli İnsanova əlavə cəza verildi. Siyasi məhbusların sayının son iki ayda artma ehtimalı var. Çünki yeni həbslər olub. Mayın 10-da əfv olmadı, 28 mayda da gözlənilmir. Əfv Komissiyasının iclasları da olmur. İclaslar olanda ictimaiyyətə məlumat verilirdi. İslam Oyunlarının düşünmürəm ki, humanistliyə bir dəxli olsun. Çünki ölkədə müxtəlif beynəlxalq tədbirlər keçirilib. Belə tədbirlərin heç vaxt əfvlə əlaqəsi olmayıb. Çox təəssüf hissi ilə düşünürəm ki, ilin sonunda əfv ola bilər. Amma ümid yeri ola bilər ki, bəlkə amnistiya verilsin. Konkret Mehriban xanımın I vitse-prezident olması ilə bağlı ola bilər ki, məhbus ailələrinə bir hədiyyəsi olsun. Bundan əlavə, təcrübədən çıxış edərək, bir sıra siyasi məhbusların məhkəmələr vasitəsilə də azadlığa çıxma halları ola bilər".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 103 (6717) 16 may 2017

**“Yeni Müsavat”ın “Bizim qonaq” rubrikasında bu dəfəki qonağımız Açıq Hökumət Platformasının koordinatoru, “Konstitusiya” Araşdırmalar Fondunun rəhbəri Əliməmməd Nuriyevdir. Biz onunla QHT-lərin hazırkı problemlərindən və Azərbaycanda Açıq Hökumət Təşəbbüsü ilə bağlı görülən işlərdən danışdıq.**



# “Açıq Hökumət Təşəbbüsü islahatlar hərəkatıdır”

**Əliməmməd Nuriyev:** “Bu qurum 6 ildir ki, 2500-dən artıq islahatlar, öhdəliklər və 100-dən çox fəaliyyət planlarının hazırlanması və həyata keçirilməsi üçün 75 milli hökumətlə işləyir”

(əvvəli ötən sayımızda)

***- Əliməmməd müəllim, Açıq Hökumət Təşəbbüsü adı altında böyük bir proses başlasa da, geniş ictimaiyyət bundan xəbərsizdir. Nədir Açıq Hökumət Təşəbbüsünün mahiyyəti?***

- Biz çalışırıq ki, mütəmadi olaraq Açıq Hökumət Təşəbbüsü ilə bağlı cəmiyyəti maarifləndirək. Azərbaycan hökuməti 2011-ci ilin sentyabrında Açıq Hökumət Təşəbbüsünə qoşulub. Azərbaycan 2011-ci ildə “Açıq Hökumət Tərəfdaşlığı” beynəlxalq təşəbbüsünə qoşulub. Məqsəd şəffaflığın artırılması və “Açıq Hökumət” sahəsində fəaliyyətin təkmilləşdirilməsi, bu sahədə beynəlxalq təcrübənin mübadiləsi və ən yaxşı praktikanın formalaşmasıdır. Hökumət Açıq Hökumət Təşəbbüsünə qoşulmaqla Açıq Hökumətin təşviqi və şəffaflığın artırılması ilə əlaqədar öz fəaliyyətini təkmilləşdirmək, bu sahədə aparılan təcrübə mübadiləsinə töhfə vermək və beynəlxalq səylərə qoşulmaq niyyətini bildirib.

Beynəlxalq Açıq Hökumət Tərəfdaşlığı Təşəbbüsü (AHT) yaradılması ideyası 2011-ci ildə Vaşinqtonda 8 ölkə təmsilçiləri və bir sıra beynəlxalq QHT-ləri tərəfindən irəli sürülüb. Bundan sonra ABŞ və Braziliyanının rəhbərlik etdiyi İşçi Qrup AHT-nin struktur və prinsiplərini işləyib hazırlayıblar. 2011-ci ilin iyul ayında Vaşinqtonda ABŞ dövlət katibi Hilları Klinton rəsmən Beynəlxalq Açıq Hökumət Tərəfdaşlığı Təşəbbüsünü (Open Government Partnership- OGP) elan edib. 2011-ci ilin sentyabrında isə “Açıq Hökumət İdarəçiliyi Haqqında Bəyannamə” dərc olunub. BMT-nin 66-cı sessiyasında rəsmi olaraq bu təşəbbüs qəbul olundu.

Bunu Qlobal İslahatlar Hərəkatı da adlandırırlar. Hazırda beynəlxalq Açıq Hökumət Təşəbbüsü (Open Government Partnership (OGP)) 6 ildir ki, 2500-dən artıq islahatlar, öhdəliklər və 100-dən çox fəaliyyət planlarının hazırlanması və həyata keçirilməsi üçün 75 milli hökumətlə işləyir. Artıq Açıq Hökumət Təşəbbüsünə qoşulan dövlətlərin sayı 75-ə çatıb. Azərbaycan da bu prosesə ilk qoşulanlardandır.

Təşəbbüsə qoşulandan dərhal sonra biz növbəti ildə sentyabrın 5-də Açıq Hökumətlə bağlı Milli Fəaliyyət Planı qəbul etdik. Bu plan 2012-2015-ci illəri əhatə edirdi. Bu fəaliyyət planında 9 istiqamət üzrə 43 tədbirin həyata keçirilməsini nəzərdə tuturdu. Milli Fəaliyyət Planı üzrə tədbirlərin bir çoxu həyata keçirildi. 2016-cı ilin hesabatlarında qeyd olundu ki, QHT-lərin müstəqil hesabat vermə mexanizmində irəliləyişə nail olunub. Şəffaflıq Azərbaycan Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi və “Konstitusiya” Araşdırmalar Fondunun birgə tərəfdaşlığı çərçivəsində həmin fəaliyyət planının və Korrupsiyaya qarşı mübarizə üzrə yeni Mili Fəaliyyət Planı (2012-2015) monitorinqini həyata keçirdik. Monitorinqin nəticəsində bəlli oldu ki, Açıq Hökumət Təşəbbüsü üzrə Milli Fəaliyyət Planının icra səviyyəsi 71 faiz olub, hökumət isə bunun 82 faiz olduğunu deyir. Amma Korrupsiyaya qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planının icra səviyyəsi isə 83 faiz olub. Hökumət isə bunun 86 faiz icra olunduğunu deyir. 2016-cı ildə Açıq Hökumət Təşəbbüsü ilə bağlı ikinci Milli Fəaliyyət Planı qəbul olundu. Bu dəfə korrupsiyaya qarşı mübarizə üzrə yeni fəaliyyət planı qəbul edilmədi. Açıq Hökumət Təşəbbüsü ilə bağlı Milli Fəaliyyət Planının tərkibində korrupsiyaya qarşı mübarizə tədbirləri nəzərdə tutuldu.



**“Əsas məsələ o idi ki, bu Milli Fəaliyyət Planında real icra oluna bilən tədbirlər nəzərdə tutulsun”**

Əsas məsələ o idi ki, bu Milli Fəaliyyət Planında real icra oluna bilən tədbirlər nəzərdə tutulsun. Çünki çox nəhəng tədbirlər planlaşdırıla bilər, lakin icrası qeyri-mümkün olar. Ona görə də optimal yanaşma ortaya qoyulmalı idi. Həm də Açıq Hökumət Təşəbbüsü ilə bağlı Milli Fəaliyyət Planı geniş müzakirələrdən keçməliydi. Bu planın qəbul olunmasında vətəndaş cəmiyyəti geniş formatda iştirak etdi. 2016-cı ilin mart ayında QHT Şurası Avropa Şurası və Korrupsiyaya qarşı Mübarizə İdarəsi ilə birgə geniş dinləmələr təşkil etdi. Burada 300-dən artıq QHT təmsilçisi, hökumət nümayəndələri, o cümlədən OGP-nin həmsədrləri də iştirak edirdi. Bu müzakirələr nəticəsində 2016-cı ilin 27 aprelində prezident sərəncamı ilə ikinci 2016-2018-ci illəri əhatə edən Milli Fəaliyyət Planı təsdiqləndi. Burada da 11 istiqamət üzrə 59 tədbir nəzərdə tutulur. 59 tədbirdən 32-də vətəndaş cəmiyyətinin təklifləri nəzərə alınıb.

Yeni plan çox böyük potensiala malikdir. Bu planın icrası islahatlar proqramının aktuallığını təmin etməyə kömək edəcək, vətəndaşlar, vətəndaş cəmiyyəti üçün yeni imkanlar açacaq. Xüsusən şəffaflıq, məlumatlara əlçatanlıq, dövlət rəsmilərinin gəlir (əmlak) ilə bağlı məlumatların ictimailəşdirilməsi, vətəndaşların idarəetməyə cəlb olunması istiqamətində yeni irəliləyişlər əldə etməyə imkan verəcək.

Bu planın uğurla icrası xeyli dərəcədə vətəndaş cəmiyyətinin fəal mövqe tutmasından da asılı olacaq. Vətəndaş cəmiyyəti institutlarının islahatları gündəlikdə saxlaması, müvafiq dövlət qurumlarını müstəqil dəyərləndirmə ilə təmin etməsi və AHT təşəbbüsləri üçün vacib olan ictimai etimad mühitinin yaradılması istiqamətində təşəbbüsləri çox mühüm əhəmiyyətə malikdir.

***- Açıq Hökumət Təşəbbüsünün fəaliyyət istiqamətləri, prinsipləri nələrdir?***

- AHT-nin missiyası belədir, hökumətlər daha şəffaf, daha hesabatlı, vətəndaşlara münasibətdə daha məsuliyyətli olmalıdır.

“Açıq Hökumət Bəyannaməsi”ni Bəyannaməni imzalayan ölkələr 4 istiqamət üzrə öz üzərlərinə öhdəlik götürblər:

1) hökumətlərin fəaliyyəti ilə bağlı məlumatlara əlçatanlığın artırılması;

2) idarəetmədə vətəndaş iştirakçılığının genişləndirilməsi;

3) dövlət idarəetməsində yüksək peşə etikasının tətbiqi;

4) hökumətin daha hesabatlı və açıq olması üçün yeni nəsil texnologiyaların tətbiq olunması.

Açıq Hökumət Tərəfdaşlığı Beynəlxalq Təşəbbüsünə üzv olmaq niyyətində olan ölkələr üçün 4 meyar üzrə minimum tələb müəyyənləşdirilib:

1) fiskal şəffaflıq;

2) məlumatlara əlçatanlıq;

3) dövlət rəsmilərinin gəlir (əmlak) ilə bağlı məlumatların ictimailəşdirilməsi;

4) vətətəndaşların idarəetməyə cəlb olunması.

Təşəbbüsə qoşulan ölkələr bir qayda olaraq iki illik fəaliyyət planı hazırlayır. AHT Rəhbər Komitəsi isə sonradan bu Fəaliyyət Planını monitorinq edir və rəyini açıqlayır.

Mövcud tələblərə görə Fəaliyyət Planı koordinasiyaya cavabdeh müvafiq dövlət qurumu tərəfindən də monitorinq olunmalı və nəticələr ictimaiyyət üçün açıqlanmalıdır.

Bütün bunlarla yanaşı, korrupsiyaya qarşı mübarizə də yer alır. Korrupsiyaya qarşı mübarizə aparılmadan heç bir islahatdan tam nəticə əldə etmək mümkün deyil. Mədən sənayesində şəffaflığın artırılması, maliyyə şəffaflığının gücləndirilməsi, ictimai vəsaitlərin xərclənməsi üzərində nəzarətin gücləndirilməsi buraya daxil idi. Ən vacib və OGP-nin Azərbaycanla bağlı qərarında da vurğulanın məsələ o idi ki, vətəndaş cəmiyyəti üçün mühit yaxşılaşdırılmalıdır. Bu da qanunvericilik aktlarının hazırlanmasında təkliflərin nəzərə alınması ilə özünü göstərir. Milli Fəaliyyət Planı qəbul olunduqdan sonra bu istiqamətlərdə işlərə başlanıldı. Qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı addımlar atıldı.

2016-cı ilin 9 sentyabrında Azərbaycanda Hökumət-Vətəndaş Cəmiyyəti Dialoq Platforması yaradıldı. Hazırda platformada 34 QHT, 9 dövlət orqanı və parlament nümayəndəsi təmsil olunur. Çünki ictimai iştirakçılığının real olaraq təminatı odur ki, hökumətlə vətəndaş cəmiyyəti daimi dialoq mühitində olsun. Bu platformanın təsis prosesində texniki tərəflər QHT Şurası tərəfindən həyata keçirildi.

Platformanın məqsədi “Açıq Hökumət” Tərəfdaşlığı Təşəbbüsünün Azərbaycanda tətbiqinə hərtərəfli dəstək verilməsi, dövlət orqanlarının fəaliyyətində şəffaflığın və açıq hökumət prinsiplərinin tətbiq edilməsi, bu təşəbbüsün Azərbaycanda tətbiqinə ictimai nəzarətin təmin edilməsi, habelə hökumət-vətəndaş cəmiyyəti dialoqunun inkişaf etdirilməsi

***- Bu platformaya daxil olan hökumət qurumları hansılardır?***

- Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, Azərbaycan Respublikası Baş prokuroru yanında Korrupsiya qarşı mübarizə Baş İdarəsi, Ədliyyə Nazirliyi, Vergilər Nazirliyi, Maliyyə Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (ASAN xidmət), Açıq Hökumət Tərəfdaşlığı Beynəlxalq Təşkilatının Azərbaycan üzrə milli koordinatoru, AR Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, parlamentin nümayəndəsi kimi Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri təmsil olunur. Bunlar, sadəcə, üzvlər deyil, onlar qərar qəbuletmə prosesində iştirak edən şəxslərdir.

***- Bəs QHT-lərdən...?***

- Platforma Azərbaycanın vətəndaş cəmiyyətinin bütün spektrini əhatə etməklə, ixtisaslaşmış, öz sahəsində nüfuzlu 34 QHT-ni birləşdirir. Platformada üzvlük açıqdır. Bu təşəbbüsü dəstəkləyən vətəndaş cəmiyyəti təşkilatları, parlament və hökumət nümayəndələri platformaya üzv ola bilərlər. Bəzi QHT-lər OGP-nin katibliyinə bizdən şikayət edir ki, platforma qapalıdır, biz onları qəbul etmirik. Ancaq əslində belə deyil. Biz bir çox QHT-lərə müraciət etdik ki, üzv olmaq istəyirsinizsə, gəlib platformaya qoşula bilərsiniz. Hətta elektron qaydada məktub da göndərdik. Onlardan bəziləri dərhal reaksiya verdi ki, üzv olmaq istəyirik. Bəziləri dedi ki, biz hazır deyilik. Mən bu platformanın koordinatoru olaraq deyirəm ki, hər kəsə açıqdır. Hamı üzv olmaq üçün müraciət edə bilər. Ancaq əlbəttə ki, burada üzvlüyə qəbul zamanı müəyyən kriteriyalar da nəzərə alınır. Üzvlərin qəbul olunması prosesi davamlı olacaq. Dövlət orqanlarının nümayəndələri də platformaya üzv olmaq üçün bizə müraciət edirlər. Məsələn, Xarici İşlər Nazirliyinin nümayəndəsi də üzvlük üçün müraciət edib. Dövlət Neft Fondu və digərləri də bizimlə birgə fəaliyyət göstərməyə hazırdırlar. Onlar həm də Milli Fəaliyyət Planında nəzərdə tutulmuş bir çox tədbirlər üzrə cavabdeh olan qurumlardır. Onların Milli Platformada iştirak etməsi çox vacib məsələdir.

***- Əliməmməd müəllim, keçirilən müzakirələr, qəbul olunan qərarlar, hökumətə verdiyiniz təkliflər nəticə verirmi? Bu təşəbbüsün proseslərə təsir gücü varmı?***

(ardı növbəti sayımızda)

❑ **Nərgiz LİFTİYEVA**



# İrəlinin plagiatı

Zamin HACI
zaminhaci@gmail.com

**Rusiyada müxalifətçi Navalnının gözünə "zelyonka" (bizim dildə adını bilmirəm, üzürlü sayın) atan adam daha sonra polisi döyməkdə suçlanan başqa müxalifətçinin cinayət işində şahid kimi ortaya çıxıb. Ancaq biz belə faktlara təəccüblənmərik. Bizdə bu adi praktikadır. Bu yaxında cəbhəçi Fuad Əhmədliyə quraşdırılan cinayət işindəki şahidin hətta axtarışda olması bilinmişdi. Rəsmi şəkildə. Adamın adı paytaxt polisinin "Onları axtarırıq" yazdığı lövhədən çıxmışdı. Ancaq bu, onun məhkəməyə gəlib ifadə verməsinə, sonra da əlini yanına salıb yellənə-yellənə çıxıb getməsinə mane olmamışdı.**

Niyə də olsun? Biz dünyaya çoxlu örnəklər verən qüdrətli respublikayıq. Qüdrət demişkən, Beynəlxalq Bankın bankrot elan olunması Qazaxıstanda pensiyaçıları dilxor edibdir. Sən demə, orda hansısa idiot vaxtilə pensiya fondunun pullarını bizim BB-yə qoyubmuş. İndi ola bilər qazax pensiyaçı qarılar və ağsaqqallar aullarda pensiya kartından pul çıxarda bilməyəndə Azərbaycan haqda düşüncələrə dalsınlar.

Ağıla bax, sən canın. Heç Cahangir Hacıyev öz pullarını vaxtilə BB-yə qoymurdu, bunlar dünyanı basıb gəliblər ki, bank tapmışıq.

Keçək örnəklərə. Hazırda dünyanın hər yerində kompüterlərə bir virus yayılır, bunun işi isə kompüteri blok edib yiyəsindən pul istəmək imiş. Sən istəyirsən kompüteri açıb iş görəsən, ancaq ekran tam bağlanır, yazı çıxır: "Filan hesaba 300 dollar köçür, açılsın". Tanış mənzərədir, elə deyilmi? Bizdə bu virusları dövlət qulluğuna işə qəbul ediblər. Rüşvətsiz, el dilində söyləsək, haqqını verməsən heç bir qapı açılmır. Üstəlik, bu prosedur milli adətlərimizdə belə vardır! Örnək üçün, gəlin aparanda görürsən nəmər almamış evin, maşının qapısı "açılmır".

Yaxşı yadıma düşdü,  başıma gəlmiş olayı yazım. 1994-cü ildə İqtisadiyyat Universitetindən Hökumət Evinə praktikaya göndərilmişdim. İqtisadiyyat Nazirliyinin bir şöbəsində guya praktika keçirdim. Ancaq təbii ki, nazirlik nərd oynayan, corab toxuyan adamların obyekti idi, heç kim iş-zad görmürdü. Müddət başa çatdı, şöbə müdiri mənim kağızımın üstünü yazmaq istəmədi - rüşvət umurdu. Bunu isə birbaşa mənə deyə bilmirdi, qələmi atdı vərəqin üstünə, dedi yazmır nəsə. Pis-pis də qımışdı, yəni nəzir ver qələm işləsin. Mən eləmədim tənbəllik, qələmi götürdüm, qıraqda qaralama elədim, dedim, bax, yazır indi. Müdir dilxor oldu, dedi, sən heç söz başa düşən adama oxşamırsan. Məcbur oldu sənədə qol çəkdi, çıxdım getdim.

Azərbaycanın dünyaya dəb saldığı işlərdən biri də seçki saxtakarlığıdır. Hətta Amerika səviyyəsində bu işi bacarmışıq. Orda Tramp qalib gələndə mətbuat yazdı ki, Rusiya seçkiyə "barmaq" edibdir. Prezidentin milli təhlükəsizlik müşaviri Flinn isə rus səfiri ilə görüşün badına getdi, işdən qovdular. Bu bizim üçün çox gülünc məsələdir, çünki çoxdandır bizdə hər seçkiqabağı Moskvadan bir yekə kurator gəlir, oturur Bakıda. Səfirlə görüşə görə pozuluşan yankilərə demək istəyirəm ki, bəs sizdə seçki qabağı Rusiya xarici işlər naziri, təhlükəsizlik şurasının katibi, nə bilim, Putinin köməkçisi gəlib Vaşinqtonda, MSK binasında otursa nə edərsiniz?

Sözgəlişi, keçən il Amerika seçkilərini qatışdırmaq şübhəsi ilə 30-a yaxın rus səfirlik işçilərini prezident Obama deport eləmişdi. İndi isə rus səfiri birbaşa prezident Trampla görüşüb, irişib şəkil çəkdirir. Neyləyəcəklər? Trampı da qovacaqlar? Yox. Çünki bizim təcrübəmiz dünya üçün olduqca vacibdir. Dünyada sülhün, əmin-amanlığın qarantiyası ölkəmizin gördüyü işlərdir. Biz Şərqlə Qərb arasında körpüyük. Əvvəl-axır hamı bu körpüdən keçəcəkdir.

Fransada təzəcə prezident qoyulan Emmanuel Makronun partiyasının adı isə lap plagiatın yekəsidir: "İrəli". Tanış gəldimi? Bizdən oğurlayıblar. Utanmırlar.

**İki ildir neft ölkələrini bürüyən iqtisadi böhran Azərbaycandan da yan keçməyib. Həmçinin öz təsirini daxili siyasi vəziyyətə də göstərib. Ölkənin siyasi həyatında nəzərəçarpacaq dərəcədə durğunluq müşahidə edilir. Siyasi həyatda müşahidə olunan durğunluq, siyasi təşkilatların qeyri-aktivliyi müxtəlif amplualarda təhlil olunur. Sanki hamı bu vəziyyəti kənardan izləməyə məhkum edilib. Azərbaycan siyasətində 20 ildən artıqdır mövcud olan müxalif siyasi partiyaların illər öncəki aktivliyindən əsər-əlamət qalmayıb. Ölkədə tək ənənəvi müxalifət partiyaları yox, bütün partiyalar demək olar siyasi durğunluq içərisindədir. Bu passivlik hətta hakim partiya olan YAP-da da müşahidə olunur.**

# Siyasi həyatda durğunluğun sirri-siyasətçilər böhranı etiraf etdilər



**Tural Abbaslı:** "Siyasi səhnənin əsas aktyoru olmalı olan xalq siyasətə və siyasətçilərə inamını tam itirib"



**Razi Nurullayev:** "Belə zamanlarda siyasi durğunluğun olması labüd və təbiidir"



**Əli Əliyev:** "Bu, ölkə üçün yavaşıdılmış bombadır"

Bəs Azərbaycanda siyasi həyatda durğunluğun səbəbi nədir?

**AĞ Partiyanın sədri Tural Abbaslı** bildirdi ki, siyasi həyatda durğunluğun əsas səbəbi xalqın siyasi proseslərdən çəkilməsidir. Siyasi səhnənin əsas aktyoru olmalı olan xalq siyasətə, siyasətçilərə, siyasi proseslər vasitəsilə  nələrinsə dəyişə biləcəyinə inamını tam itirib. Xalqın iştirakı olmadan isə hansısa siyasətdən ümumiyyətlə danışmaq gülüncdür: "Əslində biz bu məsələdə xalqın inamının ölməsində kimin daha çox günahı var məsələsini araşdırmalıyıq. Bu məsələdə isə məncə, hər iki cinahın-müxalifətin və iqtidarın günahı kifayət qədərdir. Belə ki, hakimiyyətin uzun illərdir ədalətli seçki keçirməməsi, seçkilərdə xalqın iradəsinin təcəlli tapmaması, ümumiyyətlə, dövlət idarəçiliyində və dövlətin taleyüklü məsələlərinin həllində xalqın iştirakının olmaması xalqın öz gücünə, proseslərə təsir etmə bacarığına olan inamını itirməsinə səbəb olub. Hələ bütün bunların üzərinə siyasi həbsləri, repressiyaları, hədə-qorxuları, siyasi mövqeyinə görə yaradılan fiziki və mənəvi basqıları əlavə etsək, hakimiyyətin bu məsələdəki günah faizini təsəvvür etmək o qədər də çətin olmur. Təbii ki, bu passivlikdə müxalifəti kənarda saxlamaq da düzgün olmaz. Ən azından klassik müxalifət dediyimiz və demək olar ki, 1989-cu ildən səhnədə olan və mübarizə metodlarından tutmuş, yanaşma tərzlərinə qədər bir qətrə belə dəyişməyən, dəyişmək istəməyən müxalifət də günah sahibidir. Belə ki, xalqın siyasi proseslərə inamı ölən anda meydana çıxaraq onlara yeni ümid yeri olmalı, onları yeni mərhələyə ruhlandırmalı olmalı,  yeni yollar göstərməli və bu proseslərin önündə şəxsi nümunə göstərərək irəliləməli müxalifət tam əksinə işlərlə məşğuldur. Yəni müxalifətin də uzun illərdir heç bir müsbət nəticə göstərməməsi, insanlar arasında az qala uğursuzluq simvolları kimi təqdim olunmaları da burada əsas amillərdəndir".

**Yeni AXCP-nin sədri Razi Nurullayev isə "Azərbaycanın həyatında siyasi durğunluq var" ifadəsini qəbul etmir:** "Baxır kimin üçün siyasi durğunluqdur? Rəhbərlik etdiyim AXCP üçün siyasi durğunluq dövrü yoxdur. Həmişəkindən daha əzmkarlıqla siyasi mübarizədəyik və 10 gün öncə böyük sayda gənclərlə görüş keçirdik. Siyasi durğunluq olsa idi, gənclər də fəallıq göstərməzdi. Amma təbii ki, gözləntilər böyükdür. Bu gözləntini doğrultmaq üçün siyasi hadisələr lazımdır. Bu gün ölkədə seçki yox, referendum yox, ölkə taleyini dəyişəcək siyasi qərarlar yox. Belə zamanlarda siyasi durğunluğun olması labüd və təbiidir.

Ölkədə müxalifət sosial şəbəkələrdə fəallıq göstərir, qəzetlərdə çıxış edir, müxalifyönlü qəzetlər nəşr edilir. Bu elə siyasi fəallıqdır. Ənənəvi müxalifət siyasi durğunluq var deyir, çünki onlar üçün 5-10 nəfər yığıb mitinq keçirmək və sonra bir il yatmaq lazımdır. Əslində yalançı fədakarlıq və qəhrəmanlıq xalqın başının altına yastıq qoymaqdır".

**VİP sədri Əli Əliyev isə bildirdi ki, durğunluq hakimiyyətin yaratdığı vəziyyətdir. Durğunluq müəyyən dövrə qədər effektlidir. Sonrası fəsada yol açır:** "Azərbaycanda ən bərbad vəziyyət ideoloji sahədədir. Dünyada sınaqdan çıxmış heç bir ideoloji prinsiplər cəmiyyətdə yer tuta bilməyib. Cəmiyyətdə siyasi baxımdan ideoloji vakuum mövcuddur. Bu boşluğu isə pis-yaxşı dini təmayüllər zəbt etməkdədir. Bu, ölkə üçün yavaşıdılmış bombadır. İnstusional tükənən siyasi məkan mövcud şəraitdə cəmiyyətin siyasi maarif işinin öhdəsindən gələ bilmir. Bu, bilərəkdən edilir. Çünki istənilən ideoloji cərəyanın davamı ilə təşkilatlanma zərurəti yaranır.

Ölkədə bataqlıq effekti yaradılıb. Vəziyyətimiz 70-ci illərin sovet dönəmini xatırladır. Durğunluq cəmiyyətin inkişafında əyləc rolu oynayan hakimiyyətlər zamanı yaranır. Bizim iqtidar da heç nəyi dəyişmək, yenilənmək istəmir. Hakimiyyətin formalaşmasında ideya müəllifi olan şəxslər inzibati üsullarla idarəçiliyi bilən şəxslərdir. Bu baş verənlərdə müxalifətin nə suçu ola bilər ki? Müxalifətin passivliyi yürüdülən siyasətlə üzvü şəkildə əlaqəlidir. Nəzərə almaq lazımdır ki, Azərbaycanda belə vəziyyətin hökm sürməsində bəzi beynəlxalq çevrələr də maraqlıdır. Onların sümürgən təbəqəsi bu iqtidarla əməkdaşlıq şəraitində pul və kapitalı daşıyırlar. Ona görə tək mübarizə aparan Azərbaycan müxalifətindən bundan fərqli mənzərəni tələb etmək aşırı istəkdir. Əlbəttə ki, müxalifətin bir araya gəlməməsi, fəaliyyətini koordinasiya etməməsi, süni və məntiqsiz mənəm-mənəmlik savaşı da iqtidarın aktivinə işləyən amillərdir. Lakin bunlar həlledici təsirə malik deyil".

❑ Etibar SEYİDAĞA

# Ermәnilәrin müsәlman Şәrqinә artan sәfәrlәri üzәrindә sirr pәrdәsi




# Ermәnistan Azәrbaycan әleyhinә İŞİD-ә yol axtarır - sensasion gәlişmә

## Bakıdakı İslam Oyunları fonunda Sәrkisyan әrәb ölkәsinә getdi; İrәvan İslam dünyasının Azәrbaycana münasibәtini dәyişmәk planı üzәrindә işlәyir; **keçmiş ermәni sәhra komandiri: "Azәrbaycan әleyhinә İŞİD-lә dә әmәkdaşlığa hazırıq..."**

**Bakıda keçirilәn IV İslam Hәmrәyliyi Oyunları sözsüz ki, hәm dә Azәrbaycanın müsәlman dünyasında nüfuz vә hörmәtinin göstәricisidir. Eyni zamanda әrazisinin 20%-i işğal altında olan ölkәmizin islam ölkәlәrindә daha yaxşı tәbliği üçün bir şansdır.**

Yәni bu, sadәcә, müsәlman ölkәlәri arasında bir idman yarışı deyil, eyni zamanda siyasi tәdbirdir. Azәrbaycanın İslam-Şәrq dünyasına daha yaxşı açılması, tanınması üçün unikal fürsәtdir.

*****

Şübhә yox ki, bu proseslәri әn çox xain qonşumuz Ermәnistan narahatlıqla izlәyir. Buna da әsaslar kifayәt qәdәrdir. Mәsәlә ondadır ki, İslam dünyası işğalçı ölkәnin Azәrbaycan әleyhinә tәbliğat apara bilmәdiyi әn zәif mәkandır.

Diqqәt edin, bir milyard yarım әhalisi olan onlarla İslam ölkәsindәn indiyәdәk yalnız yarım-xristian Livan saxta "ermәni soyqırımı"nı tanıyıb. 57 müsәlman dövlәtini özündә birlәşdirәn İslam Әmәkdaşlıq Tәşkilatı (İӘT) isә bir neçә dәfә Ermәnistanı tәcavüzkar dövlәt kimi tanıyan qәtnamә qәbul edib, İrәvandan dәrhal işğal elәdiyi torpaqları tәrk etmәyi tәlәb edib, hәmçinin Xocalıdakı etnik tәmizlәmәni soyqırım kimi tanıyıb.

Hәmin sәnәdlәrә sәs vermiş ölkәlәr arasında, nә qәdәr qәribә dә olsa, hәtta Ermәnistanla isti münasibәtlәrdә olan İran da var. İslam dünyasının әn nüfuzlu dövlәtlәri olan Türkiyә, Pakistan vә Sәudiyyә Әrәbistanı, habelә Özbәkistan isә Qarabağ vә digәr müsәlman әrazilәrinin işğalına görә, ümumiyyәtlә, Ermәnistanla bu günәdәk diplomatik әlaqәlәr qurmayıb, Pakistan vә Sәudiyyә Әrәbistanı, üstәlik, onu hәlә dә dövlәt kimi tanımır. Yaxın Şәrqin böyük qeyri-müsәlman dövlәtlәrindәn olan İsrailin Azәrbaycanla isti әlaqәlәri dә öz yerindә.

*****

Bu kimi sәrt reallıqlar әlbәttә ki, Ermәnistanı ciddi narahat edir. Hәm dә o sәbәbә ki, Azәrbaycana dәstәk verәn 57 İslam ölkәsi, İsrail BMT-dә ciddi sәs demәkdir. Tәsadüfi deyil ki, rәsmi İrәvan illәrdir Dağlıq Qarabağ mәsәlәsinin BMT-yә qaytarılmasına qarşı müqavimәt göstәrir.

Paralel surәtdә bәdxah qonşularımız reallığı öz xeyrinә dәyişmәk üçün neçә vaxtdır böyük cabalar içindәdir, dәridәn-qabıqdan çıxır. Son vaxtlar Ermәnistanın yüksәk çinli rәsmilәrinin islam vә әrәb ölkәlәrinә (İran, Birlәşmiş Әrәb Әmirliklәri) vә İsrailә artan sәfәrlәri dә heç şübhәsiz ki, öncәliklә "balansı" öz xeyrinә dәyişmәk hәdәfi güdür.

*****

Maraqlıdır ki, Bakıda İslam Oyunları başlar-başlamaz Ermәnistan prezidenti Serj Sәrkisyan Qәtәrә sәfәr edib. Sәrkisyanın mәtbuat xidmәtindәn verilәn xәbәrә görә, sәfәr zamanı o, Qәtәr әmiri Tamim bin Hәmad әl-Tani ilә görüşәcәk. Ermәni liderin hәmçinin "Qәtәr Eyrveys" şirkәtinin direktoru Әkbәr әl-Bәkr vә digәr qәtәrli iş adamları ilә dә görüşü planlaşdırılır.

Bu yerdә qeyd edәk ki, Qәtәr Türkiyә vә Azәrbaycanla çox isti münasibәtlәrә malik әrәb dövlәtidir. Hәmçinin yuxarıda vurğulandığı kimi, İӘT üzvü olaraq Ermәnistanı işğalçı kimi tanıyan ölkәlәrdәndir. İndi belә görünür, bu fakt Xocalı canisinin bu әrәb-müsәlman ölkәsinә sәfәrinә mane ola bilmәyib...

Sәrkisyanın belә sәfәrlәrdә guya qarşılıqlı işgüzar әlaqәlәr qurmaq niyyәti güdüldüyü bildirilsә dә, әslindә әsas hәdәflәr başqadır. Biri deyildi - mәkrli әks-tәbliğat hesabına Azәrbaycanın müsәlman-әrәb dünyasında nüfuzunu zәiflәtmәk, işğal amilini arxa plana keçirmәk, uydurma genosidin tanınması üçün daha münbit zәmin yaratmaq. Tәbii ki, ayrı bәdniyyәtli hәdәflәr dә yox deyil.

*****

**Bu arada keçmiş ermәni sәhra komandirlәrindәn olan quldur Vova Vartanov mövzumuza dәxli olan maraqlı açıqlama verib. Musavat.com-un ermәni qaynağına istinadәn verdiyi mәlumata görә, Vartanov İrәvanda jurnalistlәrә öncә Qarabağ mәsәlәsindә Ermәnistanın "tәşәbbüsü özünә qaytarmalı" olduğunu bildirәrәk deyib:** "Biz daima azәrbaycanlıların fәallığına reaksiya vermәli oluruq - tanklar, tәlimlәr, yeni reflektor hәrәkәtlәr edirik. Bu şәkildә özünü yalnız başı kәsilmiş vә pәncәsinә turşu tökülmüş qurbağa aparır. Biz 1993-cü ildә böyük sәhvә yol vermişik vә bu sәhvi davam etdiririk - hesab edәrәk ki, әlimizdәn gәlәni artıq elәmişik. Bu isә tәşәbbüsü düşmәnә vermәk demәkdir. Prezidentlәr, müdafiә nazirlәri dәyişib, iş dәst-xәtti isә dәyişmәz qalıb. Biz tәşәbbüskar vә tәlәbkar olmalıyıq".

Ermәni quldurun sonrakı sözlәri isә daha ilgincdir. Belә ki, o, "Azәrbaycanın zәiflәdilmәsi vә mәhv edilmәsi" üçün İŞİD terror tәşkilatı ilә dә әmәkdaşlığı mümkün saydığını deyib *(Bәllidir ki, İŞİD әsasәn әrәblәrdәn ibarәtdir)*.

Necә deyәrlәr, ermәni sәhra komandiri Azәrbaycana qarşı şeytanla müttәfiqliyi dә mümkün sayır. Çünki özlәri dә şeytan xislәtlidirlәr. Әslinә qalsa, burada tәәccüblü bir şey yoxdur. Qonşu ölkәlәrә - Türkiyәyә, Azәrbaycana qarşı әsassız әrazi iddialarını gerçәklәşdirmәk üçün ermәnilәr İŞİD-dәn hәlә xeyli öncә (ASALA, QNÇAK) terror üsullarından gen-bol istifadә edliblәr. İndi dә istifadә etmәyә çalışırlar.

Bu yaxınlarda Qarabağda ASALA bayrağının peyda olması, habelә Ermәnistanın keçmiş baş nazirinin vә bәzi hәrbçilәrinin Azәrbaycanın çirkli atom bombası ilә hәdәlәmәsi dә qәtiyyәn boşuna deyildi. Bundan әlavә, Ermәnistandaxili siyasi mübarizәdә terror çoxdan әn sınanmış vasitәyә çevrilib. 1999-cu il oktyabrın 27-dә Ermәnistan parlamentinin güllәboran edilmәsi vә spikerin vә baş nazirin qәtlә yetirilmәsi buna bariz sübutdur. Әn önәmlisi, günahsız insanları qәtlә yetirmәklә ermәnilәr fәxr etdiklәrini heç vaxt gizlәtmirlәr. Yәni İŞİD-lә ideya ortaqlığı, su-çuxur mәsәlәsi.

Ancaq Azәrbaycana qarşı İŞİD-lә ittifaq mәsәlәsindә ermәnin xeyrinә olmayan bir vazkeçilmәz әngәl var. Bu da odur ki, İŞİD Rusiyanın da hәdәfindә olan, Rusiyanın terrorçu kimi tanıdığı bir tәşkilatdır. Hәr halda, kağız üzәrindә belәdir...

❑ **Siyasәt şöbәsi**

---

# Ağ zanbaqlar ölkәsi vә ya kim sevirsә idmanı...



**Hüseynbala SӘLİMOV**

**Bәli, 54 ölkәni böyük bir idman tәdbirindә bir araya gәtirmәk, ölkәni tәbliğ etmәk... Etiraf edim ki, İslam oyunları haqqında düşünәrkәn elә mәnim dә ağlıma gәlәn ilk cümlә bu oldu.**

Amma başqa suallar da qayğılandırır mәni. Nәdәnsә hәmin oyunlar vә ölkәnin idmana verdiyi böyük önәm haqqında düşünәrkәn başqa fikir vә suallar da mәni öz ağuşuna aldı.

Heç özüm dә bilmirәm ki, necә oldu ki, yadıma bir vaxt oxuduğum "Ağ zanbaqlar" kitabından bәzi mәqamlar düşdü...

Hәmin kitabda bir sıra mәtlәblәr kimi bir vaxtlar fin gәnclәrinin futbola necә aludә olmasından da bәhs edilirdi.

O vaxt Finlandiyanın ziyalıları bunu böyük narahatlıqla qarşılamış vә insanlara belә fikir aşılamağa çalışmışdılar ki, Finlandiyaya tәkcә güclü ayaqlar vә ya bilәklәr deyil, hәm dә güclü beyinlәr lazımdır...

Elә mәn dә, qeyri-tәvazökarlıq olmasın, ölkәdә biri-birini әvәz edәn vә biri qurtarmamış digәri başlayan idman tәdbirlәri haqqında fikirlәşәrkәn bu mәqamda ilişib qaldım...

Bәlkә dә mübahisәli görünәcәk, amma mәnә dә elә gәlir ki, Azәrbaycana da ilk növbәdә güclü beyinlәr lazımdır. Bәli, ilk fәxri yerlәri tutan idmançılara böyük maddi mükafatların nәzәrdә tutulması yaxşı haldır. Bu adamlar - idmançılarımız ölkәmizi şöhrәtlәndirirlәr vә buna görә dә yaxşı mükafatlandırılmalıdırlar. Necә deyәrlәr, alacaqları pullar halallları olsun...

Amma mәnә qalsaydı hәmin pullara gәnclәrimizi dünyanın böyük elm mәrkәzlәrinә ezam edәrdim. Qoy, gedib elm öyrәnsinlәr vә ölkәni tәbliğ - tәşviq etsinlәr. Mәn düşünmürәm ki, A.Eynşteyn yәhudilәri vә elәcә dә bәşәriyyәti hansısa böyük idmançıdan az şöhrәtlәndirmişdi. Üstәlik, burada söhbәt tәkcә zahiri effektlәrdәn, şöhrәtdәn -filandan da getmir, güclü elm güclü iqtisadiyyat vә ya sәnaye demәkdir, inkişaf demәkdir...

İnanın, hәr il Nobel mükafatları tәqdim olunarkәn şәxsәn mәn bәşәryyәtә aid olduğumdan qürur duyuram. Hәm dә dünya artıq bir elm dünyasıdır vә böyük Nizaminin "Qüvvәt elmdәdir..." sözlәri indi heç vaxt olmadığı qәdәr aktualdır...

Tәk bircә mәsәlәni deyәcәm. Hazırda dünyada kiber-mübarizә gedir, kiber - tәhlükәsizlik mәsәlәsi önә çıxır.

İndi hәr bir dövlәtin bütün vacib resursları kompüterin beynindәdir. Ona görә dә onları qorumaq zәrurәti yaranır. Bunu isә yalnız müasir elm sayәsindә etmәk mümkündür.

Bizdә hәr şeyi bayağılaşdırmaq adәti var. Mәsәlәn, informasiya tәhlükәsizliyi deyәndә mәmurlarımızın ağlına dәrhal hakimiyyәti azacıq tәnqid edәn saytların bloklanması düşür. Amma informasiya tәhlükәsizliyi vә yaxud da kiber - mәdәniyyәt yalnız budurmu?

İndi gәnclәrin elmә marağı azalıb. Sәbәbi dә bәllidir. Elmlәr doktoru dәrәcәsini demirәm, adi fәlsәfә doktoru dәrәcәsi almaq üçün minimum 20 il fasilәsiz oxumaq lazım gәlir. Gәnc düşünür ki, iyirmi il oxuyub 300 - 400 manat maaş alacamsa, buna heç dәyәrmi? Vә nәticә etibarilә belә düşünmәkdә onlar elә doğrudan da haqlıdırlar.

Ölkәdә belә bir yanlış fikir formalaşıb ki, guya elmin vәtәni yoxdur vә istedadlı gәnc bir yol taparaq gedib ABŞ-da, Avropada da çalışa bilәr. Di gәl, kökündәn yanlış yanaşmadır. ABŞ-da, Avropada çalışan gәnc xeyri dә hәmin ölkәlәrә verәcәkdir. Azәrbaycan kimi ölkәlәrsә hәmişә geridә qalacaq...

Mәsәlәn, mәnә qalsaydı, beynәlxalq fәnn olimpiadalarının qaliblәri üçün tәqaüdlәr tәsis edәrdim, çünki millәtin gәlәcәyi mәhz onlardan asılıdır. Amma biz nә edirik? Musiqiyә, idmana diqqәt yetiririk, amma elmi vә alimlәri demәk olar ki, yada salmırıq..

Nәticәsi nә olur? Gerilik vә tәrәqqisizlik... Bir daha deyirәm ki, mәn dә "ya bu, ya da o" kateqoriyaları ilә düşünәn adam deyilәm vә heç dә fikirlәşmirәm ki, idmanı tamam unutmaq lazımdır. Tәbii ki, belә olmaz, çünki bizim hәr birimiz hәm dә hansısa idman növünün azarkeşiyik.

Gәl, ölkәni idman yox, birinci növbәdә mәhz elm vә ya mәdәniyyәt inkişaf etdirir vә yaxud da tanıdır. İdman bütün hallarda әylәncәdir. Bir mәqama qalsa, onsuz da keçinmәk olar. Amma elm vә mәdәniyyәt belә deyil, onlar ölkәnin inkişafı demәkdir.

Tәәssüf ki, tәkcә biz yox, bütün islam ölkәlәri elm sarıdan axsayırlar. Sanki könüllü olaraq elmi Qәrb dünyasına güzәşt etmişik. Nәticәdә dә Qәrb durmadan inkişaf edir, bizsә yerimizdә sayırıq...

YENİ MÜSAVAT
N 103 (6717) 16 may 2017

# Şahi-Zində... yox-yox, Şəhidi-Zində

## Bu ortaçağ dalanında bir əbədiyyət, bir dirilik qoxusu dolaşır

**Ən qədim şəhərlərlə - Rum, Afina, Babillə həmyaşıd olan Səmərqəndi "Dünyanın parlayan ulduzu", "Şərqin Rumu", "Müsəlman dünyasının qutsal varlığı" adlandırmışlar.**

**6-cı yazı**

Bu gün... Səmərqəndin başqa bir qutsal məkanına, Əfrasiyab təpəsinin güney yamacında yerləşən Şahi-Zindəyə gəldik.

Şah, məlum, zində - o da məlum, diri deməkdir. Bizim ölkəmizdə də bu adda yerlər var. Məsələn, Xıdır-zində. Yəni diri Xıdır, Xıdır-İlyas, Xızır peyğəmbərin qutsal yeri.

Faziləddin hoca ara-sıra təkrar edir; əslində bu yerin adı Şahi-Zində deyil, Şəhidi-Zindədir. Şəhid sözü zamanla təhrif olaraq, şah həddinə düşüb. O deyir, mən heyrət içində ətrafa baxıb dinləyirəm. Nə qədər heyrətdə olsam da, gördüyümü, eşitdiyimi kəsdirə bilməsəm də, deyəsən, hocam bu dediyini artıq yeddinci dəfə sözarası israr edir; şəhid-zində, şəhid zində... görünür o, bu təhriflə heç cür barışa bilmir.

Qəbul edirəm, şah niyə diri olsun ki, şah şəhid olarsa, bu başqa məsələ, diri sayıla bilər. Məntiq bu israrı qəbul edir.

Yaxşı, bəs diri olan bu şəhid kimdir?

Peyğəmbərimizin əmisi həzrət Abbasın oğlu Kusam ibn Abbas.

Mənbələr yazır, fəzilət və təqva sahibi olan Kusam Səid Osmanla birlikdə Səmərqənd səfərinə qatıldı və orada şəhid oldu. Başqa bir hədisdə deyilir; Peyğəmbərimiz dedi, Kusam, zahirən və qəlbən başqalarından daha çox mənə bənzəyir. Daha başqa bir hədisdə deyir; atası həzrət Abbas oğlunu əzizlərkən dedi; ey üstünlüyün və seçkinliyin uca sahibi peyğəmbərimizə bənzəyən Kusam.

Beləcə, Üstün və Seçkinə bənzər Kusam ağır səfərə - Turan ellərinə İslamı yaymağa yollanır. Amma məkanın öz dini, öz imanı vardı, qolay-qolay vaz keçəsi deyildi minillik inancından.

Çox yerlərdə olduğu kimi Səmərqənd atəşpərəstləri də öz ocaqlarını müdafiə etmək üçün yeni din, yeni üsul gətirən, 'bundan belə o cur yaşama, bu cür yaşa' deyən, yadellilərə müqavimət göstərirdilər.

Bu qarşıdurmada Kusam şəhid olur. Onun şəhidliyi haqqında 7-ci əsrdən bu günə müxtəlif rəvayətlər, əfsanələr, inanclar mövcuddur. Hətta... o, döyüşdə ölmədi, dedilər, başına qılınc enən anda qadir Allah önündəki qayadan üzünə bir qapı açdı, o qapıdan içəri girib cənnətə keçdi. Bəziləri də dedilər, yox, Kusam başını itirdi, amma özünü itirmədi, bir quyuya enib qeyb oldu. O qayıdacaq.

Xalq bu inancları sözü, könlü ilə bəsləyib dildən-dilə, nəsildən-nəslə, əsrdən-əsrə ötürmüş və 1400 il yaşatmışdır. Çox ciddi sürəcdir.













Xalqın inanclarına isə istəyirsən inan, istəyirsən inanma, bu, heç nəyi dəyişmir. İnananlar və inanmayanlar gəlir, gedir. Hipotez qalır.

Hadisənin təqvimi 676-cı il kimi göstərilir. Həmin tarixdən 400 il sonra, ilk dəfə məzar abadlaşdırılaraq, üstündə məqbərə tikilir. Sonrakı dövrlərdə gələn hakimlər də İslama xidmətini sərgiləmək üçün bu yeri abadlaşdırmışlar.

... Pillələr qələbəlikdi. Bütün ziyarətgahlarda, bütün muzeylərdə olduğu kimi yerlilər gəlmələrdən çoxdur. Amma bu nağıl dalanda hər kəsə yer var, hər kəsə pay var...

Hava əcaib xoşdur, günəş və rüzgar həmahəng olaraq bu cənnət məkanın da, sənin də xidmətindədir. Biri isidir, o biri sərinlədir. Əbədi dirilər ruhunu dindirir.

Ətraf əfsanələr aləmidir, hansı səmtə baxırsan bax, zamanını tapmazsan, sanki orta çağlardasan.

Başı dalan olan bu zaman zolağını bir-birindən tac-tağlar ayırır, sanki dərəcələrə bölür. Hər dərəcənin öz sakinləri var.

İrəliləyirəm... hər tərəf işıqlı, hər tərəf naxışlı... sakit və təmiz...

Demişdim axı, özbəklər səs-küyçü deyillər. Üzləri daş kimi ifadəsiz görünür bəzən; amma dindirərsənsə ilıqlıq, istiqanlıq görəcəyinə əmin ol.

Bir yerdə dalanın kəlləsinə, şəhid Kusamın uca məqbərəsinə yürüməkdəyik...

Şəhidin məzarına ziyarətçiləri 40 pillə qaldırır. İşin içini bilənlər gedəndə və dönəndə bu pillələri sayır. İnanca görə eyni rəqəm alınarsa niyyətin hasil olacaq.

Pillələri yanaşı çıxdığım insanlar, uşaqlı-böyüklü inadla sayırdılar; bir, iki, üç... iyirmi yeddi... otuz doqquz... hər kəsin gözü təkidlə basamaqlara dikilib. Hər kəs inamla saymaqdadı. Hər kəs sayda caymaqdan üşənir...

Mən də onlara qoşuldum, addım-addım... saydım-saydım... mahiyyətimiz niyyətlərimizdə deyilmi...

...13-cü əsr monqol yürüşlərində cah-cəlallı Türküstan şəhərlərinin yerində arpa əkildi. Qalalar viran edildi, abadlar bərbad oldu, əziz məbədlər dağıdıldı. Yerli camaatın ruhani nəyi vardısa tar-mar edilirdi. Bu istilanın mahiyyətinə zidd olsa da, monqollar Kusam ibn Abbasın məzarına toxunmadılar. Allahın intiqamındanmı qorxdular? Bilmirəm. Görünür, yerli inanc o qədər güclü olub və elə geniş bir alana yayılıb ki, heç nəyi saymayan, heç nədən qorxmayan moğollar bu inancla hesablaşıblar.

... Əmir Teymurun üstünlüyü elm-irfan, bilik sahibi olduğu kimi həm də böyük inanc sahibi olması idi. O, etiqadlı bir müsəlman olduğu qədər Turanın əski türk-moğol ənənələrinə bağlı idi. Onun qələbə məclislərində müqəddəs kəlmələr səslənməklə yanaşı içki də içilirdi. Əmir millətlərin məişət vərdişləri, örf-adətləri, daşlaşmış inancları üzərindən qara xətt çəkəcək qədər sadəlövh deyildi. O, universallaşmanın, uzlaşmanın ustadı idi, idarəetməsi də bu təməl üzərində idi.

Şəhid Kusamın məzarı ilk dəfə Əmir Teymurun zamanında şahanə abadlıq görür. Əmir hərb yürüşlərindən geri dönərkən sarayına girməzdən öncə Səmərqəndin bir neçə məkanını ziyarət edərdi. Yürüşlərə o yerlərdən gedər, o yerlərdən dönərdi. Həmin müqəddəs yerlərdən biri Kusamın məzarı idi. Bu möhtərəm yerdə Əmir bacılarını, xanımı Tümən ekəni, süd anasını da dəfn etmişdi.

... İynə atsan yerə düşməz. Sanki şəhər bütünlükdə burada - Yer üzünün bu misilsiz ortaçağ dalanındadır...

Dalan pillə-pillə ucalır, basamaq-basamaq yoxuşa qalxır. Ora bir getmək, bir də qayıtmaq var, sağı, solu, duracağı, dönəcəyi yoxdur. Şərafətli məqbərələr, ehtişamlı qapılar, mavi naxışlı günbəzlər önündən keçib gedirsən. Qapılardan içəri boylanarsansa, bəyaz sərdabələrdə uyuyanlara salam edib yubanmadan yoluna davam edəcəksən.

Nəhayət, başda və sonda Şəhid Kusamın sərdabəsi əzəmətli təhri ilə səni gözləyir. Bu əzəməti görmək üçün öncə alçaq, dar qapıdan əyilib keçəcəksən. İçəridə avazla quran oxunur... sən də bu havaya donacaqsan... harada olduğunu, nə baş verdiyini anlamayacaqsan...

... Getdiyin kimi geri dönməlisən.

Dalandan çıxışa aparan yolda «ustadına bərəkallah» dedirdən məqbərələr sıralanıb. Bu məqbərələrdəki sərdabələrin içində minilin ölüləri yatır. Amma bura ölü bir yer deyil. Qətiyyən qəbiristanlıq halında deyil bura. Burada sükunətin, dincliyin, faniliyin işarəti belə yoxdur. Burada zamansız bir həyat var. Buralar həyatın qaynadığı, eşqli və həyəcanlı qəlblərin dolaşdığı yer kimi görünür.

Demək, şah diridir, deyirlər, hoca; şəhid diridir, deyir. Baxıram ətrafa, sanki bu yerin özü diridir, şahı ilə, şəhidi ilə, hətta məzarları ilə. Buraya gələn insanların üzlərində o qədər əminlik var ki...

Yox, bu yerin özü canlıdır. Hər şeyi ilə, günəş şüaları altında bərq vuran göy-mavi naxışlarıyla belə bu yer nəfəs alıb nəfəs verirdi...

Bu körüklənən nəfəslərin içində bir təşnə nəfəs də sezilməkdə idi;

Uca Əmir zəfər yürüşündən dönmüşdü. Yorğun və məmnundu.

Əldən düşmüş qoşun qənimətilə yüklənərək yolboyu köyünə, evinə dağılıb. Minbaşılara, tümənbaşılara, sərkərdələrə «mürəxxəs» deyilib.

Yollar yorğunu, illər yorğunu Əmir sarayına, taxtına, rahatlığına tələsmir. Sevimli Səmərqəndindən öncə şəhid Kusamın hüzuruna gəlib.

Bu ehtişamlı dalanda üzüyuxarı yürüyür.

Əzəmətli və axsaq ayağı mərmər basamaqlara külüng kimi vurulur.

Dünya-aləmin baş əydiyi Əmir şəhidə baş əyməyə yüksəlir.

Əmir 40-cı pilləni çıxır... şəhidə müjdə gətirir... deyiləcək sözü, qılınacaq namazı, ediləcək duası var...

Böyük qənimətdən bu yerin ayrıca payı var...

... Şəhidə yaxın səmtdə Əmir Teymurun ailəsindən bir neçə nəfər dəfn edilib. Əmirin bacıları, xanımı Tümən əkə, dövrünün məşhur din xadimi Xoca Əhməd...

25 məqbərə varmış. 1400 ilə cəmi 25 nəfərə ehsan edilib bu yer...

Teymurun sərkərdəsi Burunduk.

Burunduk son dərəcə şücaətli və yenilməz döyüşçü olub. Əmir ona inanar, güvənər, xətrini əziz tutarmış. O, Teymur əyanlarının ən zəngini imiş. Görünməmiş səxavət sahibi Əmir döyüşlərdən gətirdiyi qənimətdən ona ürəkli bəxşişlər edərmiş...

Lakin onun məzarı bu cəh-cəlalın içində ən sadələrindən biridir.

Bəlkə bu sadəlik Burunduğun öz vəsiyyəti olub.

Başqa səbəblər də var; heç bir məqbərə şəhidin məqbərəsindən zəngin və uca ola bilməzmiş.

Əmirdən sonra Səmərqəndin hakimi Uluqbəy Şahi-Zindənin girəcəyində əzəmətli piştağ - alaqapı tikdirir. O, da şəhidə və yanaşı yatanlara ehtiramını ifadə edir.

Eləcə də burada, ən aşağı başda əziz dostunu, nücum alimi Rumini dəfn edir. Alimin məqbərəsini bütün məqbərələrdən uca yapdırır, hətta şəhidin məqbərəsindən belə.

Bəli, məhz, Şahi-Zindənin bütün məqbərələrindən alimin məqbərəsi uca olur..

Böyük dini bilikləri olan, azyaşlarından hafiz olan Uluq bəy, bunu İslamın təməl qanunlarına əsaslanaraq etmişdi. O qanun belə idi;

Peyğəmbərimiz dedi; mənim varislərim alimlərdir.

**Belə! Həqiqi İslamın, eləcə də Əmir Teymurun, alim-hakim Uluqbəyin alimə verdiyi qiymət bu yerdə bu sayaq rəmzləşib!**

**Şahi-Zində dünyada misli olmayan, özündə zamanları yaşadan qutlu və mutlu bir məkandır. Burada, bu ortaçağ dalanında bir əbədiyyət, bir dirilik qoxusu dolaşır...**

**Mehriban VƏZİR**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 103 (6717) 16 may 2017



# Anjey Kasprşik Xankəndinə niyə və hansı yolla gedib?

## ATƏT-in Qarabağdakı "ömürlük canişini"nin separatçılarla görüşünə sərt təpki; **hərbi ekspert:** "Onu tez bir zamanda "persona non qrat" elan etmək lazımdır"

**ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki separatçı rejimin başçısı Bako Saakyanla görüşüb. İlkin məlumata görə, Xankəndi də keçirilən görüşdə Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində mövcud olan vəziyyət müzakirə olunub.**

Ancaq Kasprşikin Xankəndi şəhərinə hansı marşrutla getdiyi açıqlanmayıb. Qeyd edək ki, artıq 20 ildən çoxdur bu postu tutan ATƏT nümayəndəsi dəfələrlə Dağlıq Qarabağdakı separatçı rejimlə görüşlər keçirib, ancaq işğal zonasına o, Azərbaycan tərəfdən deyil, Ermənistan yolu ilə gəlməyə üstünlük verib. A.Kasprşikin bu hərəkəti bir çox hallarda etirazlar doğurub və onun Azərbaycanın ərazi bütövlüyünə hörmət etməsi tələb olunub. ATƏT sədrinin şəxsi nümayəndəsi Xankəndinə Azərbaycan tərəfdən getmək istəsə, ona hər iki tərəf sözsüz ki, şərait yaradar və təhlükəsizliyini təmin edər. Elə isə həmsədrlər kimi, Kasprşik də niyə bu cür sayğısız yanaşır? Hələ ki bu suala cavab yoxdur. Azərbaycanın rəsmi qurumlarından da məsələyə reaksiya verilməyib.

**Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a bildirdi ki, ATƏT-in Minsk Qrupu həmsədrlərinin ATƏT-in fəaliyyətdə olan sədrinin bölgədəki şəxsi nümayəndəsi Anjey Kasprşikdən heç bir fərqləri yoxdur:** "Anjey Kasprşikin fəaliyyəti nədən ibarətdir? O, bir-iki köməkçisi ilə cəbhə bölgəsində monitorinq aparır ki, atəşkəsə riayət olunsun. Yeri gəlmişkən, o bu vəzifədə qocaldı, hamı getsə də, 20 ildən çoxdur ki, buralardadır. Bir xeyri də yoxdur, çünki atəşkəsə riayət edən yoxdur. Həmsədrlər də son illər eyni işi görürlər, Azərbaycana və Ermənistana gəlib münaqişənin həllini sürətləndirmək əvəzinə, tərəfləri atəşkəsə riayət etməyə çağırırlar. Hər dəfə gəlməyə nə ehtiyac var ki, bu işi onsuz da Kasprşik görür. Həmsədrlər əvvəlcə aprelin əvvəlində gəldilər ki, 4 günlük müharibə bir il sonra təkrarlanmasın, indi də iyul ayında gəlməyi planlaşdırırlar ki, yay aylarında toqquşma ehtimalı yüksək olduğundan bunun qarşısını alsınlar. Digər vəzifələri Azərbaycan və Ermənistan prezidentlərini yaxın müddətdə görüşdürməkdir. Ancaq həmsədrlər nə atəşkəsin qorunmasına nail olur, nə də prezidentləri görüşdürə bilirlər. Çünki özlərinə bilavasitə aid olan işlə məşğul deyillər".

**E.Şahinoğlu bu arada müzakirə olunan separatçıların "paytaxtı" Şuşaya köçürməsinə, Kəlbəcərdə məktəb, uşaq bağçası, xəstəxana və su elektrik stansiyasının tikintisinə necə mane olmaq mümkündür, suallarına da cavab tapılmasını zəruri sayır:** "Rəsmi Bakı separatçıların Xankəndində təmir etdiyi hava limanının istifadəsinə necə əngəl oldusa və separatçılar qorxularından bu hava limanından istifadə edə bilmirlərsə, təyyarələr enib-qalxmırsa, eyni taktikadan Şuşa və Kəlbəcərlə bağlı da istifadə etmək lazımdır. Necə oldu ki, separatçılar 20 ildə işğal altındakı torpaqlarda heç bir fəaliyyət göstərmədilər və qəfil həmin torpaqlarda tikinti işlərinə başladılar? Kim onlara bu təxribatlarına görə təhlükəsizlik zəmanəti verdi? Dərhal Minsk Qrupu həmsədrləri Bakıya çağırılmalı və onlar baş verənlərin hansı nəticələrə gətirəcəyindən xəbərdar edilməlidirlər. Ümumiyyətlə, elan edilməlidir ki, işğal altındakı torpaqlarda infrastruktur işləri və köçürülmə müharibəyə səbəb olacaq. Bu gedişatla Ermənistana ultimatum verilməlidir: "3 və ya 5 aya torpaqları boşaltmasan, bunun nəticəsi ilə hesablaşmaq məcburiyyətində qalacaqsan!" Ancaq bundan əvvəl nəticəsiz danışıqların imitativ xarakter daşıdığı, real nəticəyə hesablanmadığı və bunun da status-kvonun uzanmasına gətirib çıxardığı bəyan edilməlidir. Əgər bu bəyanatı verməyə hazırıqsa, onda Ermənistan hakimiyyətinə ultimatim verilməsi mümkündür. Yox, əgər nəticəsiz danışıqlarda əvvəlkitək iştirak edəcəyiksə, işğal da davam edəcək".

**Ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərovin dediyinə görə, yəqin ki, ölkəmizdə siyasi proseslərlə, Qarabağ məsələləri ilə yaxından maraqlanan həmvətənlərimiz polşalı diplomat Anjey Kaspşiklə bağlı kifayət qədər məlumata malikdirlər:** "Onunla bir neçə il bundan əvvəl Ermənistana, oradan da Azərbaycanın işğal altında olan Şuşa, Xankəndi və digər ərazilərinə birgə səfərimiz zamanı hiss etmişdim ki, bu adam özünü xüsusən Ermənistan tərəfdə "balıq suda hiss edən kimi" rahat hiss edir. Ermənilər üçün son dərəcə mehriban və son dərəcə doğma adam təsiri bağışlayan cənab Kasprşik həm məndə, həm də səfər yoldaşlarım olan Azərbaycanın çoxsaylı jurnalist və ictimai fəalları üçün qəribə təsir bağışlayırdı. Üstündən illər keçəndən sonra mən bir məsələdə əmin olmuşam ki, təxminlərim özünü doğruldur. Əvvəla, bu adam haqqında doğulduğu və vətəndaşı olduğu Polşada artıq unudublar. 20 ildən artıqdır ki, öz postundadır. Çox maraqlı bir paralel aparım. 20 ildən artıqdır ki, Qarabağ məsələsini həll etməyən beynəlxalq mafiya babaları məhz bu illər ərzində Kasprşikdən savayı heç kimi bu məsələdə yaxına buraxmırlar. Sual olunur, xeyr ola, bu illər ərzində bu və bunun kimi bivec diplomatlar Qarabağla bağlı hansı uğura imza atıblar ki, bundan bərk-bərk yapışıblar? Yaxud xaricdə bir enerjili və bacarıqlı diplomat-səfir tapmırlar ki, bu məsələdə çevik və operativ hərəkət etsin? Əlbəttə ki, məqsəd və məram aydındır. Bu adam sırf erməni-rus maraqlarını təmin etdiyinə görə bunu dəyişmirlər. Və belə gedişlə heç ömrünün sonuna kimi dəyişməyəcəklər. Yəqin ki, bunu "yük 200"lə Varşavaya yola salacaqlarını düşünürlər".

**Hərbi ekspert şübhələrini açıqladı:** "Əslində cənab Anjey Kasprşik sırf ermənilərə xidmət edir və bunu mən dəfələrlə faktlarla sübut etmişəm. 2014-cü ildə erməni hərbçilər mövqelərimiz üzərində döyüş helikopterində uçuş edəndə bizim qəhrəman əsgərimiz onları məhv edəndən sonra bu Kasprşik az qala gecə-gündüz yatmadı və işğalçıların meyitlərinin qalıqlarını İrəvana çatdırmaq üçün hansı oyunlardan çıxdı. Amma bizim 3 cəsur pilotumuz 2016-cı ilin aprel hadisələri zamanı vurulanda bu adamın heç səsi çıxmadı. Yüzlərlə təkzibolunmaz fakt sizə deyə bilərəm ki, bu şəxs sırf erməni-rus maraqlarına xidmət edir. Baxsanız, ona həm İrəvanda, həm də Qarabağda super şəraiti olan ofis və qərargah yaradıblar. Bu adam erməni konyakı və şərablarının təsiri altında ancaq və ancaq erməniləri razı salan bəyanatlar səsləndirir. Özü də tez-tez Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə səfərlər edir və separatçı rejimin həm əvvəlki başçıları Arkadiy Qukasyanla, həm də indiki yaramaz Bako Saakyanla tez-tez görüşür. Və maraqlıdır ki, bu qeyri-qanuni adamlarla nəyi müzakirə edir? Sözsüz ki, onları məlumatlandırır və onların maraqlarını təmin etmək üçün müzakirələr edir. Buna yolunu və yerini göstərməyin zamanı çoxdan çatıb. O, əsl casus və diplomatik etikaya sığmayan fəaliyyətlə məşğul olan personadır. Onu tez bir zamanda "persona non qrat" elan etmək lazımdır".

# Erməni separatçılarının Şuşa təxribatı - danışıqlara son verilə bilər

## **Bayram Səfərov:** "Bu, erməni siyasətçilərinin növbəti həyasızlığıdır; torpaqlarımızı azad etməliyik ki, ermənin bu söz-söhbəti də qurtarsın"

**Qarabağdakı erməni separatçılarının Şuşa ilə bağlı yeni planı ilk baxışda qeyri-ciddi görünə bilər, amma dərinə gedəndə aydın olur ki, burada əslində çox məkrli bir oyun qurulub. İrəvanın və Moskvanın əlində oyuncağa çevrilən separatçı rejim Dağlıq Qarabağın "paytaxtı"nın Xankəndindən Şuşaya köçürülməsini reallaşdırmaqla Azərbaycanın Şuşa ilə bağlı ümidlərini birdəfəlik kəsəcəklərini zənn edirlər.**



İşğalçılar və onların havadarları da yaxşı anlayır ki, özünü Azərbaycan vətəndaşı hesab edən heç kəs bu məmləkəti Şuşasız təsəvvürünə belə gətirmir və Azərbaycanın cənnətinin nə zamansa geri qaytarılacağına ümid edir. Bu mənada erməni işğalçılarının canfəşanlığı anlaşılandır. Görünür, separatçılar bu oyuna start verməklə əvvəlcə ictimai rəyi hazırlamaq, yaxud da beynəlxalq təşkilatların reaksiyasının necə olacağını bilmək istəyirlər.

Son zamanlar işğal altındakı Şuşa şəhərində həyata keçirilən tikinti və abadlaşdırma işlərinin sürətinin artırılması da düşmənin məkrli niyyətindən xəbər verir. Bir müddət əvvəl isə xəbər yayılmışdı ki, separatçılar artıq Azərbaycanın tarixi şəhərinə "Mədəniyyət Nazirliyini" və digər dövlət idarələrini köçürüblər. Acınacaqlı vəziyyətdə yaşamalarına baxmayaraq, işğalçılar erməni diasporunun dəstəyi ilə Azərbaycanın işğal olunmuş ərazilərində süni məskunlaşma və tikinti işlərini davam etdirirlər.

Hələlik rəsmi Bakı erməni separatçılarının bu niyyətinə reaksiya verməyib. Ancaq Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov APA-ya açıqlamasında düşmənin məkrinə dolayısı ilə reaksiya verib. Belə ki, Qarabağ separatçılarının Şuşa ilə bağlı plan qurduğu bir ərəfədə Ermənistan xarici işlər naziri Edvard Nalbəndyan həmsədrlərin regiona səfərindən sonra nazirlər səviyyəsində görüşün mümkün olduğunu bildirib. Azərbaycanlı nazir isə bunun prinsip etibarilə mümkün olduğunu qeyd edib. "Amma diplomatiyada "danışıqlar naminə danışıqlar" mövcud deyil. Hər kəsə aydındır ki, Ermənistan öz qoşunlarını işğal olunmuş Azərbaycan ərazilərindən çıxarmalıdır" - E.Məmmədyarov deyib.

Şuşanın zəbti istiqamətində növbəti həyasız addım isə danışıqların mənasının qalmadığını deməyə əsas yaradır. Bu mənada ATƏT-in Minsk Qrupunun həmsədrlərinin iyulda bölgəyə planlaşdırdıqları növbəti səfər də, sadəcə, vaxtın uzadılmasına xidmət edir. Diplomatlar erməni separatçılarının planlarına reaksiya vermirsə, onların ədalətli təkliflə gələcəkləri də inandırıcı deyil.

**Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması İctimai Birliyinin sədri, Şuşa Şəhər İcra Hakimiyyətinin başçısı Bayram Səfərov "Yeni Müsavat"a açıqlamasında separatçıların öz məqsədlərinə çatmayacağını bildirdi:** "Erməni yazır ki, Xankəndi ilə Şuşa birləşdiriləcək. Xankəndi ilə Şuşanın arası 10 km-dir, özü də hamısı döngədir. Məgər Şuşada, yaxud Xankəndində o qədər erməni varmı ki, indi bunlar təzədən o şəhərləri birləşdirələr? Yaxud nə ilə tikəcəklər? Tikəcəklərsə də, çox yaxşı, nə tiksələr, bizə qalacaq. Mən şuşalıyam, Şuşada yaşamışam, şuşalılar, ata-anası qarabağlı olanlar gəlib-gedə bilərlər. Abadlaşdırma söhbətinə gəldikdə, binalar, tikililər var idi, bir az təmir edirlər, adını abadlaşdırma qoyurlar. Bu, erməni siyasətçilərinin növbəti həyasızlığıdır. Nə qədər ki, o ərazilər bizim əlimizdə deyil, erməni bildiyini edəcək. Biz torpaqlarımızı azad etməliyik ki, ermənin bu söz-söhbəti də qurtarsın!"

**İcma rəhbəri danışıqların gedişi ilə bağlı da bunları bildirdi:** "Erməni xoşluqla torpaq verər? Nə qədər ki, onları ədalətsiz müdafiə edənlər var, nə qədər ki, bu hakimiyyət iş başındadır, torpaqları asanlıqla qaytaran deyillər. Bugünkü hakimiyyət də ötən illərdə olduğu kimi, erməni xalqını yox, özünün hakimiyyətdə qalmasını fikirləşir. Üstəlik, bu məsələ təkcə Ermənistanlıq deyil, "ilana zəhər verənlər" var".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 103 (6717) 16 may 2017

**Tarixən Azərbaycan üzərində öz nəzarətini saxlamağa çalışan Rusiyanın ölkəmiz üzərində təzyiqlərini müstəqillik qazandıqdan sonra da hiss edirik. Xüsusilə Azərbaycanda keçirilən hər seçkilər ərəfəsində şimal qonşumuzun təzyiqlərinin artdığının, seçkilərə müdaxiləsinin şahidi oluruq.**

# Rusiya Azərbaycandan nə istəyir...

2013-cü ilin prezident seçkilərində bu hal özünü daha qabarıq şəkildə büruzə verdi. Məhz o zamanlar Rusiyanın projesi ilə Milli Şura yaradıldı və bununla Kremlin rəsmi Bakıya kifayət qədər təsir etmək imkanları oldu. Gələn il keçiriləcək prezident seçkilərində yenə də Rusiya barmağının ola biləcəyi ilə bağlı fikirlər meydana çıxmağa başlayıb.

Maraqlıdır ki, Rusiya-Azərbaycan əlaqələrinin ən yüksək səviyyədə olduğu vaxtlarda belə, rəsmi Moskvanın bir yol tapıb, ölkəmizə təzyiq etdiyinə şahidlik etmişik. Son olaraq Ümumrusiya Azərbaycanlıları Konqresi ətrafında gedən prosesləri xatırlamaq kifayət edir. Qonşu ölkəyə qarşı heç zaman əks siyasət yürütməyən, daim balanslı siyasətə üstünlük verən Azərbaycana münasibətdə şimal qonşumuzun bu cür mövqeyinin olması daim suallar yaradır. Rəsmi Bakının bu təzyiqləri birdəfəlik sıradan çıxarması ilə bağlı ən müxtəlif fikirlər var.

**Politoloq Elçin Mirzəbəyli Rusiyanın Azərbaycanın müstəqilliyini həzm edə bilmədiyini, bundan sonra da etməyəcəyini düşünür:** "Bu reallığı birdəfəlik qəbul etmək lazımdır. Rusiya Azərbaycanın da Ermənistan kimi forpost olmasını istəyir və bunun müqabilində heç bir addım atmaq, ədalətli davranmaq niyyətində də deyil. Qafqazı fəth etmək rus millətçiliyinin ideoloji əsaslarını təşkil edir. Açın Rusiyanın heykəl qoyduğumuz və qoymadığımız bütün tanınmış yazarlarının əsərlərini oxuyun... İlk misra və ya sətirdən sonra bunların yadına Qafqazın ram edilməsi düşür. "Qafqazın fəth edilməsi" rus milli düşüncəsinin, ədəbiyyatının ana xəttini təşkil edir. Ruslar Qafqazı əzəndə elə bil özlərini xoşbəxt hiss edirlər. Bu nə isə qəribə bir maniyadır... Doğrusu, bəzən çətinlik çəkirəm anlamağa - nəyin qisasını alırlar bizdən? Hansı natamamlıq kompleksidir onlara rahatlıq verməyən? Mən illər öncə, 1991-ci ildə dostluq münasibətində olduğum rus mədəni elitasının təmsilçilərindən Rusiya imperiyasının sərhədləri haqqında aqressiv, hikkəli bəyanatları eşidəndə Rusiyanın heç vaxt sivil və ədalətli olmayacağını, başqa xalqların azadlığına sayğıyla yanaşmayacağını başa düşmüşdüm. Və eyni zamanda başa düşmüşdüm ki, imperiyanın tör-töküntüləri milli şüur daşıyıcısı və istiqlal tərəfdarı olan insanlara heç yerdə rahatlıq verməyəcəklər... "Milli Şura" adlı xəyanət yuvasının yaradılması da, Ümumrusiya Azərbaycanlıları Konqresindəki bölücülük fəaliyyəti də seçkilərdən bir il öncəyə təsadüf edirdi. Ola bilsin ki, yenə də eyni ssenarini işə salmaq istəyən qüvvələr var. Amma Rusiyanın təzyiqləri heç vaxt dayanmır ki... Seçkilər, sadəcə, nüfuz müvəkkillərinin daxili siyasi səhnədə leqal olaraq üzə çıxmalarına imkan yaradır. Seçki olmadığı dövrdə bu amil daha çox daxili siyasətdən kənar proseslərdə nəzərə çarpır. Bu baxımdan, prosesləri öncədən proqnozlaşdırmaq çox çətindir. Bilmək olmaz gələn il Rusiyanın özündə nə baş verəcək...".



**Elçin Mirzəbəyli:** "Ruslar Qafqazı əzəndə elə bil özlərini xoşbəxt hiss edirlər"



**Sahib Kərimli:** "Özlərini böyüklərdən də böyük görürlər"

**Politoloq ölkə hakimiyyətini uyaran açıqlamalarına belə davam etdi:** "Şübhəsiz ki, istənilən təzyiq ehtimalına belə hazır olmalıyıq. İstiqlalımızın, sabit və təhlükəsiz inkişafımızın qorunması bizim ən böyük vəzifəmiz və şərəf borcumuzdur. Bizi kənar təsirlərdən asılı vəziyyətə sala biləcək bütün ehtimallar nəzərə alınmalı, ölkənin iqtisadi gücü dərin islahatlar vasitəsilə mümkün qədər artırılmalıdır. Və bu prosesdə təkcə dövlət deyil, bütün ölkə vətəndaşları iştirak etməlidir. Azərbaycanın müstəqilliyindən əziz heç nə ola bilməz!"

**Siyasi şərhçi Sabir Kərimli Rusiyanın regionu özündən asılı vəziyyətə salmaq üçün bu tipli siyasət yürütdüyünü bildirdi:** "Rusiyanın imperiya ənənəsi var, çox böyük ölkədir, özlərini böyüklərdən də böyük görürlər. Və ya belə görmək istəyirlər. Cənubi Qafqazın coğrafi və siyasi əhəmiyyəti aydındır. Rusiya kimi ölkə üçün isə təbii ki, müstəsna əhəmiyyət daşıyır. Rusiya regionu ondan asılı vəziyyətdə və yarım inkişaf etmiş səviyyədə görməkdə maraqlıdır. Xüsusən Azərbaycanın imkanlarını yaxşı bilirlər. Ölkəmizin mövqelərini zəiflətmək əsas prioritetlərindəndir. Təsir imkanları genişdir. Təkcə erməni kartı və ya digər etnik separatçı fəaliyyətləri qızışdırmaqla yox, başqa vasitələrlə də ölkəmizə ciddi təsirlər göstərirlər. Rusiyada yaşayan soydaşlarımız arasında iş aparırlar, milli dövlətçiliyimizə qarşı fəaliyyətlərə cəlb etməyə cəhdlər edirlər, hakimiyyət daxilində əsas mövqelərin özlərinə loyal adamların əlinə keçməsinə çalışırlar və s. Rusiya İslam coğrafiyasında şiə kartından xüsusən yararlanır. Bu mənada Rusiya və İranın ölkəmizdə müəyyən mənada uzlaşmış maraqları var. Baxmayaraq ki, uzun illər ruslarla eyni ölkədə yaşadıq, ciddi əlaqələrimiz var, amma Azərbaycan və Rusiya cəmiyyətləri bir-birinə yaxın hesab edilə bilməz. Kəskin xarakter fərqi var, cəmiyyətlərin mədəni yaxınlıq imkanları minimumdur. Rusiyanın təzyiqlərini zərərsizləşdirmək üçün dövlət rəhbərliyinin şəxsi əlaqələri daha çox rol oynayır. Son illər isə bu əlaqələr də zəifləyib. Rusiya yeni qüvvələrlə işləməyə meyllənib. Azərbaycan hakimiyyəti bu vaxta qədər təhlükəsiz və rahat idi. Bu gün isə narahatlıqlar artır və artan xətlə davam edəcək. Nə qədər ki, qərbmeylli müxalifət güclü idi və rusiyayönümlü qüvvələr marginallaşmışdı, Azərbaycan hakimiyyəti rahat manevr edə bilirdi. Qərbmeylli müxalifətin marginallaşması, İranın ölkə daxilində siyasi təsirlərinin artması ilə yeni şərait formalaşdı. Rusiyada yeni arzular baş qaldırıb. Ölkənin idarə edilməsindəki problemlər, sosial ədalətsizlik və digər çatışmazlıqlardan indi ən çox yararlanmaq istəyən qüvvələr şimal və cənub qonşularımızdır. Milli qüvvələrin toparlanmasına ciddi ehtiyac var. Dövlət və cəmiyyət resurslarını qorumalıdır ki, ölkənin təhlükəsizliyi üçün yararlı olsunlar. Təbii, balansı pozmaq olmaz. Dövlət hakimiyyəti hər yükü öz üzərinə götürməməlidir, bütün proseslər idarə olunan hala salınmamalıdır".

**Cavanşir ABBASLI**

# İran seçkilərində kritik 3 gün



## Seçkinin favoriti indiki prezident olsa da, əsas iddiaçılardan olan Rəisinin də şansı yüksəkdir

**Mayın 19-da İranda növbəti, 12-ci prezident seçkiləri keçiriləcək. Məlum olduğu kimi, seçkilərdə 6 namizəd qeydə alınıb. Namizədlər hazırkı prezident Həsən Ruhani, vitse-prezident İshaq Cahangiri, Tehran şəhərinin meri, keçmiş hərbçi Məhəmmədbaqir Qalibaf, Məsləhət Şurasının üzvü Seyid Mustafa Ağa Mirsəlim, Məşhəd İmam Rza (ə) ziyarətgah kompleksinin direktoru, keçmiş inqilab məhkəməsi hakimi Seyid İbrahim Rəisi və İranın Milli Olimpiya Komitəsinin sədri Mustafa Haşemitebadır.**

Növbəti prezidentin kimliyi artıq bir müddətdir dünya mediasının əsas gündəmini təşkil edir. İranda dövlətin ən üst məqamı ali dini lider postu hesab olunsa da, bir qayda olaraq prezident vəzifəsi ikinci dərəcəli hesab olunur, dövlətin əsas qərarverici şəxsi hesab olunmur. Ancaq hər nə qədər dini rəhbər ən üst və son qərarverici olsa da, İranda prezidentin çox ciddi səlahiyyətləri var. Prezident hökuməti formalaşdırır, daxili siyasəti, iqtisadiyyatı, xarici siyasəti yürüdür. Təbii ki, İran kimi inqilab ideyalarına söykənən ölkələrdə xarici siyasət dövlət idarəçiliyinin əsas istiqaməti hesab olunur və bu mövzularda ali dini liderin mövqeyi və tövsiyələri hökumət üçün əsas istiqamətverici amildir.

Qeyd edək ki, keçirilən son teledebatların nəticələrinə əsasən hazırda seçki yarışının favoriti indiki prezident Həsən Ruhanidir. "İslahat" qanadının əsas şəxsi olan Ruhani son 4 il ölkəni idarə edib, eyni zamanda nüvə məsələsində Qərblə anlaşma əldə edib, İran üzərindəki bir sıra sanksiyaların götürülməsinə nail olub. Eyni zamanda təcrübəli Ruhaninin qarşıdakı seçkilərdə üstünlüyü açıq-aşkardır.

19 may seçkilərinin ikinci favorit namizədi Məşhəd İmam Rza (ə) ziyarət kompleksinin direktoru, İran İnqilab məhkəməsinin keçmiş hakimi, ruhani Seyid İbrahim Rəisidir. Rəisi "mühafizəkarlar" camiəsinin əsas namizədi hesab olunur. İranda gələcək hakimiyyət üçün yetişdirilən kadrlardan hesab olunan Rəisi ali dini liderə sadiq caminin üzərində dayandığı şəxsdir. Hətta bir ara ərəb mediası onun ali dini lider postuna hazırlandığını yazırdı. Bir mənada Rəisinin bu seçkilərdə irəli verilməsi onun üçün siyasi məşq, eləcə də seçilərsə, dövlət idarəçiliyi təcrübəsi olacaq.

Ancaq sirr deyil ki, İranda sistemdaxili demokratiya var. Bir qayda olaraq namizədliyi "Nəzarət Şurası" tərəfindən təsdiqlənərək seçkilərə buraxılan şəxslər dövlətin gələcək prezident olaraq qəbul etdiyi siyasilər olur. Bu mənada namizədlərin yarışı ədalətli olur. Ancaq bəzi siyasi analitiklər bu seçkilərin müəyyən mənada fərqləndiyini yazır. Bu fərqli situasiya isə "dərin dövlətin" müdaxiləsi və "daha uyğun" şəxsin seçilməsinə şərait yaradılmasını şərtləndirir. Bu amillər isə bir neçədir.

Birincisi, Ruhani dönəmi, yəni "islahatçıların" hakimiyyətinin Qərblə yumşalma siyasəti artıq keçərli deyil. Amerikada Tramp kimi qeyri-standart prezident hakimiyyətə gəlib, Yaxın Şərqdə savaşın yenidən qızışması təhlükəsi var. Üstəlik, Həsən Ruhani komandasının nüvə danışıqları zamanı Qərb diplomatlarına qarşı "həddən artıq yumşaq" davranması İranda mühafizəkar dairələrdə narazılıqla qarşılanıb. Hətta bir neçə dəfə beynəlxalq danışıqlara dini liderin xüsusi təmsilçisi də qatılıb.

İndi isə artıq Obama yoxdur, onun yerində sərt, hər an ani qərarlar verə bilən Tramp var. Üstəlik, Yaxın Şərq böhranı daha da dərinləşir, İran və körfəz ölkələri arasında hərbi gərginlik sürətlə artır. Ərəb ölkələri İranı içəridən laxlatmağa çalışırlar. Belə bir periodda İrana daha sərt, qətiyyətli və beynəlxalq arenada özünü göstərəcək yeni sima lazımdır. Üçüncüsü, ali dini liderin səhhəti və yaşı ilə bağlı vəziyyətdir. Qarşıdakı illərdə İran yeni dini lider seçkilərinə gedə bilər. Yaşlı rəhbərin son illərdə bir neçə dəfə xəstələnməsi və yaşı ilə bağlı narahatlıqlar qarşıdakı dönəmdə sistemə daha çox bağlı olan şəxsin prezident olmasını şərtləndirir.

Belə bir şəxs isə hələlik Rəisidir. Amma bunun üçün İran seçicilərinin səsləri həlledici olacaq. Əgər Ruhani əzici və aşkar üstünlüklə seçkiləri yenidən qazanarsa, o zaman onun ikinci müddətə ölkəyə rəhbərlik etməsi qarşısında manеə olmayacaq. Amma seçkilərdə hansısa saxtakarlıq, yaxud hazırkı prezidentin xeyrinə nəticəyə təsir cəhdləri olarsa, o zaman 2009-cu il hadisələri təkrarlana bilər. Çünki ölkənin siyasi sisteminin əsas dayağı olan hərbi elita, xüsusən də SEPAH komandirləri indi Rəisini müdafiə edir. "Mühafizəkarlar"a yaxın mediada artıq Ruhaninin Qlzaqo (Şotlandiya) Universitetindəki doktorluq dissertasiyasının saxta olması ilə bağlı ciddi iddialar ortaya atılıb. Bütün bunlar seçkiqabağı siyasi kampaniya elementləri olsa da, sərt mübarizənin olacağını göstərir.

Ehtimal ki, bu dəfə ali dini lider nəticələrə təsir etməyə çalışmayacaq. Hər halda, bu günə qədər olan mövqeyi belə deməyə əsas verir. Amma seçki günü və sonra hansı olayların olacağını indidən demək çətindir. Seçki kampaniyası və debatlar zamanı Rəisi ciddi şəkildə fərqlənməsə də, ruhani, inqilabçı imici, daha əvvəl inqilaba xidmətləri, nəhayət, hərbi və siyasi elitanın dəstəyi Rəisinin şansını artırır. Yeri gəlmişkən, ötən günlərdə Azərbaycan bölgələrinə gələn Ruhani ciddi təpkilərlə qarşılanıb. Hətta mədən qəzası baş verən ərazidə fəhlələr Ruhaninin avtomobilinə ziyan vurublar. Bu isə əyalətlərdə Ruhaninin dəstəyinin o qədər də güclü olmadığını göstərir. Bütün bunlar indi seçkilərin nəticələri ilə bağlı qəti söz deməyə imkan vermir. Ancaq bir şey məlumdur ki, İran kimi dərin dövlətçilik ənənələri olan ölkələrdə prezidentlərin ümumi kursdan kənara çox çıxması faktiki olaraq mümkün deyil.

**Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 103 (6717) 16 may 2017

**Dünya bazarında ərzaq buğdasının (taxılın) qiyməti durmadan bahalaşır. Belə ki, qiymət 2016-cı ilin dekabrında 122,8 dollar, 2017-ci ilin yanvarında 137 dollar olduğu halda, bu gün 187, 4 dollar təşkil edir. Bu hal isə taxılı xaricdən idxal edən ölkələrdə çörəyin və digər un məmulatlarının da qiymətinə təsir göstərə bilər.**

# Azərbaycanda çörək bahalaşa bilər

## Ekspertlərə görə, dünya bazarında buğdanın qiymətinin qalxması Azərbaycana da təsirsiz ötüşməyəcək...

Müvafiq rəsmi qurumlar Azərbaycanın taxıl tələbatını daxili istehsalın hesabına ödədiyini bildirsələr də, bu da faktdır ki, manatın dollara nisbətdə kəskin ucuzlaşdığı ərəfədə ölkədə un istehsalı ilə məşğul olan şirkətlər qiymətləri qaldırmışdılar. Buna səbəb kimi isə idxal edilən taxılın qiymətindəki artım göstərilirdi. Bəs ölkə taxıl idxalından nə dərəcədə asılıdır?

**Kənd təsərrüfatı üzrə ekspert Vahid Məhərrəmov sosial şəbəkədə bildirib ki, Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, onu demək olar ki, ölkədə mövcud olan əkin sahələrinin əsas hissəsi, 65-70 faizi taxıl bitkilərinin əkini üçün istifadə edilir:** "Son bir neçə ildə taxılçılığın inkişafı üçün dövlət dəstəyi nəzərdə tutulsa da, bu sahəyə, xüsusən buğda və çəltik istehsalı üçün dövlət büdcəsindən hər hektara görə 90 manat subsidiya verilsə də, Azərbaycan ərzaq buğdasına olan ehtiyacını daxili istehsal hesabına ödəyə bilmir. Ölkənin cəmi 1,4 milyon ton ərzaq buğdasına ehtiyacı olduğu halda, bu tələbat tam olaraq idxalın hesabına ödənilir - baxmayaraq ki, Kənd Təsərrüfatı Nazirliyi ölkədə 1 milyon 800 min tondan çox buğda istehsal olunduğunu iddia edir, hər il Azərbaycana 1,4 - 1,6 milyon ton buğda idxal olunur. Ölkəyə buğda əsasən Rusiyadan idxal edilir. Dövlət büdcəsindən həmçinin toxumçuluğun inkişafına, xaricdən mineral gübrələrin alınaraq ölkəyə gətirilməsinə, texnika ilə bağlı problemlərin həllinə külli miqdarda maliyyə vəsaiti ayrılır. Ölkəyə son zamanlar dövlət hesabına Avropa istehsalı, təxminən hər birinin qiyməti 100 min avro olan taxılbiçən kombaynlar alınaraq gətirilib. Lakin bütün bunların müqabilində taxılçılıq sahəsində geriləmələr müşahidə edilir. Dövlət büdcəsindən sahənin inkişafı üçün ayrılan vəsaitlərin mənimsənildiyi faktlar aşkar edildi. Fermerlərə çatan az miqdarda maliyyə vəsaiti isə sahənin normal inkişafı üçün yetərli deyil. Ona görə ki, son bir neçə ildə istehsal vasitələrinin qiymətləri kəskin şəkildə artmışdı. Dizel yanacağının, benzinin, texnikanın, mineral gübrələrin və pestisidlərin qiymətləri artdığı halda bu sahədə məhsuldarlığı artırmaq mümkün olmamışdı. Taxıl istehsalı ilə məşğul olan fermerlər üçün dövlət büdcəsindən ayrılan subsidiyanın həcmi optimal şəkildə artırılmalıdır".



**İqtisadçı Rəşad Həsənov da mövzu ilə əlaqədar "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan insan istehlak məqsədli un məmulatlarında idxal olunan buğdadan asılı vəziyyətdədir:** "Çünki Azərbaycan taxıla olan tələbatının 45 faizini idxal edir və taxıl məhsullarının istehlak kateqoriyaları üzrə təhlilini aparanda görmək olur ki, təxminən Azərbaycanda eyni həcmdə taxıl məhsulları məhz un məmulatlarının istehsalına yönəldilir. Bu isə onu deməyə əsas verir ki, Azərbaycanda əsasən un məmulatları idxal olunan buğdadan asılıdır. Buğdanın isə qiyməti dünya bazarında artırsa, son nəticədə təbii ki, ölkə daxilində də qeyd etdiyimiz məhsulların qiymət artımı baş verməlidir. Xüsusilə də hazırda mövsümün sonu hesab olunduğu üçün bu məhsulların qiymətlərində artımlar daha sürətlə müşahidə olunur. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, təxminən bir neçə ay ərzində unun qiymətində artım baş verəcək. Ola bilsin ki, müəyyən mənada mövsümi xarakter daşıdığı üçün çörək istehsalı müəssisələri qiymətləri artırmasınlar. Ancaq qiymətlər gözləniləndən artıq bahalaşarsa və bu, artıq istehsalçı üçün zərərə gətirib çıxararsa, çörəyin qiymətinin bahalaşması qaçılmaz ola bilər. Ümumilikdə onu da qeyd etmək lazımdır ki, yerli istehsal olan taxıl öz keyfiyyət göstəricilərinə görə heç bir halda ərzaq məhsullarının istehsalına uyğun olan standartlara cavab vermir. Bu səbəbdəndir ki, Azərbaycanda taxıl məhsullarının böyük bir qismi idxal mənşəlidir. Ölkədə bu sahədə məhsuldarlıq səviyyəsi də aşağıdır".

**Ekspertə görə, Azərbaycan taxılını bəzi müasir dəyirmanlar götürmür:** "Azərbaycan taxılının tələbatı ödəməməsinin səbəbi iqlim şəraiti və taxılın sortlarından asılıdır. Azərbaycanda daha keyfiyyətli taxılın yetişdirilməsi mümkün deyil. Bu mümkün olduğu təqdirdə belə, onun məhsuldarlığı kifayət qədər aşağı olur ki, nəticədə prosesin icrası üçün tələb olunan şərtlər və xərclər heç də sərfəli olmur. Azərbaycanda bir sıra yeni quraşdırılmış dəyirmanlar var ki, onlar yerli taxılı üyütmə qabiliyyətində deyillər. Çünki yerli taxıl o qədər sərt və eyni zamanda aşağı keyfiyyətlidir ki, avadanlıqlar bu məhsulları qəbul etmir".

❑ **Əli RAİS**

# Hökumətdən yeni balıq qadağası: məqsəd nədir?

## Hafiz Hacıyev: "Bu yasaqlar monopolistlərin kökünü kəsə bilər"

**Azərbaycanda yetişdirilmək üçün xaricdən yeni balıq növləri və digər su bioresurslarının idxalına icazə veriləcək. Ancaq bu sahəyə ciddi nəzarət və qadağalar da tətbiq ediləcək. Bununla bağlı Nazirlər Kabineti "Balıq və digər su bioresurslarının iqlimləşdirilməsi və iqlimləşdirilmə obyektlərinin daşınması Qaydaları"nı təsdiq edib.**

Qaydalarda nəzərdə tutulur ki, balıq və digər su bioresurslarının iqlimləşdirilməsi ilə ixtisaslaşdırılmış dövlət balıqartırma müəssisələri, eyni zamanda Ekologiya və Təbii Sərvətlər Nazirliyində qeydiyyata alınan və müvafiq texniki imkanlara malik hüquqi və fiziki şəxslər məşğul ola bilər.

Sadə dillə desək, bundan sonra hökumət xaricdən gətirilən və süni formada yetişdirilən balıqlara ciddi nəzarət edəcək. Onu da xatırladaq ki, prezident İlham Əliyev də aprelin 16-da Yevlax rayonuna səfəri çərçivəsində Varvara balıqartırma müəssisəsinin açılışında iştirak edib, müəssisə ilə tanış olmuşdu. Ekspertlər bildirirlər ki, bu, dövlət başçısının da qeyri-neft sektorunun inkişafı ilə bağlı atılan addımlar fonunda balıqçılığın inkişafına önəm verməsinin göstəricisidir.

O da məlumdur ki, ölkədə digər əksər sahələr kimi balıqçılıq da bəzi məmurların monopoliyası altındadır. Azərbaycan Xəzər dənizinin sahilində yerləşsə də, ərazisindən iri çaylar keçsə də, ölkə bazarlarında balığın qiyməti heç də qənaətbəxş səviyyədə deyil.



**"Yeni Müsavat"a danışan 1991-1992-ci illərdə fəaliyyət göstərən "Azərbalıq" İstehsalat Kommersiya Assosiasiyasının sədri olmuş Hafiz Hacıyev bildirib ki, bu kimi addımlar balıq sahəsində monopolistlərin kökünü kəsə bilər:** "Məlumdur ki, bu gün Azərbaycanda bəzi məmurlar Xəzər dənizini də bölüşdürüblər. Onların özlərinin zavodları, vətəgələri də var. Halbuki, neftdən sonra balıq Azərbaycanın ikinci ən böyük sərvətidir. Zamanında biz 55 ton qara kürü verdiyimiz halda, bu gün Azərbaycanda 4-5 ton kürü istehsal olunur. Əslində hesab edirəm ki, bu gün 55 tondan da çox qara kürü istehsal edilir, lakin bunun yalnız 4-5 tonu üzə çıxarılır. Yerdə qalan böyük bir qisim isə hansısa məmurlar tərəfindən mənimsənilir. Hesab edirəm ki, cənab prezidentin də işə qarışması ilə balıq mafiyasının kökü kəsiləcək. Belə olarsa, təkcə balıq məhsullarından gələn gəlirlərlə dövlət büdcəsindən xərclləmələrin böyük hissəsini qarşılamaq olar. Bizim fəaliyyət göstərdiyimiz zamanlarda Azərbaycanda böyük miqdarda süni balıq yetişdirilirdi. İndi də ölkədə xeyli sayda - yüzlərlə hektar ərazidə axmaz su hövzələri mövcuddur. Yeni Kür çayı daşır, sonra yerinə qayıdır, yaranan axmaz sular isə illərlə orada qalır. Həmin hövzələrdə balıq yetişdirmək mümkündür. Balığın süni şəkildə artırılması ən çox Neftçala, Salyan zonasında mümkündür. Zamanında biz bu ərazilərdə balıq yetişdirməklə ölkənin daxili bazarını tam təmin etmişik. Bununla kifayətlənməyib, xaricə də böyük miqdarda balıq satmışıq. Elçibəy hakimiyyəti dönəmində 650 ton nərə (asetrin) balığını Türkiyəyə çıxarmışdıq. Süni yetişdirmə balıqçılıq sahəsində hər zaman olub. Azərbaycanda isə hazırda bu sahədə özbaşınalıq mövcuddur və sahə oliqarxların nəzarətindədir".

**H. Hacıyev bildirib ki, süni balıqlar barəsində söylənilən bəzi fikirlər yanlışdır:** "Süni balığın dadı heç də digərlərindən ciddi seçiləcək qədər aşağı deyil. Misal üçün, farel balığını biz süni yetişdirirdik. Eyni zamanda qızıl balığı, nərəni də süni formada yetişdirmək mümkündür. Sadəcə olaraq, süni formada yetişdirilən balıqların dadında hiss olunmayacaq qədər fərq olur ki, bu da balıqçılıq üçün elə də böyük əhəmiyyət kəsb etmir. Məqsəd xalqın balığa olan tələbatını ödəmək və xaricə bu məhsulları çıxara bilməkdir. Hesab edirəm ki, indiki zamanda xaricdən ölkəyə balıq gətirmək yersizdir. Ərazimizdə Xəzər dənizi olub, Kür çayı keçdiyi halda xaricdən nə üçün balıq gətirək? Bu, tamamilə məntiqdən kənar bir haldır. Görünür, Azərbaycana xaricdən balıq gətirməkdə də maraqlı olan qüvvələr az deyil. Bizim dövrümüzdə xarici gəmilərə yanacaq verib, əvəzində isə Volqa çayından balıq və qara kürü götürürdük. İndiki halda isə xaricdən ödəniş hesabına balıq almaq doğru deyil. Məqsəd daxili istehsalı artırmaq olmalıdır. Əgər daxili istehsal artarsa, bu sahəyə maraq da artar, işsizliyə də müsbət təsiri olar. Həmçinin daxili istehsalın gücləndirilməsi balığın bazarda bol olmasına gətirib çıxarar. Yeni təklif edilən məhsulun miqdarı artar, nəticədə isə qiymətlər aşağı düşər. Bu gün Azərbaycanda balığın qiyməti həddən artıq bahadır. Sazan və göldə yetişdirilən digər balıqların kiloqramı 2 manatdan baha olmamalıdır. Halbuki hazırda bu balıqlar bazarda 6-7 manata satılır. Eləcə də nərə balığının da kiloqramını 15-20 manata salmaq olar. Sadəcə olaraq, şəraitdən kimlərsə düzgün istifadə etməyiblər, öz mənafeləri naminə balıqçılıq sənayesini indiki vəziyyətə salıblar".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 103 (6717) 16 may 2017

# Dünyanın ən bahalı boşanmaları

## "Boş ol" demədən öncə ödənən milyonlar, milyardlar...



**Son bir həftə azərbaycanlıların adı dünya mediasında bir çox idman yarışları ilə paralel həm də başqa bir məsələdə hallanır. Söhbət azərbaycanlı milyarder Fərhad Əhmədovun bahalı boşanmasından gedir. O, Britaniya məhkəməsinin qərarı ilə keçmiş həyat yoldaşına 453 milyon funt (584 milyon dollar) məbləğində pul ödəyəcək.**

Bu, Böyük Britaniyanın tarixində ən böyük boşanma təzminatıdır. 61 yaşlı neft-qaz sahəsi üzrə maqnat və onun 41 yaşlı həyat yoldaşı sonuncunun xəyanəti ucbatından boşanırlar. İş adamının keçmiş həyat yoldaşına onunla birgə yaşayış müddəti boyunca əldə edilən gəlirin 41.5 faizi çatacaq. Kişi isə öz növbəsində qeyd edib ki, ailənin rifahı üçün xeyli vəsait xərcləyib. Belə ki, o, adı açıqlanmayan Rusiya kampaniyasını 1.3 milyard dollara satandan sonra Londonun elit rayonlarından birində oğullarına iki ev alıb. Amma hakim onun bu əsaslandırmasını qəbul etməyib və bildirib ki, ərlə arvadın bu məsələdəki rolu tamamən eyni olub.

Bu xəbər isə bizi dünyadakı ən bahalı boşanmalarla bağlı araşdırma aparmağa vadar etdi. Təsəvvür edin ki, dünyanın ən varlı adamlarının toyu necə lüks, dəbdəbə içində keçirsə, boşanmaları da o cür məsrəfli, biabırçı və qalmaqallı olur. Hətta bir çox hallarda boşanmaya görə ödənilən təzminat məbləğləri astronomik olur və insan da bəzən bu evliliklərin baştutma səbəbinə şübhə ilə yanaşır: bir evlilikdən sonra milyonlarla dollar təzminat tələb edirsənsə, məqsəd asan yolla varlanmaq deyil, bəs nədir?

### Yaşlı ər cavan sevgiliyə üz tutursa.... kompensasiyanın məbləği böyük olur

Bu arada arayış üçün deyək ki, Britaniyada əgər cütlüyün boşanma səbəbi xəyanətdirsə, bu halda xəyanəti edən şəxs əlavə və olduqca böyük məbləğdə təzminat ödəyir. Yox, əgər söhbət ancaq uyğunsuzluq, xarakterlərin ziddiyyətindən gedirsə, bu halda məbləğ nisbətən kiçik olur. 2016-cı ilin yayında məlum olmuşdu ki, britaniyalı milyarder Riçard Karinqin arvadından ayrılması dünyanın ən bahalı boşanması adlandırılıb.

Milyarderin gizli hissləri ona varidatının yarısı hesabına başa gəlib. Onun 67 yaşlı arvadı Ceka Sted ərinin braziliyalı 35 yaşlı gözəl Patrisiya Mondinni ilə sevgi romanı yaşaması səbəbindən ondan 350 milyon funt alıb. Ərlə-arvad 45 il birgə yaşayıblar. Ceka iki oğul dünyaya gətirib. Ərinin cavan sevgilisindən xəbər tutanda Sted boşanmaq üçün müraciət edib.

Mənəvi kompensasiya kimi iri məbləğ tələb edərək İngiltərədə ən bahalı boşanmanın qalibi olub. Riçard Karinq isə bunca xərcə düşməsinə qətiyyən heyfsilənməyib. Birincisi, onun varidatı milyard funt dəyərləndirilir. İkincisi, karlı milyarder özü mediaya açıqlamasında deyib ki, o, yeni sevgilisinin yanında olması müqabilində istənilən məbləği ödəməyə hazır olub.

Karinq onu da bəyan edib ki, nəhayət, öz həyatının sevgisini tapıb və ömrünün qalan hissəsini məhz onunla keçirmək istəyir. Bir sözlə, onun qalan ömrü kifayət qədər dəbdəbəli keçəcək.

Ona görə də milyarder sevincindən Londonun prestijli Sent-Cos-Vud rayonunda villa alıb. Dəyəri 32 milyon funtdur...

Amerikanın CelebrityCafe portalı məşhurlar arasında ən bahalı boşanmaların reytinqini müəyyənləşdirib. Reytinqə Maykl Cordan ilə xanımı Xuanitanın boşanması başçılıq edir.

17 il birgə yaşadıqdan sonra 2006-cı ildə ayrılmış cütlüyün boşanması Cordana 168 milyon dollara başa gəlib. O, eks-xanımına məhz bu qədər pul ödəyib.

İkinci yerdə müğənni Nil Daymond və prodüseri Mörfinin boşanmasıdır. Mörfi bundan 150 milyon dollar qazanıb.

İlk üçlüyü məşhur rejissor Stiven Spilberqlə aktrisa Emi İrvinqin boşanması qapayır. Boşanma Spilberqə 100 milyon dollara başa gəlib.

Sərvəti "Forbes" tərəfindən 8,8 milyard dollar qiymətləndirilən rusiyalı milyarder Dmitri Rıbolovlev keçmiş arvadına 3,3 mlrd. avro (4,5 mlrd. dollar) ödəməli olacaq.

Bu qərarı Cenevrə məhkəməsi verib. Ərlə arvad evlənəndə nikah müqaviləsi bağlamayıblar. Buna görə də İsveçrə qanunvericiliyinə görə, onların bütün əmlakı evlilik dövründə birgə yığılmış sərvət sayılır, uyğun olaraq boşanma zamanı yarı bölünür. Amma vəkil bildirir ki, Cenevrə məhkəməsinin qərarından şikayət etmək mümkündür.

Ərlə arvad birlikdə 24 il yaşayıblar, altı ildir ki, əmlakı bölməklə məşğuldurlar. Rıbolovleva 2008-ci ildə boşanma ərizəsi verib və buna səbəb ərinin ona xəyanət etməsi olub.

Rıbolovlev hazırda Monakoda yaşayır. Onun İsveçrədə, Havay adalarında, Floridada, Nyu-Yorkda əmlakı var və iki yunan adası ona məxsusdur. Milyarder həm də Pikasso, Van Qoq, Qoqen və Mone kimi rəssamların əsərlərindən ibarət başqa bir sərvətə də malikdir. Onların boşanması çağdaş tarixin ən bahalı boşanması sayılır.

Məşhur rusiyalı oliqarx Boris Berezovski də həyat yoldaşı Qalina Beşarovadan ayrılmaq üçün 2010-cu ildə 160 milyon dollar təzminat ödəyib. Maraqlıdır ki, boşandıqdan 3 il sonra müxalif iş adamı-siyasətçi evində ölü tapılıb.

Ən məsrəfli boşanmaların tərəfləri həm də Hollivud ulduzları olur. Bunlardan biri də Mel Qibsonla Robin Moore Qibson cütlüyüdür. Onlar cəmi 3 il evli qalıblar və 2012-ci ildə boşanıblar. Aktyor arvadını boşamaq üçün 425 milyon dollar ödəməyə razılaşıb.

Milyonlarla bu qədər. İndi keçək milyardlıq boşanmalara. "Formula 1" sahibi Bernie Ecclestone Slavıdan boşanmaq üçün 1.2 milyard dollar təzminat ödəyib. Fransız iş adamı Alec Uildenstein arvadı Cocelyndən 1997-ci ildə boşananda düz 2.5 milyard dollar ödəyib. Rus milyarderi Dmitri Rıbolovlyov isə həyat yoldaşı ilə yollarını ayırmaq üçün 4.5 milyard dollar ödəyib.

**Sevinc TELMANQIZI**

**İzrail ənənəsi əsasında özəl tibbi sahədə 20 illik təcrübə!**
**XƏSTƏLİKDƏN ƏZAB ÇƏKƏN İNSANLARA ƏSASƏN KİŞİLƏRƏ!**
**DİQQƏT!!! AXIRINCI ŞANS!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, **doktor VAİZ SƏMƏDOV** şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi keyfiyyətli müayinə və müalicə edə bilər.

✳ **Diaqnozu bilinməyən ağır hallar;**
✳ **Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər; Qipertrofiya və ya Atrofiya**
✳ **Cinsi zəiflikdən tam impotensiyadək, marağın və aktların azalması;**
✳ **Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)**
✳ **Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)**
✳ **Sidikdə və ya spermada qan;**
✳ **Spermanın azalması və itməsi;**
✳ **Kişi cinsi orqanının birdən əyilməsi və balacalması;**
✳ **Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) inkişafdan qalması;**
✳ **Hormonal və infeksion səbəbli sonsuzluq (kişi və qadınlarda);**
✳ **Tala-tala və hərtərəfli saçların tökülməsi;**
✳ **Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları; Enurez**
✳ **50 yaşdan sonra oynaqlarda və onurğada baş verən qeyri travmatik ağrılar və hərəkət çətinlikləri;**
✳ **Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.**
✳ **Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.**

---

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

---

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, **(050) 213-88-05** nömrəsinə, **d-r Vaiz Səmədova** zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.

YENİ MÜSAVAT
N 103 (6717) 16 may 2017

# “Mənim unudulmaq haqqım var” - Googlenin möhtəşəm seçimi barədə bilmədiklərimiz

## Barənizdə internetdəki bütün məlumatları sildirmək istəyirsizsə, bu yazını oxuyun

**Biz jurnalistlərin başına bu kimi hallar tez-tez gəlir. Bir də görürük ki, dünən barəsində yazdığımız adam səsini başına ata-ata redaksiyanın qabağındadır. “Barəmdə yazdıqlarınızı saytdan çıxarın” deyə ultimatum verirlər. Az keçmədən ikinci bir ultimatum da verirlər ki, ümumiyyətlə, adını internetdən silək. Məqsəd google axtarış saytında adını yazanda barəsində heç bir məlumatın üzə çıxmamasıdır.**

Çoxları bu tələbi bilməzdən, sadəcə, uşaq cığallığı ilə səsləndirir. Amma bu, artıq yuxu deyil. İnsanlar rahatlıqla barələrində nə zamansa internetdə yer almış məlumatları sildirirlər. Bu təcrübədən ilk növbədə məşhurlar istifadə edir. Xüsusən də özəl həyatları ilə bağlı məlumatları. Düşünün, qadının (və ya kişinin) bu günə qədər onlarla sevgilisi olub. Hər birisi barədə xəbəri, açıqlaması, müsahibəsi çıxıb. Onlardan ayrılıb və indi google-da barəsində axtarış verən hər kəs bu zəngin dosyeni rahatlıqla vərəqləyə bilir. Eləcə də qalmaqalları, iştirakçısı olduğu insidentlərlə bağlı. Nə etsin? Gələcək nəsillər, lap elə gələcəkdə öz övladı anası-atası barədə axtarış verəndə... bu zəngin eşq hekayələrini, dodaq-dodağa ayrı-ayrı şəxslərlə fotolarınımı görsün? Özlərini bu formada “sildirmək” üçün ciddi prosedurlardan keçirlər, paralar ödəyirlər və məqsədlərinə də nail olurlar.

“Yeni Müsavat” bu məsələnin detallarını araşdırıb. İnternet ensiklopediyası Vikipedianın qurucusu Cimmi Ueyls unudulma haqqı səbəbi ilə Googlenin tətbiq etdiyi fərdi senzura sisteminin müvəffəqiyyətli olmayacağını düşünür. Maraqlı burasıdır ki, Avropa Ədalət Divanının qəbul etdiyi “unuduma haqqı” qərarı qüvvəyə minəndən sonrakı ilk gündə 28 Avropa Birliyi ölkəsi vətəndaşından 12 min məlumat sildirmə tələbi gəlmişdi. Bu cür tələbə baxmayaraq, Ueyls senzura sisteminin işə yaramayacağını söyləmişdi: “İnternetin qlobal miqyaslı quruluşundan ötəri fərdi məlumatları silmə sistemi çox uzun davam etməyəcək. Məsələn, Googlenin ABŞ versiyası bu qərara daxil deyil və əsla olmayacaq. Avropada fəaliyyət göstərməyən, lakin başqa ölkələrdə çalışan bir çox axtarış mühərriki var. O axtarış mühərrikləri də unudulma haqqı qərarını yerinə yetirməyəcələri üçün bir nəfərin internet üzərindəki bütün məlumatlarının sonsuza qədər silinməsi qeyri-mümkündür. Müvəffəqiyyətsiz bir cəhddir”.

Belə qərarın çıxarılmasına səbəb bir ispanın 15 il əvvəl evinin satışa çıxarılması haqqında məlumatların icazəsiz qəzet və internetdə yayınlanması olub. Həmin ispanın şəxsi hüquqlarının pozulması tələbi əsasında açdığı davada məhkəmə “unudulma haqqı”na qərar verib.

Googlenin rəsmi məlumatında isə qeyd edilib ki, insanların internet üzərindəki keçmişlərinin silinməsi üçün hər 7 saniyədə bir tələb göndərilir. “Unudulma haqqı” əslində insanların Google nəticələrindən adlarının silinməsi tələbini ehtiva edir. Google bu günə qədər daxil olan tələblərin 41.8 faizini həyata keçirib. Müraciət edənlərin ümumi statistikası göstərir ki, bu sahədə Fransa birinci yerdədir. İkinci sırada Almaniya dayanır. “Unudulma haqqı”nın detallarına gəlincə, insanlar özləri barədə məlumatları ancaq Googlenin axtarış nəticələrindən sildirə bilirlər, ümumən həmin səhifələri sildirə bilmirlər. Türkiyə və Azərbaycan Avropa Birliyi üzvü olmadığı üçün bu xidmətdən faydalana bilməz.

Hesab edək ki, vətəndaş adının Googledən silinməsini, itməsini, batmasını istəyir. Bunun üçün hansı addımları atmalıdır? Bundan ötrü ilk növbədə sosial mediadakı hesablar silinməlidi. Çünki Google, Yendex və ya Bing axtarış saytlarında qarşımıza çıxan ilk nəticə sosial mediadakı hesabdır. Öncə Twitter, Facebook, Linkedin kimi saytlardakı profil və mesajlarınız görünür. İnternetdən “yox olmanın” ilk yolu buralardan profillərinizi silməklə başlayır. Əgər ancaq axtarış nəticələrindən “itmək” istəyirsizsə, bu profilləri “özəl” edə bilərsiz. Ancaq yaxın dostlarınızın görə biləcəyi profil. Amma bu tam nəticə verməyə bilər.

Arzuedilməyən nəticələri çıxarın: sosial media profilindən qurtulandan sonra ikinci addım adınızın göründüyü saytları axtarmaqdan ibarətdir. Haralarda göründüyünüzə baxın və bir qırağa qeyd edin. Sayta müraciət edərək mədəni şəkildə adınızın ordan silinməsini istəyin. Dünyada qayda belədir: saytlar məhkəmə qərarı olmadan xəbərləri, onun tərkibindəki mətnləri saytdan çıxarmır, belə bir öhdəliyi yoxdur. Amma çox mədəni danışmaqla onlara xəbərin içərisindəkinin doğru olmadığını, bunun həyatınıza, işgüzar nüfuzunuza zərbə olduğunu izah etməniz mümkündür.

Elektron ünvanla bağlı bütün məlumatlarınızı yox edin. Çünki üzvü olduğunuz bir çox forum və saytlarda istifadə etdiyiniz adlar vasitəsilə də sizinlə əlaqə saxlaya bilərlər. Forumlarda kimliyinizi göstərən paylaşımlarınız varsa, moderatordan onları silməsini istəyin. E-posta ünvanınıza yönləndirilən bütün bağlantıları kəsin. İnternet üzərindən mümkün olan bütün çıxış yolları fayda verməyi halda özünüzə vəkil tuta bilərsiz.

Googleyə belə bir müraciət etmək istəyənlər ərizəni doldurmaqla yanaşı, kimliklərini də ərizəyə daxil etməlidirlər. Onlar Googlenin axtarış sistemində özləri barəsində çıxan internet linklərini də ərizədə tək-tək göstərməli və bunların Googledən niyə sildirmək istədiklərini açıqlamalıdılar. İnternet istifadəçiləri Googlenin bu ərizəsini doldurub göndərəndən sonra onun prosedura uyğun olaraq araşdırılması ilə bağlı bir mesaj alırlar. Amma prosedurun nə qədər davam edəcəyi ilə bağlı Google hər hansı məlumat vermir. Google rəhbərliyi sözügedən qərarla bağlı bir məsləhət komissiyasından yardım aldığını açıqlayıb. Bu komissiyanın üzvləri arasında Googlenin eks rəhbəri Erik Schmidt, Vikipedianın qurucularından olan Cimmi Vales, Oxford və Leuven (Belçika) universitetlərinin mütəxəssisləri, İspaniyanın eks- məlumat qoruma mütəxəssisi Jose Luis Pinar, BMT-nin düşüncə və düşüncənin ifadə azadlığı ilə bağlı özəl reportyoru Frank La Rue də var.

Daha praktik məlumatlarla yazımızı davam edək.

1. Hər hansı bir Google məhsulundan link sildirmək istəyiriksə, aşağıdakı səhifəyə baş çəkməliyik. Bu səhifədəki seçimlərə baxanda, Google bizi lazımlı nəticəyə və ya səhifəyə yönləndirəcək. Amma unutmayın ki, bu yönləndirmə nəticəsində Google istədiyiniz məlumatı internetdən yığışdırmağı qaranti etmir.

https://support.google.com/legal/troubleshooter/1114905?hl=tr
ttps://support.google.com/legal/troubleshooter/1114905?hl=tr

2. Məlumatı sildirməyi tələb edəcəyiniz Google məhsulları aşağıdakılardır: Blogger/Blogspot, Google+, Google web arama, Google görsel arama, Google Reklamları (Adsense), Drive ve dökümanlar, Google Play, Google Alışveriş, Youtube, Picasa, Orkut ve diğerleri.

3. Googlenin unudulma haqqından yararlana bilən 32 ölkədən birinin vətəndaşı olanlar aşağıdakı səhifəyə müraciət edə bilərlər.

https://support.google.com/legal/contact/lr_eudpa?product=websearch#

Hazırda unudulmaq haqqından yararlana bilən 32 Avropa ölkəsi isə aşağıdakılardır: Avstraliya, Belçika, Bolqarıstan, Horvatiya, Cənubi Kıbrıs, Çexiya, Danimarka, Estoniya, Finlandiya, Fransa, Almaniya, Yunanıstan, Macarıstan, İrlandiya, İtaliya, Latviya, Litva, Lüksemburq, Malta, Hollandiya, Norveç, Polşa, Portuqaliya, Rumıniya, Slovakiya, İspaniya, İsveç, İsveçrə, İngiltərə.

4. Əgər Googledən sildirmək istədiyiniz məlumat başqa bir veb saytda yer alırsa və Googledə bu məlumatı axtarış nəticələrindən silə bilmirsə, o zaman saytın sahibi, qurucusu və ya rəhbərliyinə müraciət etməlisiniz.

Məsələn, facebookda sizinlə bağlı həqarət və s. xarakterli bilgilərlə dolu olan bir hesab, ya da səhifə varmı? Facebook rəhbərliyinə öncə bu hesabla bağlı şikayət etməli, daha sonra isə müvafiq yollarla spamlamalıyıq. Həmin vaxt da aşağıdakı linklər vasitəsilə məsələni həll etməliyik.

https://www.facebook.com/help/www/181495968648557

Daha bir nümunə: Twitter-də sizinlə bağlı həqarət və ya böhtan dolu məlumatlara sahib bir hesab var? Öncə bu hesabı müvafiq bağlantılar vasitəsilə spamlamalı, daha sonra Tvitter rəhbərliyinə bu hesabla bağlı şikayət etməlisiz. Onu da aşağıdakı linkə daxil olmaqla etmək mümkündür.

❑ **Sevinc TELMANQIZI**



# Gəncə Şəhər İcra Hakimiyyəti verdiyi vədə əməl etmir

## “Söz versələr də, dağıtdıqları mağazamızı tikib təhvil vermirlər”

**Gəncə sakini Tamella Hüseynova yenidən redaksiyamıza gələrək şikayətlənib. Şikayətçi qeyd edib ki, Gəncə şəhəri Dədə Qorqud küçəsində yerləşən mağazası 2015-ci ildə heç bir məhkəmə qərarı olmadan şəhər icra hakimiyyəti tərəfindən avadanlıqları ilə birlikdə qanunsuz olaraq dağıdılıb. Çoxsaylı şikayətlərdən sonra icra hakimiyyəti tərəfindən şikayətçiyə zəmanət məktubu göndərilərək bildirilib ki, dəyən ziyan təmin ediləcək, 2015-ci ilin sonuna qədər mağaza yenidən təmir edilərək şikayətçiyə təhvil veriləcək. Lakin qərar bu günə qədər yerinə yetirilməyib: “Dəfələrlə Gəncə şəhər icra başçısının qəbulunda olmuşam. Həm icra başçısının, həm də məmurların dəfələrlə verdiyi vədlərə baxmayaraq mağaza tikilib təhvil verilmir. İki ildir ki, tikintisi davam edən mağaza heç bir standartlara cavab vermir. Mağaza tək kubiklə hörülüb, dam örtüyü həm görkəmsiz, həm də keyfiyyətsizdir. Yağan yağışlar mağazanın içinə dolur. Bir çox işlər yarımçıq qalıb. Ailəmizin heç bir yerdən gəliri yoxdur, aclıq çəkirik. Həyat yoldaşım haqsızlıqlara dözməyərək 2016-cı ilin yayında infarkt keçirdi. Hazırda 2-ci qrup əlildir. Aidiyyəti orqanlardan xahiş edirik, bizim pozulan hüquqlarımızın bərpa olunmasına köməklik edilsin”.**

Xatırladaq ki, bundan əvvəl də Tamella Hüseynova bu barədə redaksiyamıza şikayət etmişdi. Məsələ ilə bağlı 2016-cı ilin sentyabrında Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən məktubla cavab verilərək bildirilmişdi ki, şikayətçi qurum tərəfindən qəbul olunub, tikilən obyektə baxış keçirilib. Məktubda o da qeyd olunmuşdu ki, Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən Nahib Hüseynovun obyektinin tikintisinə təsdiq edilən layihə əsasında başlanılan obyektdə hazırda tamamlanma işləri aparılır və yaxın günlərdə hüquqverici sənədləri veriləcək.

Məsələ ilə bağlı yenidən adıçəkilən qurumun mövqeyini dərc etməyə hazırıq.

❑ **Xalidə GƏRAY**

# YENİ MÜSAVAT

## Son səhifə

N 103 (6717) 16 may 2017


# McDonaldsdan yemək almağa vertolyotla gəldi




Avstraliyada bir kişi "McDonalds"a vertolyotda gəlib. Bu barədə lenta.ru saytı 9news.com.au-ya istinadən xəbər verib. Pilot vertolyotu Sidneydə yerləşən kafelər şəbəkəsinin qabağındakı yaşıllığa endirib. Daha sonra vertolyotdan pilot enib, öz sifarişlərini götürüb və vertolyotun kabinəsinə aparıb. Uçuşa başlamadan öncə isə restoranın fonunda vertolyotun şəklini çəkib. Yerli radiostansiya vertolyotu idarə edən şəxsi axtarıb və ondan münasibət götürüb. Pilot bildirib ki, onun "McDonalds"ın ərazisində enmək üçün rəsmi icazəsi olub.

"Biz restoranımıza gələn hər müştərini salamlayırıq. Təbii ki, əgər onlar bura gələndə və burdan gedəndə təhlükəsizliyə riayət edirlərsə". Bunu isə McDonald's kampaniyasının Avstraliyadakı şöbəsinin rəhbəri Skay Oksenhem deyib. Amma buna baxmayaraq, Avstraliyanın Vətəndaş Aviasiyasının təhlükəsizliyi idarəsi vertolyotun eniş və qalxışı zamanı təhlükəsizlik qaydalarına nə dərəcədə riayət olunmasını araşdıracaq.

# Şalvarını geyinə bilməyən uşaq polisə zəng etdi



Amerikanın Cənubi Karolina ştatında 2 yaşlı uşaq polisə zəng edərək, ilginc bir xahiş edib. Lenta.ru saytının xəbərinə görə, uşaq şalvarını geyinə bilmədiyi üçün polisdən yardım istəyib. 2 yaşlı Aliyanın zənginə cavab verən polis əməkdaşı Marta Lones bildirib ki, dəstəyin o biri ucundakı səs sahibinin uşaq olduğu hiss edilsə də, baş vermiş problemin nədən ibarət olduğunu aydınlaşdırmaq üçün uşağın evinə polislər göndərilib: "Bizim polislər evə çatanda isə şalvarını yarı geyinmiş halda olan bir balaca qız sevincək qapını açıb və "salam" deyib. Sonra da bildirib ki, əsas problem şalvarını geyinə bilməməsi idi və buna görə yardım istəyib".

Hadisə yerində olan qadın polis isə iki uşaq anası olaraq bu məsələlərdə çox təcrübəli olduğu üçün Aliyanı dərhal geyindirib. Uşağın anası Pebls Ryan deyib ki, qızına hər hansı problem qarşısında polisə zəng etməyi özü tapşırıb. Amma qızcığaz şalvar geyinə bilməməyin problem olduğuna özü qərar verib. Uşaq isə evdə tək olmayıb.



# Balıq balıqçının ağzına hoppandı...

Hindistanda həkimlər ağzına balıq hoppanan balıqçının həyatını xilas ediblər. Bu barədə "Daily Mirror" qəzeti xəbər verib. Hindistanın Orissa ştatının sakini çaydan 10 santimetr uzunluğunda balıq tutsa da, onu əlində saxlaya bilməyib. Balıq cəld bir şəkildə kişinin sıçrayıb və onun boğazında ilişib. Balıqçı nə qədər cəhd etsə də, balığı boğazından çıxara bilməyib. Balıq onun danışmasına və nəfəs almasına mane olub. Zərərçəkmiş balıqçını dərhal yaxınlıqdakı xəstəxanaya aparıblar. Amma yerli həkimlər ona kömək edə bilməyiblər. Ona görə də balıqçını ştatın paytaxtına - Bxubaneşvar şəhərinə aparıblar. Həkimlərdən birinin dediyinə görə, xəstənin boğazından balığın quyruğunu çıxara biliblər. Əməliyyat zamanı zərərçəkmişə ağrıkəsici veriblər. Yalnız bundan sonra onun boğazında kiçik əməliyyat edə biliblər. Balıqçının boğazına atılan tikişlərin 10 gün müddəti olub. Bu müddət ərzində kişi burnundan salınan zond vasitəsilə qidalanmağa çalışıb.




**QOÇ** - Təxminən saat 15-ə qədər ümumi ovqatınız xoş olacaq. Ünsiyyətdə olduqlarınız sizi anlayacaq. Sonrakı müddətdə isə ciddi və böyük mübahisələrə cəlb olunacağınız gözlənilir.

**BUĞA** - Ulduzların düzümü səhhətinizlə bağlı bəzi problemlərlə rastlaşa biləcəyinizdən xəbər verir. Bu səbəbdən də orqanizminizə zidd olan işlərdən yayınmalısınız.

**ƏKİZLƏR** - Maraqlı görüşlər və sövdələşmələr yolunuzu gözləyir. Bir qədər qətiyyətli olun. Bədxah adamlara qarşı rəhmli olmaq o qədər də səmərəli deyil. Ulduzlar qidanıza fikir verməyi məsləhət görür.

**XƏRÇƏNG** - Yeni əlaqələr yaratmaq üçün ideal ərəfədir. Çox güman ki, bir neçə yeniliyin şahidi olacaqsınız. Sevindirici təkliflər də labüddür. İmkan daxilində ziyarətgahlara üz tutun.

**ŞİR** - Bütün enerjinizi fəaliyyətə istiqamətləndirin. Çünki yaxın perspektivləriniz bugünkü addımlarınızdan birbaşa asılı olacaq. Daşınmaz əmlak alqı-satqısı ilə bağlı sövdələşmələrə getməyin.

**QIZ** - Bu mülayim təqvim sizin üçün həddindən ziyadə uğurlu keçməlidir. Ürəyinizcə olan şəxslərlə rastlaşmağınız, eləcə də təzə xəbərlər eşitməyiniz sizi sevindirəcək. Riskdən qorxmayın.

**TƏRƏZİ** - Astroloji göstəricilər işgüzar səfərlərə çıxmağınızda qəbahət görmür, xüsusən də əgər bu, yeni fəaliyyətlə bağlıdırsa. Başqa məsələlərdə isə neytral qalmağınız məqsədəuyğundur.

**ƏQRƏB** - O qədər də uğurlu gün deyil. Bir tərəfdən ətrafınızda lazımi adamların olmaması, digər tərəfdənsə əsəbi situasiyalar ovqatınızı korlaya bilər. Bacardığınız qədər istirahət edin.

**OXATAN** - Saat 13-ə qədər sakit şəraitdə olmağınız vacibdir. Riskli iş görmək, səfərə çıxmaq yolverilməzdir. Əks təqdirdə, əsəbi məqamlar yaşayacaqsınız. Axşam sevdiyiniz şəxslərlə görüşün.

**OĞLAQ** - Göy qübbəsi yalnız ev-eşiklə məşğul olmağınızı tövsiyə edir. Digər işləri isə hələlik təxirə salmağınız məsləhətdir. Yaşca sizdən kiçik olanların qayğısına qalın.

**SUTÖKƏN** - İxtiyarınızda olan bu təqvimdə üzərinizə böyük öhdəliklər düşür. Nəticənin uğurlu olacağını nəzərə alıb yorulmaqdan çəkinməyin. Kənar müdaxilələrə isə ciddi reaksiya verməyin.

**BALIQLAR** - Əgər bizneslə məşğulsunuzsa, bu gün bəxtiniz gətirə bilər. Çünki bütün göstəricilər uğurlu işbirliyi yaradacağınızdan, həmçinin varlanmağa başlayacağınızdan xəbər verir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Keşiş möcüzə göstərmək istədi, timsahlara yem oldu



**Zimbabvedə timsahlar keşişi yeyiblər. Bu barədə Nigeriyanın nəşr orqanı "Daily Post" xəbər verib. Şahidlər iddia edir ki, keşiş Conatan Mtetva sakinləri çayın qırağına gətirərək, onlara suda möcüzə varlıq olduğunu deyib. O, Timsahlı çay adını daşıyan çaya girib və sahildən 30 metrə yaxın aralanıb. Elə həmin vaxt ona üç timsah eyni vaxtda hücum edib. Baş vermiş hadisənin şahidlərindən biri deyib ki, onlar bu hadisənin necə baş verməsinə görə təəccüblənibiblər. Çünki keşiş bütün həftə boyunca dua edib və Allaha yalvarıb: "Timsahlar cəmi yarım dəqiqəyə onu məhv etdilər, biz şoka girdik".**

Bibliyanın məlumatlarına görə, suda gəzən varlıq İusus Xristosun yaratdığı möcüzələrdən biridir. O, bununla da öz şagirdlərini özünün müqəddəsliyinə inandırır. Aprelin ortasında məlumat verilmişdi ki, Zimbabvedə itən cənubi amerikalı ovçu Skot van Zilanı timsahlar yeyib. Kişi Limpopo çayının yaxınlığındakı rayonda, safaridə itmişdi.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100